RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 283 (8306) CÜMƏ, 20 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yeni Azərbaycanın müəllifləri

**Prezident İlham Əliyevin milli dövlətçilik tariximizdəki yeri, zamanın çox maraqlı, amma elə bir o qədər də çətin və mürəkkəb dövrünə təsadüf edir. Bu dövrü tarixə baxış bucağından asılı olaraq müxtəlif açar kəlmələrlə assosiasiya edə bilərsən.**

**Çünki bütün güclü liderlərin öz xalqına rəhbərliyi dövrünü xarakterizə edən ən azı konkret bir ad mütləq var.**

**Mənsə uzun zamanlar idi ki, bir yazı-pozu adamı kimi bu dövrün ayrı-ayrı tarixi salnamələrinə işıq sala-sala, təəssüratlarımı kağız qələmlə bölüşə-bölüşə həm də bu dönəmin ümumi mənzərəsinə çevrilə biləcək ən uğurlu ifadənin axtarışında idim...**

Bir neçə gün əvvəl televiziyada izlədiyim maraqlı bir reportaj, deyəsən, düşüncə karvanımın sarvanına çevrilərək illərdən bəri axtardığımın izinə düşməkdə kömək göstərdi.

Kadrlar Prezidentin Bakı Gəmiqayırma Zavodunda inşa olunmuş ilk tankerin - "Laçın"ın istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirakını əks etdirirdi. Dövlət rəhbərimizə verilən məlumatlardan belə anladım ki, ölkəmizdə tam sıfırdan həm tankerin, həm də gəmi-bərənin tikilməsi tarixdə bir ilkdir.

Bəli, məhz tarixdə bir ilk...

Bu kəlmələri cənab İlham Əliyevin iştirak etdiyi çox açılış mərasimlərində, bir dövlət qurucusu kimi nəcib imzasının parladığı çox işlərdə eşidib duymuşuq, Azərbaycan Prezidentinin tariximizdəki bir çox ilklərə müəllifliyinə şahid olmuşuq.

*Ardı 6-cı səh.*

## Bütün seçki hərəkətləri mərhələli şəkildə icra edilir

### Səsvermə prosesi, səslərin sayılması, nəticələrin və yekunların müəyyən olunaraq ictimailəşdirilməsi

Səsvermə prosesi seçkilərin əsas mərhələlərindən biri olmaqla, müəyyən edilmiş məkan və zaman daxilində, qanunda nəzərdə tutulmuş qaydada seçki subyektləri tərəfindən həyata keçirilən hərəkətlərin məcmusudur.



Seçkilərin təyin edilməsi günündən başlayaraq icra edilən bütün seçki hərəkətləri mərhələli şəkildə, qanunvericilikdə müəyyən edilmiş müddətdə və qaydada icra edilir, bir mərhələnin icrası başqa mərhələ üçün hüquqi nəticə yaradır və onun icrasının başa çatması digərinin başlamasına səbəb olur.

*Ardı 9-cu səh.*

## Qəbul edilməsinə Ermənistanın mane olmağa cəhd göstərdiyi qətnamə BMT Baş Assambleyası tərəfindən təsdiq edilib

Dekabrın 18-də BMT Baş Assambleyası özünün plenar iclasında "Xüsusi komitənin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təşkilatın rolunun gücləndirilməsinə dair məruzəsi" adlı qətnaməni təsdiq edib.

AZƏRTAC xəbər verir ki, Xüsusi Komitə Azərbaycan nümayəndə heyətinin təklifi ilə həmin məruzədə Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasının ərazisi olmasını təsdiq edib. Məruzədə daha sonra dövlətlərin güc tətbiq etməklə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinmək öhdəliyi xatırlanır, dövlət suverenliyinin, ərazi bütövlüyünün və başqa dövlətlərin daxili işlərinə qarışmamağın əhəmiyyəti qeyd edilir.

*Ardı 8-ci səh.*

# Bu il pambıqçılıqda rekord göstərici əldə olunub

### Prezident əldə edilmiş nailiyyətlərlə kifayətlənməməyi, məhsuldarlığı daha da yüksəltməyi qarşıya məqsəd qoydu



Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı müşavirədə giriş nitq söylədi.

## Prezident İlham Əliyevin giriş nitqi

- Biz bu gün pambıqçılıq sahəsində görülmüş işlərə yekun vuracağıq. Pambıq yığımı, demək olar ki, başa çatıbdır. Bu il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edib. Bu, doğrudan da, çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu, bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz. Biz demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik.

Eyni zamanda, biz bu gün növbəti illərdə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparacağıq və təkliflər səslənəcək ki, bundan sonra da pambıqçılıq uğurla inkişaf etsin. Pambıqçılıq bizim üçün ənənəvi kənd təsərrüfatı sahəsidir, ta qədim dövrlərdən Azərbaycan ərazisində pambıqçılıqla kəndlilər məşğul olmuşlar. Statistika isə 1913-cü ildən artıq pambıqçılıqda baş verən inkişafı nəzərə alır. 1913-cü ildə Azərbaycanda 100 min hektarda pambıq əkilmişdir və hektardan məhsuldarlıq cəmi 6 sentner təşkil edirdi. Ondan sonrakı dövrlərdə pambığın istehsalı artmışdır. Ancaq ən sürətli artım Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun fəaliyyəti nəticəsində nəinki pambıqçılıq, kənd təsərrüfatının bütün başqa sahələri də uğurla inkişaf etmişdir. Əgər statistikaya nəzər salsaq görərik ki, onun dövründə baramaçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, tərəvəzçilik pik həddə çatmışdır. Beləliklə, kəndlərdə yaşayan insanlar öz maddi durumunu yaxşılaşdırmış, evlər tikmiş, maşınlar, məişət texnikası almışlar. Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdəki fəaliyyəti Azərbaycanı müttəfiq respublikalar arasında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə ucaltmışdır. Bundan daha önəmli məsələ ondan ibarətdir ki, Azərbaycanda yaşayan insanların rifah halı böyük dərəcədə yaxşılaşdırılmışdır.

Məlumat üçün deyə bilərəm ki, 1969-cu ildə Heydər Əliyev birinci katib seçiləndə Azərbaycanda 200 min hektarda pambıq əkilmişdir və 300 min tona yaxın məhsul götürülmüşdür, yəni, məhsuldarlıq orta hesabla 15 sentner səviyyəsində idi. Ancaq 1980-ci illərin əvvəllərində həm məhsuldarlıq artmışdır, 30 sentnerə yaxınlaşmışdır, hətta bir neçə ildə 30 sentnerdən də üstün idi və pambıq tədarükü sabit sürətdə təqribən 800 min ton səviyyəsində olmuşdur. 1981-ci ildə isə bu rəqəm 1 milyon tona qalxmışdır.

Heydər Əliyev Moskvaya gedəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də, o cümlədən pambıqçılıqda vəziyyət tənəzzülə doğru getdi, üzümçülük, demək olar ki, tamamilə sıradan çıxarıldı. Deyə bilərəm ki, bu da həm sovet rəhbərliyinin, həm də o vaxt Azərbaycan rəhbərliyinin cinayəti nəticəsində baş vermiş hadisə idi. Çünki üzümçülüyün Azərbaycanda böyük ənənələri var idi. Heydər Əliyevin dövründə istehsal 2 milyon tona qalxmışdır. Yəni, Azərbaycan sovet məkanında ən çox üzüm istehsal edən respublika idi. Bizdən sonra gələn respublikalar heç 1 milyon ton üzüm istehsal edə bilmirdi. Bizdə isə istehsal 2 milyon ton idi. Təsəvvür etmək çətin deyil ki, bu, nə qədər böyük xeyir gətirirdi həm respublikaya, həm də kəndlilərə. Üzümçülüyə çox böyük ziyan vurulmuşdur və o vaxt bizim üzüm bağlarımız dağıdılırdı. Yəni, çox böyük xəyanətkar və cinayətkar siyasət aparılaraq, demək olar ki, Azərbaycanın kənd təsərrüfatı məhv edilirdi. Əfsuslar olsun ki, bunu edənlər o vaxt Azərbaycan rəhbərliyində olan şəxslər idi.

Dediyim kimi, Heydər Əliyev 1982-ci ildə Moskvaya gedəndən sonra pambıqçılıqda tənəzzül dövrü başlamışdır, istehsal yavaş-yavaş azalırdı. Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda pambıq istehsalı 500 min tona, 1993-cü ildə isə 280 min tona düşmüşdür. Bildiyiniz kimi, müstəqillik dövrünün ilk illəri çox ağır keçirdi, ölkə çox ağır vəziyyətdə idi. Ermənistan işğalı, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarına gətirilmişdir. Ölkədə total böhran - siyasi böhran, hərbi böhran, iqtisadi böhran hökm sürürdü, inflyasiyanın səviyyəsi 1000 faizdən çox idi, sənaye müəssisələri iflic vəziyyətdə, kənd təsərrüfatı dağılmış vəziyyətdə idi, ölkədə talançılıq, rüşvətxorluq, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat cütlüyünün başında olan xəyanətkar ünsürlər sanki düşmən kimi Azərbaycanı dağıdırdılar, parçalayırdılar, məhv edirdilər.

*Ardı 2-ci səh.*

**◆ İlə yekun vurulur**

## Özəl sektora özəl şərait

### Sahibkarlar kapital qoyuluşunda önə çıxırlar

Azərbaycanda həyata keçirilən islahatlar əhatə dairəsinə və mahiyyətinə görə çoxşaxəlidir. Bu islahatlar iqtisadi, sosial sfera ilə yanaşı, hüquq sahəsini də əhatə edir. Belə ki, qanunvericilik sahəsində aparılan islahatlar sayəsində ölkədə biznesin inkişafına geniş imkanlar açılıb.

Xüsusilə investisiyaların qorunması sahəsində yaradılan qanunvericilik bazası yerli və xarici sahibkarları ölkəmizin iqtisadiyyatına kapital qoyuluşuna təşviq edir.

Əvvəllər kapital qoyuluşu neft və bununla bağlı sahələrə qoyulurdusa, ölkəmiz inkişaf etdikcə xarici investorlar qeyri-neft sektoruna da kapital qoymağa başladılar. Ancaq etiraf etməliyik ki, bu sektorda yerli sahibkarlar daha fəaldır. Buna səbəb dövlətin iqtisadiyyatın və sahibkarlığın inkişafı üçün yaratdığı şəraitdir.

Dövlətin qeyri-neft sektoruna kapital qoyuluşunun təşviqi sayəsində indi ölkəmizdə 9 sənaye parkı və məhəlləsi fəaliyyət göstərir. İndiyədək bu sənaye pakları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub və nəzərdə tutulan layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb.



*Ardı 8-ci səh.*

# Bu il pambıqçılıqda rekord göstərici əldə olunub

## Prezident əldə edilmiş nailiyyətlərlə kifayətlənməməyi, məhsuldarlığı daha da yüksəltməyi qarşıya məqsəd qoydu

*Əvvəli 1-ci səh.*

Sanki onlar hansısa cinayətkarın əmrini icra edirdilər. Bunun nəticəsində, əlbəttə ki, həm sənaye iflic oldu, kənd təsərrüfatı tamamilə dağıdıldı və həm də ölkə idarəolunmaz vəziyyətə düşdü. Yalnız xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna gətirildi və bu gün biz bu inkişafın təzahürlərini həyatımızın bütün sahələrində görürük.

O vaxt ağır vəziyyətdən çıxmaq üçün iki əsas amil həyata keçirilməli idi. Onlardan biri xarici sərmayəni cəlb etmək idi və biz buna nail olduq. Bu il "Əsrin kontraktı"nın 25 illiyini qeyd edərkən bir daha bu kontraktın əhəmiyyəti və Ulu Öndərin bu sahədə gördüyü tarixi işlər haqqında mən öz fikirlərimi bölüşmüşdüm və bildirmişdim ki, biz ölkəyə milyardlarla dollar həcmində investisiya qoyulmasına nail olduq. Digər çıxış yolu özəlləşdirmə ilə bağlı idi. O vaxt çox ciddi iqtisadi islahatlar aparılmağa başlamışdır, torpaq kəndlilərə, fermerlərə verilmişdir. Bu, əlbəttə ki, düzgün addım idi. Ancaq o da həqiqətdir ki, sovet vaxtından qalan texnika, demək olar, sıradan çıxmışdır, aqrotexniki tədbirlərin görülməsi üçün müasir standartlara cavab verən təcrübə yox idi, gübrə, pestisidlər ilə bağlı problemlər özünü kifayət qədər kəskin büruzə verirdi. Yanacaq çatışmazlığı da böyük problem idi. Ona görə özəl qurumlar, kəndlilər və fermerlər pambığın istehsalını müasir səviyyədə təşkil etmək üçün böyük çətinliklər çəkirdilər. Kəndliləri bunda günahlandırmaq olmaz. Ancaq pambıqtəmizləmə zavodlarını özəlləşdirmiş, pambıqçılığı inkişaf etdirməyə söz vermiş özəl şirkətlərin fəaliyyəti, əlbəttə ki, qənaətbəxş hesab oluna bilməz. Daha dəqiq desəm, onların fəaliyyəti ən pis qiymətə layiqdir. Demək olar ki, onların yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanda pambıqçılıq məhvə doğru gedirdi, pambıq yetişdirən rayonlarda işsizlik geniş vüsət alırdı. Özəl qurumlar bu vəzifənin öhdəsindən gələ bilmədilər, lazımi səviyyədə sərmayə qoymadılar, pambıqtəmizləmə zavodlarını səmərəli işlədə bilmədilər və deyə bilərəm ki, bu məsələyə bütövlükdə çox biganə yanaşdılar. Beləliklə, pambıqçılıqda çox böyük tənəzzül yaşandı. Əslində biz bu gəlirli, bizim üçün ənənəvi olan əməktutumlu sahəni, demək olar ki, itirirdik. Bir rəqəmi deyə bilərəm, 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdir və 35 min ton məhsul tədarük edilmişdir. Baxın, pambığın tədarükü 1981-ci ildəki bir milyon tondan 35 min tona düşdü.

Bilirsiniz, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının bütün təzahürləri Azərbaycanda vardır. Bir rəqəmi demək kifayətdir ki, bizim iqtisadiyyatımızın hazırda 85 faizi özəl sektorda formalaşır. Strateji dövlət müəssisələrindən başqa, bütün qalan müəssisələr özəl sektorda fəaliyyət göstərir. Bazar iqtisadiyyatının qanunları diktə edir ki, bazar liberallaşsın, iqtisadiyyata dövlət müdaxiləsi minimum səviyyəyə endirilsin və bu iqtisadi məsələləri bazar münasibətləri tənzimləməlidir.

Ancaq biz həyatda görürük ki, bu mənzərə ilə heç də hər zaman üzləşmirik. Xüsusilə müstəqilliyi yeni qazanmış ölkələrdə dövlət müdaxiləsi zəruridir. Əgər dövlət siyasəti olmasaydı, bu gün biz bu uğurlara nail ola bilməzdik. Əgər dövlət energetika, nəqliyyat, infrastruktur, kənd təsərrüfatına dəstək, sənayenin inkişafı sahələrində öz ciddi addımlarını atmasaydı, öz siyasətini ortaya qoymasaydı, bu gün hansı uğurlardan söhbət gedə bilərdi?! İnfrastruktura özəl sektor pul qoya bilərmi? Əlbəttə ki, yox. Üzümçülüyə, hansı ki, fermer gəliri ən azı 7 il gözləməlidir, dövlət dəstəyi olmadan kimsə vəsait qoya bilərmi? Pambıqtəmizləmə zavodlarının yenidən qurulmasına dövlət dəstəyi olmadan kim vəsait qoyar? Biz indi pambıq tədarükü üçün ən müasir texnika alırıq, - Amerika istehsalı olan "John Deere" kombaynları, - 400-dən çox kombayn almışıq. Texnikanın alınmasına bütövlükdə 500 milyon manatdan çox vəsait xərcləmişik. Hansı özəl şirkət bunu öz üzərinə götürə bilər? Ona görə görəndə ki, biz pambıqçılıq sahəsini də itiririk və bu, böyük problemlərə gətirib çıxarar, mən dərhal göstəriş verdim, bu məsələ ilə özüm məşğul olmağa başladım. Gördüm ki, bu sahədə bazar iqtisadiyyatı prinsipləri işləmir, çox ciddi tədbirlər planı tutuldu və 2017-2020-ci illəri əhatə edən dövlət proqramı qəbul olundu. Biz dövlət proqramı əsasında pambıqçılığı dörd il ərzində, demək olar ki, dirçəltdik və ən yüksək nəticələrə çatdıq.

Beləliklə, dövlət dəstəyi nəticəsində son üç il ərzində 15 min 700 texnika alınmışdır. Qeyd etdiyim kimi, 400-dən çox pambıqyığan kombayn almışıq, onların da böyük əksəriyyəti Amerikanın ən qabaqcıl şirkəti olan "John Deere"in daha məhsuldardır və keyfiyyətə görə ən yüksək standartlara cavab verən kombaynlarıdır. Bu, bizə imkan verdi ki, pambığın 87 faizini texnika ilə yığa bilək və əl əməyi aşağı düşdü. Ancaq bununla paralel olaraq, biz, əlbəttə ki, pambıqçılığı əməktutumlu sahə kimi inkişaf etdirərkən, ilk növbədə, məşğulluqla bağlı olan problemləri diqqət mərkəzində saxlamışıq və buna nail olmuşuq.

Suvarma tədbirləri. 100 min hektarda suvarma tədbirləri görülmüşdür. Hamımız yaxşı bilirik ki, bu il çox quraqlıq il olmuşdur və tarixdə bu dərəcədə quraqlıq heç birimizin yadında deyil. Ancaq buna baxmayaraq, pambıq tarlalarında su təminatı təşkil edilmişdir. Əlbəttə ki, əgər dövlət investisiyalar qoymasaydı, kanallar çəkməsəydi,



meliorasiya və su idarəsinə vəsait ayırmasaydı, indi pambıq ya əkilməzdi, ya da əkilib tarlalarda qalacaqdı və yanacaqdı.

Pambıqla məşğul olan fermerlərə güzəştli kreditlər verildi. Pambıqtəmizləmə zavodlarında təmir-bərpa, sazlama işləri aparıldı. Eyni zamanda, Ucar rayonunda müasir texnologiya əsasında yeni pambıqtəmizləmə zavodu inşa edilmişdir. 2016-cı ildən pambığın hər kiloqramına görə istehsalçılara dövlət tərəfindən 10 qəpik subsidiya verilməyə başlanmışdır. 2015-ci ildə pambığın satınalma qiyməti 41 qəpik, 2016-2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildən bu rəqəm 65 qəpiyə qaldırıldı və bu da çox həvəsləndirici amildir. Pestisidlər güzəştlə verilməyə başlanmışdır. Hər hektara güzəştlər 10 manatdan 50 manata qaldırıldı. Gübrələr üçün güzəştlər isə 100 manatdan 150 manata qaldırıldı. Bütün bu addımlar dövlətin bu sahəyə göstərdiyi diqqətin və önəmin təzahürüdür. Təsadüfi deyil ki, nəticə də özünü qısa müddət ərzində büruzə verdi.

Əlbəttə ki, pambıqçılığı inkişaf etdirərkən biz sosial amili də həmişə diqqət mərkəzində saxlamışıq. Çünki qeyd etdiyim kimi, pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Hazırda Azərbaycanda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan işlərə cəlb edildi. Yəni, pambıqçılığın bir neçə istiqaməti var və hər istiqamət üzrə minlərlə, on minlərlə yeni iş yerləri yaradıldı. Təsəvvür edin ki, 20 rayonda 200 minə yaxın iş yerinin yaradılması nə deməkdir. İndi bizim rayonların əhalisi orta hesabla təqribən 100-150 min, maksimum 200 min nəfər təşkil edir. Demək olar ki, hər rayonda orta hesabla 10 min insan ancaq pambıqçılıqla məşğul olur. Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur. Eyni zamanda, bizim çox gözəl indikatorumuz var. Bildiyiniz kimi, sosial müdafiəni gücləndirmək üçün biz indi 40 minə yaxın ödənişli ictimai iş yeri yaratmışıq, dövlət tərəfindən maliyyələşir. İş tapa bilməyən vətəndaşlar bu ictimai iş yerlərində işlə təmin olunurlar. İndi pambıq yetişdirən rayonlarda artıq bu işlərə də tələbat azalır. Çünki insanlar gedib pambıqçılıqda daha böyük pul qazanırlar və beləliklə, öz maddi vəziyyətlərini yaxşılaşdırırlar.

Beləliklə, dörd il ərzində görülmüş kompleks tədbirlər nəticəsində biz pambıqçılığı dirçəltdik. Bəzi rəqəmləri gətirməklə mən bu sözləri təsdiqləyəcəyəm. Beləliklə, 2015-ci ildə, - o ildə ki, artıq mən bu sahəni itirdiyimizi gördüm, - 18 min hektardan 35 min ton pambıq tədarük edilmişdir. Hər hektardan məhsuldarlıq 18,8 sentner idi. 2016-cı ildə artıq 51 min hektarda pambıq əkildi və 89 min ton pambıq tədarük edildi. Yəni, 2016-cı il bizim pambıqçılıqla ciddi məşğul olduğumuz birinci ildir, hektardan məhsuldarlıq 17 sentnerdən bir qədər çox idi. 2017-ci ildə biz pambıq əkini sahələrini kəskin artırdıq. Onu da bildirməliyəm ki, sonra biz bəzi torpaqların düzgün seçilmədiyini gördük və o torpaq sahələrini azaltdıq. Ancaq əlbəttə ki, biz hər şeyi bəri başdan görə bilməzdik. Ona görə biz 2017-ci ildə 136 min hektarda pambıq əkdik və 207 min ton məhsul götürdük. Hektardan məhsuldarlıq isə 15,2 sentnerə düşdü, çünki bəzi torpaqlar pambıqçılıq üçün yararsız idi. 2018-ci ildə artıq əkin sahələri azalmağa başlamışdır və 132 min hektarda pambıq əkildi. Ancaq daha çox məhsul götürdük, 233 min ton. Hektardan məhsuldarlıq artdı və 17,6 sentnerə qalxdı. Bu il isə hesab edirəm ki, ən optimal variant təsdiqlənərək 100 min hektarda pambıq əkildi və 294 min ton məhsul götürüldü. Hektardan məhsuldarlıq 29,4 sentner olmuşdur. Yəni, bu, doğrudan da, tarixi nailiyyətdir.

Məndə 1980-ci illərin statistik məlumatları da var. Deyə bilərəm ki, ancaq tarixdə cəmi üç il Azərbaycanda hektardan məhsuldarlıq 30 sentnerdən çox olmuşdur. Bu, 1979-cu ildə 30,8 sentner, 1980-ci ildə 35,4 sentner və 1981-ci ildə 35,9 sentner təşkil etmişdir. Bütün tarix boyu cəmi üç il ərzində hektardan məhsuldarlıq 30 sentnerə yaxın olmuşdur və bu il biz bunu artıq görürük. Əminəm ki, bundan sonra görüləcək tədbirlər nəticəsində məhsuldarlıq daha da artacaq. İndi bu barədə burada məlumat veriləcək. Çünki indi pilot layihələr var. Pilot layihələrdə pambıq müasir texnologiya əsasında əkilir və orada məhsuldarlıq daha çoxdur. Əgər biz indi pilot layihələri ölkə üzrə geniş yaysaq, əlbəttə ki, 100 min hektardan daha çox məhsul götürəcəyik.

Pambıqçılıq çox gəlirli kənd təsərrüfatı sahəsidir. Onu da xatırlayıram ki, mən 2015-ci ildə bu məsələ ilə özüm şəxsən məşğul olmağa başlayanda bəzi hökumət üzvləri hesab edirdilər ki, pambıqçılıq, ümumiyyətlə, Azərbaycandan çıxarılmalıdır. Bu, gəlirsiz sahədir və bunun heç bir perspektivi, gələcəyi yoxdur. Mən, sözün düzü, təəccüb etdim, çünki necə ola bilər ki, əsrlər boyu pambıq yetişdirilib, əsrlər boyu bizim kəndlər bu sahədə fəal olub. Bu, ənənəvi sahədir, böyük təcrübəmiz var, insanlar buna öyrəşiblər. Məgər sovet dövründə bilmirdilər ki, harada pambıq əkilə bilər, harada əkilə bilməz. Sovet dövründə hər şeyi bilirdilər. Dövlət Plan Komitəsi var idi, hər şeyi dəqiqliyi ilə bilirdilər harada nə əkilməlidir, harada nə tikilməlidir. Ona görə yenə də deyirəm, bizim baxışlarımız və çox məqsədyönlü siyasət pambıqçılığı gəlirli sahəyə çevirdi və artıq gəlirlər zənciri də yaradıldı. Bir də ki, pambıq ixracyönümlü məhsuldur. Mahlıcı satmaq üçün bazar axtarmaq lazım deyil, dünya birjalarında satılır. İndi hər bir ölkənin istehsalçıları qarşısında duran əsas məsələlərdən biri də bazara çıxışlardır. Çünki bazarlar da məhdudlaşır. Bir çox ölkələr öz tələbatını daxili imkanlar hesabına ödəməyə başlayıblar. İdxaldan asılılığı azaltmaq təkcə bizim siyasətimiz deyil, bir çox ölkələr bu yolla gedirlər. Bizim ənənəvi bazarlarımızın yerləşdiyi ölkələr əgər gələcəkdə öz tələbatını daxili resurslar hesabına təmin edəcəklərsə, biz haraya mal satacağıq və nəyi satacağıq. Pambıq o məhsullardandır ki, bunun üçün bazar axtarmaq lazım deyil. Birja var və birjada satılır. Özü də biz, - bu barədə də danışacağıq, - əgər yığımdan son məhsula qədər bu zənciri yaratsaq, - biz bunu yaratmalıyıq, - onda hər bir zəncirin sonunda əlavə dəyər formalaşacaq. Beləliklə, bu işlərə cəlb edilən əmək qüvvəsi daha da böyüyəcək və gəlir daha da artacaq.

Biz hazırda bu işin ilkin mərhələsindəyik. Ancaq buna baxmayaraq, deyə bilərəm ki, bu ilin doqquz ayında pambıqçılıq fermerlərə və şirkətlərə, ümumiyyətlə, Azərbaycana 111 milyon dollar gəlir gətiribdir. Yəni, 111 milyon dollar dəyərində məhsul, o cümlədən 87 milyon dollarlıq mahlıc, 22,5 milyon dollarlıq pambıq ipliyi və 2 milyon dollarlıq pambıq yağı ixrac edilib. Eyni zamanda, pambıqçılıq sənayesinin tullantılarından heyvan yemi kimi də istifadə olunur. Bu rəqəmlər onu göstərir ki, biz hazırda mahlıc ixrac edirik. Ancaq əsas vəzifə nəinki pambıq ipliyi, - bu, birinci hədəfdir, - əsas məsələ son məhsul ixrac etməkdir. Bunun üçün də bizim aidiyyəti qurumlar, hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi pambıqçılığın sənaye sahəsinə təkan verə biləcək müəssisələri yaratmaq üçün gərək fəal işləsinlər, investorları cəlb etsinlər və güzəştli kreditlər versinlər.

Qeyd etdiyim kimi, bu il məhsuldarlıq çox yüksək olubdur - rekord həddə. Ancaq bunu bütün rayonlara aid etmək mümkün deyil. Ona görə indi gətirəcəyim rəqəmlər hər bir rayon rəhbərliyi üçün siqnal olmalıdır. Çünki bu gün bu müşavirədə Prezident Administrasiyasının, mərkəzi icra orqanlarının nümayəndələri, iyirmi rayonun icra başçıları və şirkətlərin nümayəndələri iştirak edirlər. Beləliklə, bu il yeddi rayonda məhsuldarlıq 30 sentnerdən yuxarı olubdur. Bunlar ardıcıllıqla aşağıdakı rayonlardır: Tərtər - 34,8 sentner, Bərdə - 33,7 sentner, Salyan - 33,2 sentner, Neftçala - 31,6 sentner, Ağcabədi - 30,7 sentner, Saatlı - 30,4 sentner və Beyləqan - 30,3 sentner. Bu, onu göstərir ki, həm fermerlər, həm şirkətlər, həm də rayon rəhbərliyi bu işlərə çox məsuliyyətlə yanaşıblar və belə gözəl nəticələr əldə edilibdir. Üç rayonda məhsuldarlıq 30 sentnerə yaxındır - Biləsuvar rayonu - 29,5 sentner, Sabirabad rayonu - 29,2 sentner və Ağdam rayonu- 28,2 sentner. Yeddi rayonda məhsuldarlıq 20 sentnerdən çoxdur və bu rayonlar nəticə çıxarmalıdır. Üç rayonda isə məhsuldarlıq 20 sentnerdən azdır. Bax, bu rayonlarda çox ciddi təhlil aparılmalıdır, nə üçün, bunun səbəbi nədir? Bunun səbəbi olmalıdır. Ucar - 19,3 sentner, Hacıqabul - 14,4 sentner, Ağsu - 9,9 sentner. Hacıqabul və Ağsu rayonlarının icra başçıları dəyişdirildi, yeni icra başçıları təyin edildi. Onlar bu işləri geniş təhlil etməlidirlər və sonra məlumat verməlidirlər ki, məhsuldarlıq nə üçün çox aşağı səviyyədədir.

Ucar Rayon İcra Hakimiyyətinin başçısı məlumat versin, hazırda məhsuldarlıq nə üçün aşağı səviyyədədir?

Ucar Rayon İcra Hakimiyyətinin başçısı **Mənsur Məmmədov:** Cənab Prezident, pambıqçılıq ənənəsi Siz qeyd etdiyiniz kimi yaddan çıxmışdı. İndi yeni pambıq növləri yetişdirilir, əkin sahələrinin seçimi aparıldı. Pilot layihələr rayonda tətbiq olundu və növbəti illərdə daha yüksək məhsul götürüləcək.

**Prezident İlham Əliyev:** Yox, növbəti illərdə, əlbəttə, daha yüksək məhsuldarlıq olacaq. Mən bunu soruşmuram, mən soruşuram, bu il nəyə görə məhsuldarlıq aşağı səviyyədə olub. Bu barədə məlumat verin.

**Mənsur Məmmədov:** Cənab Prezident, bütün aqrotexniki tədbirlər görüldü. Ucar torpağının xüsusiyyəti bir qədər çətinlik yaratdığı üçün məhsuldarlıq yüksək olmadı. Pilot sahələrdə yeni texnologiya ilə daha yüksək məhsul götürüldü və bu, göstərir ki, gələcəkdə məhsuldarlıq yaxşı olacaq.

**Prezident İlham Əliyev:** Buna fikir verin, bu, dözülməz bir rəqəmdir. Əyləşin. Özü də qonşu rayonlarda məhsuldarlıq yüksəkdir. Misal üçün, Yevlax rayonunda 26,4 sentner və digər qonşu rayonlarda məhsuldarlıq daha yüksəkdir.

Mən artıq qeyd etdim ki, pambıqçılıq çox əməktutumlu sahədir. Bizim əsas vəzifələrimizdən biri vətəndaşları işlə təmin etməkdir və buna nail oluruq. Eyni zamanda, bildirməliyəm ki, bu il sosial sahədə görülmüş tədbirlər, aparılan islahatlar, doğrudan da, vətəndaşların maddi vəziyyətini böyük dərəcədə yaxşılaşdırdı. Bu, bir daha onu göstərir ki, bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. Bu il təşkil edilən və həyata keçirilən çox geniş sosial paket 4,2 milyon əhalini əhatə edib. Problemli kreditlər öz həllini tapıbdır, özü də problemli kreditlərlə bağlı olan məsələlər təkcə bizdə mövcud deyil. Demək olar ki, postsovet məkanında bir çox ölkələrdə eyni problemlər mövcuddur. Ancaq biz bunu vətəndaşlar üçün ən səmərəli şəkildə və ən məqbul formada ədalətli həll etdik. Devalvasiyadan sonra ağır vəziyyətə düşən vətəndaşların problemlərini biz həll etdik.

Müavinətlər artırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında birinci yerdədir. Bu, statistikadır. Əlbəttə, mən bunu demişəm, bir daha demək istəyirəm, çox istəyirəm ki, maaşlar və pensiyalar daha sürətlə artsın. Ancaq buna nail olmaq üçün gərək bizim iqtisadi imkanlarımız da genişlənsin. İqtisadi imkanlar, o cümlədən hər bir sahədə işin səmərəli şəkildə qurulmasından asılıdır. Misal üçün, kənd təsərrüfatının bir çox sahələri var və vaxtilə o qədər də böyük fikir verilməyən sahələr indi dirçəlir. Sənaye istehsalı sahəsində. Bu il qeyri-neft sənayemiz 14 faiz artıbdır. Şəffaflıq sayəsində bu il büdcəyə vergi və gömrük orqanları tərəfindən plandan əlavə 1 milyard manat vəsait daxil olub. Ona görə bütün bu tədbirlər, islahatlar imkan verdi ki, biz bu böyük paketi həll edək. Bu, bir neçə milyard manata başa gəldi. Ancaq biz bunu etməliyik və edirik.

Pambıqçılıq, həmçinin yüngül sənayeyə də təkan verir. Mənim sərəncamlarımla Azərbaycanın bir neçə şəhərində sənaye zonaları, sənaye parkları yaradılır, o cümlədən Mingəçevir şəhərində yüngül sənaye parkı. Buna böyük ehtiyac var. Çünki Mingəçevir şəhərində işsizlik başqa şəhərlərdən daha ciddidir, bu da təbiidir, çünki şəhərdir və şəhərdə işsizlik adətən daha çox olur. Ona görə Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün biz onu bir sənaye şəhəri kimi inkişaf etdirməliyik. Artıq orada iki böyük iplik fabriki fəaliyyət göstərir, mən onların açılışında olmuşam. Bu, birinci mərhələdir. Fabriklərin sayı çox olmalıdır və biz çalışmalıyıq ki, pambığı maksimum dərəcədə emal edək. Çünki bugünkü emal səviyyəsi bizi qane edə bilməz.

Onu da bildirməliyəm ki, Azərbaycanda pestisid zavodu yaradılıb, bu da çox önəmli məsələdir. Mənim təşəbbüsümlə gübrə və polimer zavodları da fəaliyyət göstərir. Yəni, biz indi polimerdən hazır məhsul istehsal edə bilərik. Gübrələri xaricdən yox, daxili istehsalçılardan ala bilərik. Yəni, bütün bu addımlar bir məqsədi güdür ki, ölkəmiz daha da güclənsin, sürətlə inkişaf etsin və vətəndaşlar işlə təmin olunsunlar.

Pambıqçılıqla yanaşı, bizim üçün ənənəvi olan, ancaq müəyyən müddətdə bir qədər unudulmuş digər kənd təsərrüfatı sahələri də inkişaf edir. Onlardan biri baramaçılıqdır. Bu məsələ ilə mən məşğul olmağa başlayanda gördüm ki, cəmi 240 kiloqram barama tədarük edilmişdir. Ancaq sovet vaxtında nə qədər tədarük edilirdi?! Ona görə görülən tədbirlər nəticəsində biz həm tingləri aldıq və Qax şəhərində damazlıq stansiya yaradıldı, dövlət dəstəyi göstərildi. Artıq bu il 630 ton barama tədarük edildi. Bu, eyni zamanda, imkan verdi ki, Şəki ipək kombinatı tam gücü ilə işləsin. Orada yüzlərlə insan işlə təmin olundu. Baramaçılığın böyük gələcəyi var, çox gəlirli və çox da əmək tələb etməyən sahədir. Vətəndaşlar qısa müddət ərzində - bir ay, yaxud da ay yarım ərzində yaxşı pul qazana bilirlər.

Biz fındıqçılığı sürətlə inkişaf etdiririk. Bağların sahəsini kəskin artırmışıq, 30 min hektardan indi təqribən 80 min hektara çatdırırıq. Artıq biz fındıq istehsalı və ixracı sahəsində dünyada üçüncü yerə çıxmışıq. Bu da çox gəlirli sahədir və əlbəttə, təzə salınan bağlar hələ bar vermir. Hesab edirəm ki, bir neçə ildən sonra fındıqçılıq valyuta idxalı baxımından kənd təsərrüfatının əsas sahələrindən birinə çevriləcəkdir.

Əvvəlki dövrlərdə mənim sədrliyimlə çəltikçilik, sitrusçuluq, tütünçülük, çayçılıq üzrə müşavirələr keçirildi. Bu ənənəvi sahələr inkişaf edir. Biz siqareti ixracyönümlü məhsul kimi görürük. Bu il Sumqayıtda yeni siqaret fabriki açıldı, Bakıdakı fabrik yenidən quruldu. Biz həm idxaldan asılılığı azaldırıq, həm də böyük ixrac imkanı yaradırıq. Yəni, bütün bu sahələr bizim üçün ənənəvi sahələrdir. Sadəcə olaraq, dövlət diqqəti azalanda bu sahələr məhvə doğru gedirdi, o cümlədən üzümçülük. İndi mən bunu qeyd etdim, Ulu Öndərin vaxtında 2 milyon ton üzüm istehsal olunurdu, onlarla şərab zavodu fəaliyyət göstərirdi. Hamısı sıradan çıxdı, məhv edildi. O zavodların materialları satıldı, yəni, böyük bir cinayət törədildi və demək olar ki, bu sahə itib-batmışdı. Mən rəqəmlərə baxanda gördüm ki, bir neçə il bundan əvvəl cəmi 100 min ton üzüm istehsal olunurdu, yeni bağlar salınmırdı. Çünki əl vermirdi, gərək xərcləyəsən, 5-6 il gözləyəsən, məhsul götürəsən, sonra hara satasan? Şərab zavodları yox, emal yox, ona görə üzümçülük batıb gedirdi. Bir də ki, əlbəttə, Ulu Öndər Azərbaycandan gedəndən sonra burada rəhbərlik etmiş şəxslər də bu cinayətin törədilməsində fəallıq göstərirdilər, üzüm bağlarını qırırdılar. Bu, böyük bir cinayətdir. Nə Ukraynada, nə Gürcüstanda, nə Moldovada, nə Ermənistanda bunlar olmadı. Ancaq burada, nəyə görə? Çünki buraya Qorbaçov tərəfindən cəza kimi bir yaramaz adam göndərildi, onun da əsas məqsədi Azərbaycanı məhv etmək idi və buna nail olmağa çalışırdı. Ancaq Azərbaycan xalqı imkan vermədi və cinayət törədəndən sonra 1990-cı ildə buradan qaçdı. Ondan sonrakı dövrdə - xüsusilə AXC-Müsavat antimilli qruplaşma hakimiyyətə gələndə onlar, ümumiyyətlə, başa düşmürdülər, anlamırdılar ki, kənd təsərrüfatı nədir. Onların məqsədi talançılıq idi, Ləl-Cavahirat Fondunu taladılar, orada bir dənə də əşya qalmamışdır, hamısını satdılar, neft bonuslarını oğurladılar. Səhv etmirəmsə, onların dövründə təqribən 20 və ya 30 milyon dollar dəyərində neft bonusu verilmişdi, oğurladılar. Sonra bunu axtarmağa başlayanda onun izi-tozu da qalmamışdı. Bir il ərzində milyardlarla dollar ziyan vurdular, taladılar, oğurladılar, öz ciblərini doldurdular, sonra da qorxaqcasına fərarilik edərək hakimiyyəti tərk etdilər, vəzifələrini dondurdular və bu gün də öz rəzil hərəkətləri ilə cəmiyyətdə ikrah hissi doğururlar. Onların bu qorxaqlığı, panika, isterika, paronoya və satqınlığı artıq heç kimə sirr deyil. Bax, bu idi real vəziyyət.

Ancaq bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir. Bu yaxınlarda Azərbaycan dünyanın güclü ölkələri sırasına daxil edilib. Bu siyahıda cəmi 80 ölkə var və bizim bədnam qonşumuzun adı orada yoxdur. Bilmirəm onların adı hansı dəftərdə var, amma, hər halda, bunu artıq biz demirik, bunu mötəbər qurumlar deyir. Biz güclü dövlətlər sırasında 45-ci yerdəyik. Bir neçə inkişaf etmiş ölkəni qabaqlamışıq. Hələ mən Davos reytinqlərini demirəm, onu dəfələrlə demişəm. Bax, budur bugünkü Azərbaycan.

Ancaq əlbəttə ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənə bilmərik. Hazırda kənd təsərrüfatı sahəsində çox ciddi islahatlar aparılır, şəffaflıqla, subsidiyalarla bağlı yeni mexanizmlər tətbiq edilir. Əvvəlki dövrlərdə həm mərkəzi, həm də yerli icra orqanları tərəfindən subsidiyalarla bağlı böyük pozuntular var idi. Buna son qoyulur və son qoyulmalıdır. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır, o cümlədən ödənişli ictimai iş yerlərinin yaradılması ilə bağlı. Bir neçə icra başçısı vəzifədən çıxarıldı və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulan vəsaiti ora-bura xərcləyirdilər. O siyahılara ya öz qohumlarını yazdırırdılar, ya da ki, ümumiyyətlə, o vəsait ünvana çatmırdı. Belə siqnallar olub, onlar araşdırılır və daha da ciddi araşdırılacaq. İş təkcə inzibati cəza ilə məhdudlaşmayacaq və bunu hər kəs eşitsin, bilsin, burada oturanlar və burada olmayanlar. Ona görə hər yerdə şəffaflıq, dövlətə və xalqa, vətəndaşlara xidmət etmək əsas prinsip olmalıdır ki, vətəndaşlar dövlətin diqqətini daim hiss eləsinlər, necə ki, biz hər bir çətin anda vətəndaşın yanındayıq.

Bu il zəlzələ olmuşdur. Üstündən cəmi 10 ay keçib, bütün əsas tikinti işləri artıq başa çatıb. Minlərlə ev tikildi, təmir və bərpa edildi. Bəziləri deyir ki, indi vətəndaşlar gərək bu evləri özləri bərpa etsinlər, gərək sığortalasınlar. Əlbəttə, gərək sığortalasınlar. Mən də söz düşmüşkən bunu deməliyəm, o cümlədən ticarət obyektləri, onların hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Yoxsa ki, yanğın baş verir, günahkar da özüdür, sonra da gəlib deyirlər ki, dövlət bunun pulunu versin. Hansı ölkədə belə şey var? Hansı ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəyir? Heç bir yerdə belə şey yoxdur. Hərə gedir öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə sığorta şirkəti gəlib onun pulunu verir, vəssalam. Bizdə də belə olmalıdır. Mən bunu özəl şirkətlərə, ticarət obyektlərinə aid edirəm və xəbərdarlıq edirəm ki, əgər haradasa daşqın, yanğın nəticəsində nəsə yanır, batırsa, dövlətdən dəstək almağa ümid etmək lazım deyil. Düzdür, biz bəzi hallarda ən kasıb, ən yoxsul təbəqəyə kömək göstəririk. Amma altında böyük maşınlar, mülklər, villalar olan sahibkara dövlət nə üçün kömək etməlidir? Axı, bu, ədalətsizdir. Dövlət kimə kömək etməlidir, ehtiyacı olana. Pulu olan adam özü kasıba kömək etməlidir. Mən bunu sahibkarlara dəfələrlə demişəm, onların sosial məsuliyyəti olmalıdır. Pul qazanırlar, dövlət şərait yaradıb, harada belə şərait var? Ölkələr var ki, od içindədir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, Avropada, Asiyada, Latın Amerikasında müharibələr, münaqişələr, qanlı toqquşmalar, kütləvi etirazlar, polis zorakılığı, dağıntılar baş verir. Bizdə sabitlikdir, kim yaradıb bunu, biz, kim faydalanır, bütün vətəndaşlar, o cümlədən sahibkarlar. Rahat yaşayırlar, heç kim onlara dəymir, əksinə, Prezident həmişə onları dəstəkləyir. Getsinlər camaata, kasıba əl tutsunlar. Biz o insana kömək edirik ki, onun ehtiyacı var. Şamaxıda, Ağsuda, İsmayıllıda zəlzələ baş verdi. Biz necə biganə qala bilərdik, vətəndaşlar qışda donsunlar? Ona görə biz dərhal vəsait ayırdıq, bütün qurumları səfərbər etdik və 10 ay ərzində qış gələnə qədər onların evləri tikildi və təmir edildi. Bax, bu, bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da, ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maarifləndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə, böyük mülklərə sahib olan varlı bir adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs nəticə çıxarsın.

Beləliklə, bu gün pambıqçılıqla bağlı məsələlər müzakirə olunarkən bir daha demək istəyirəm ki, mən görülmüş işlərə yüksək qiymət verirəm, bütün qurumlar fəal işləyiblər. Prezident Administrasiyası bu işləri koordinasiya edib. Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanlarının bir çoxu yaxşı nəticələr əldə ediblər, pis göstəriciləri olan rayonlar da nəticə çıxarmalıdır.

* * *

Kənd Təsərrüfatı naziri **İnam Kərimov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Bu gün aqrar sektorun bütün sahələri kimi, pambıqçılıq da yeni inkişaf mərhələsinə qədəm qoyub. Son illər verdiyiniz tapşırıqlar və qərarlar, təsdiq etdiyiniz müvafiq dövlət proqramı öz nəticəsini verməkdədir.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu pambıqçılıq ənənələri son illər yüksək templə inkişaf etdirilərək əvvəlki şöhrətini bərpa etməkdədir.

*Ardı 3-cü səh.*

# Bu il pambıqçılıqda rekord göstərici əldə olunub

## Prezident əldə edilmiş nailiyyətlərlə kifayətlənməməyi, məhsuldarlığı daha da yüksəltməyi qarşıya məqsəd qoydu

*Əvvəli 2-ci səh.*

2015-ci ildən sonrakı dövr ərzində pambıq istehsalı 8,2 dəfə artıb. Bugünədək 100 min hektar sahədən 294 min tondan çox pambıq istehsal olunub və hektardan orta məhsuldarlıq 29,4 sentner təşkil edib. Əkin sahəsinin ötən ilə nisbətən 32 min hektar azalmasına baxmayaraq, pambıq istehsalı 61 min ton, hektardan orta məhsuldarlıq isə 11,8 sentner artıb.

Builki yüksək nəticələr, ilk növbədə, Sizin bu sahəyə diqqətiniz və dövlət tərəfindən göstərilən dəstəklə bağlıdır. Belə ki, 2018-ci ildə xam pambığın fermerlərdən alış qiyməti hər ton üçün 150 manat artırılaraq 650 manata çatıb. Fermer satdığı hər ton xam pambığa görə dövlətdən 100 manat subsidiya alır. İstehsalçıların texnikaya və avadanlığa olan ehtiyaclarını ödəmək məqsədilə son üç ildə 529 milyon manat dəyərində 15 min 700 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 403 pambıqyığan kombayn alınıb.

Fermerlərə satılan pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 5 dəfə artırılaraq hər hektara görə 50 manata, mineral gübrələrin dəyərinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi isə 50 faiz artırılaraq hər hektara görə 150 manata çatdırılıb. "Aqrolizinq" ASC-nin balansında olan 768 texnika vasitəsilə fermerlərə güzəştli şərtlərlə dəstək göstərilib, gübrələrin səyyar formada yerlərdə və sahələrdə satışı həyata keçirilib. Bütünlükdə kənd təsərrüfatı texnikalarının alınmasına 40 faiz güzəşt tətbiq olunub. Ümumiyyətlə, ölkəmiz pambıqçılığın inkişafına göstərdiyi dəstəyə görə dünya üzrə aparıcı dövlətlərdən biridir.

Eyni zamanda, Sizin pambıqçılığın inkişafı məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin qarşısında qoyduğunuz vəzifələrin icrası baxımından əməli tədbirlər həyata keçirilib, yerli və mərkəzi icra hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq qurulub. O cümlədən pambıqçılıqla məşğul olan şirkət və fermerlərlə yerlərdə və sahələrdə 10-a yaxın iclas keçirilib, mövcud problemlər və onların aradan qaldırılması yolları müzakirə edilərək qərarlar qəbul olunub, tədbirlər planı hazırlanaraq icra edilib.

Cari ildə artımın yalnız yüksək məhsuldarlıq hesabına əldə olunması hədəf seçilib, pambığın yalnız əkinəyararlı torpaq sahələrində əkilməsi qərara alınıb. Səpin vaxtında aparılıb, aqrotexniki tədbirlər vaxtında və düzgün icra edilib, fermerlərin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün bütün rayonlarda preventiv tədbirlər görülüb. Texnikaların ərazilər üzrə səmərəli dislokasiyası təmin edilib, toxum, gübrə, su və dərman təminatında çatışmazlıqlar əsasən aradan qaldırılıb.

Şirkətlər tərəfindən pambığın qəbulu prosesində şəffaflığın və obyektivliyin qorunması üçün Aqrar İnkişaf mərkəzlərində xüsusi komissiyalar təşkil edilib, tədarük olunmuş pambığa görə fermerlərə vəsaitin vaxtında ödənilməsi təmin olunub. Pambığın kombaynla yığılmasına üstünlük verilib. Belə ki, yığılan pambığın 87 faizi texnika ilə həyata keçirilib.

2018-ci ildə Ağdam, Beyləqan və Zərdab rayonlarında əlavə üç, cari ildə Bərdə rayonunda bir pambıq qəbulu məntəqəsi tikilib, müvafiq avadanlıqlarla təchiz edilib. Mövsüm ərzində bu məntəqələr tərəfindən 8 min ton xam pambıq qəbul olunub. Ucar rayonunda illik istehsal gücü 40 min ton olan pambıq emalı zavodu, saatda 1,5 ton lifsiz pambıq toxum istehsalı gücünə malik zavod istifadəyə verilib, gündəlik 200 ton pambıq çiyidini emal etmək gücünə malik zavodda tamamlanma işləri getməkdədir.

Tərəfinizdən verilən tapşırıqların icrasını təmin etmək üçün Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi və əməkdaşları daim fermerlərin yanında olublar.

Möhtərəm cənab Prezident, Sizin qarşımızda qoyduğunuz əsas hədəf məhz məhsuldarlığın yüksəldilməsi hesabına istehsalın artırılması olub. Aparılan təhlillər göstərir ki, 2018-ci ildə 30 sentnerdən çox məhsul götürən 3096 fermer vardısa, 2019-cu ildə bu rəqəm iki dəfədən çox artaraq 7110 fermer təşkil edib. 7110 fermer tərəfindən yığılmış pambıq ümumi istehsalın 39 faizini təşkil edir. Bu məhsulun 29,5 min hektar sahədən yığıldığını nəzərə alsaq, hektardan orta məhsuldarlıq 39 sentnerdir. 2019-cu ildə 50 sentnerdən artıq məhsul götürən fermerlərin sayı 953 olub. 2018-ci illə müqayisədə hesabat ilində fermerlərin əldə etdikləri gəlirlərin ümumi həcmi 45 milyon manatdan çox artıb.

Bu rəqəmlər bir daha sübut edir ki, torpaq sahələri düzgün seçildiyi, aqrotexniki tədbirlərə vaxtında və düzgün əməl olunduğu təqdirdə ölkədə orta hesabla hər hektardan 30 sentnerdən çox pambığın istehsalı üçün potensial imkan mövcuddur.

Eyni zamanda, innovativ texnologiyalardan istifadənin genişləndirilməsi məqsədilə nümunəvi təsərrüfatların yaradılmasına başlanılıb. Ucar rayonunda Çin texnologiyası və Beyləqan rayonunda türk texnologiyası əsasında pambıq istehsalı üzrə pilot layihələr həyata keçirilib. Çin texnologiyası ilə hər hektardan 60 sentner, türk texnologiyası ilə isə 58 sentner xam pambıq istehsal olunub.

Gələn il pambıqçılıqla məşğul olan bütün şirkətlər yeni texnologiyaların tətbiqini Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə genişləndirəcəklər.

Məruzə edirəm ki, 2019-cu ildə istehsal olunmuş 294 min ton xam pambıqdan respublikanın pambıq emalı zavodları tərəfindən 114 min ton mahlıc istehsalı gözlənilir.

Qlobal çağırışlara uyğun olaraq, dəyər zənciri üzrə daha çox əlavə dəyərin yaradılmasına nail olmaq və daxili tələbatı yerli istehsal hesabına təmin etmək məqsədilə yeni iplik fabriklərinin və toxuculuq kombinatlarının tikilməsinin dəstəklənməsinə, pambıqçılıq sahəsində son məhsulun ixracının stimullaşdırılmasına ehtiyac vardır.

Pambıqçılığın inkişafı istiqamətində kadr potensialının gücləndirilməsi də diqqət mərkəzindədir və növbəti illərdə də bu tədbirlər davam etdiriləcək.

Yeni subsidiya mexanizminə əsasən, 2020-ci ildə hər hektara 220 manat, hər ton məhsula 100 manat subsidiya verilməsi nəzərdə tutulur. Belə olduqda, 30 sentner məhsul götürmüş fermerin dövlətdən əldə etdiyi vəsait 520 manat olmaqla, çəkdiyi xərcin 55 faizini təşkil edəcəkdir.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı Sistemi vasitəsilə fermerlərə verilməsi xidmət prosesini daha çevik və asan edəcək, xidmətin keyfiyyətini yüksəldəcək.

2020-ci ildə ən azı 105 min hektar sahədə pambıq əkilməsi və daha yüksək məhsuldarlıq əldə edilməsi nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, pambıqçılığın davamlı inkişafına göstərdiyiniz diqqət və qayğıya görə bütün kənd zəhmətkeşləri adından Sizə dərin təşəkkürümüzü və yüksək ehtiramımızı bildiririk. Sizi əmin edirik ki, nazirliyin kollektivi etimadınızı doğrultmaq üçün qəbul etdiyiniz bütün qərarları və verdiyiniz tapşırıqları vaxtında və keyfiyyətlə icra edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bu pilot layihələrlə bağlı bir qədər geniş məlumat verin. Siz deyirsiniz ki, Çin texnologiyası əsasında 60 sentner, türk texnologiyası əsasında 58 sentner. Biz təxminən eyni nəticə əldə etmişik. İndi bu, hansı sahələrdə əkilibdir və gələn il bu texnologiyaların tətbiqi hansı sahələrdə nəzərdə tutulur?

**İnam Kərimov:** Möhtərəm cənab Prezident, biz 60 sentner əldə etmişik, amma bu texnologiyaların potensialı daha da böyükdür. Çünki Azərbaycanda ilk dəfə tətbiq edildiyi üçün hətta müəyyən çatışmazlıqlar da olmuşdur. Burada əsasən əkin metodunun daha fərqli həyata keçirilməsi, bitki sıxlığının daha yüksək təşkil edilməsi, o cümlədən suvarmanın və alaq otlarına qarşı mübarizənin daha mütərəqqi metodlarla həyata keçirilməsi nəzərdə tutulur.

**Prezident İlham Əliyev:** Bu texnologiyaların geniş tətbiqi üçün nə etmək lazımdır?

**İnam Kərimov:** Biz artıq şirkətlərlə danışmışıq. Bu il bunu təkcə Kənd Təsərrüfatı Nazirliyi həyata keçirmişdi. Amma gələn ildən həm MKT, həm "Azərpambıq", həm də digər pambıq şirkətləri ilə artıq bu barədə razılığa gəlmişik. Hər biri öz sahəsində, yəni 100, hektardan az olmayaraq mütərəqqi Çin texnologiyası, o cümlədən türk texnologiyası vasitəsilə də bu pilot layihələri həyata keçirəcəkdir.

Cənab Prezident, bu yeni texnologiyalar daha bahalıdır, yəni, burada xərclər nisbətən çoxdur, amma məqsədimiz çəkilən xərcin və fermerin əldə etdiyi gəlirin onun üçün əlverişli olmasıdır. Yəni, biz bu pilot layihələri həyata keçirəndən sonra əgər fermerə xeyir etsə, əlbəttə ki, artıq bu, geniş tətbiq olunmağa başlanacaq.

**Prezident İlham Əliyev:** Bəlkə fermerləri də hansısa yolla həvəsləndirmək olar ki, onlar bu texnologiyaya daha tez keçsinlər.

**İnam Kərimov:** Eyni zamanda, şirkətlərlə yanaşı, planda var ki, bir neçə qabaqcıl fermerlə müqavilə bağlansın. Yəni, Kənd Təsərrüfatı Nazirliyinin sifarişi əsasında onlar bu mütərəqqi texnologiyaları tətbiq etsinlər. Hesab edirik ki, onların əldə etdiyi yüksək nəticələr və yüksək gəlirlər digər fermerlər üçün daha yaxşı nümunə ola bilər və bunun genişlənməsi bu yolla daha səmərəli ola bilər.

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, bu işi daha mütəşəkkil şəkildə həll etmək üçün gərək bu işə təkcə şirkətlər, fermerlər yox, eyni zamanda, mərkəzi icra orqanları, o cümlədən "Meliorasiya və Su Təsərrüfatı" ASC və yerli icra orqanları da fəal qoşulsunlar. Lazım olarsa, müxtəlif maarifləndirmə tədbirləri də keçirilməlidir. Pambıq əkilən rayonlarda bəlkə hansısa təqdimatlar keçirilsin, yəni, geniş təbliğ olunsun. Daha yüksək məhsuldarlığa nail olmaq üçün hansı konkret addımlar atılmalı olduğunu kəndlilər özləri də bilməlidirlər. Yerli icra orqanları da yerlərdə nəzarət etsinlər və yeni texnologiyalara keçidi də təmin etsinlər. Ona görə bunu fikirləşin və Prezident Administrasiyasına da göstəriş verirəm, yeni səpin mövsümünə qədər mənə məlumat verin ki, neçə min hektarda artıq yeni texnologiyalar tətbiq olunacaq.

* * *

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı **Müstəqim Məmmədov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Son illərdə aqrar sahənin, xüsusilə pambıqçılığın inkişafı ilə bağlı həyata keçirdiyiniz tədbirlər insanların maddi rifahının yüksəldilməsinə, kəndlərimizdə böyük canlanmaya səbəb olub. Hazırda kənd təsərrüfatı, o cümlədən pambıqçılıq elmi əsaslarla sürətlə inkişaf edir və insanlarımızın güzəranına bolluq, əhvali-ruhiyyəsinə nikbinlik gətirir. Torpaq mülkiyyətçiləri və fermerlər həvəslə sahələrdə əkin-biçinlə məşğul olur, istehsal etdikləri kənd təsərrüfatı məhsulları sayəsində həm öz ailələrinin həyatını, xoş güzəranını təmin edir, həm də ölkə iqtisadiyyatına sanballı töhfələr verirlər.

Bu gün Tərtər pambıqçılarının əldə etdiyi uğurlar öz başlanğıcını yaxın keçmişimizdən - Ulu Öndər Heydər Əliyevin birinci dəfə respublikamıza rəhbərlik etdiyi dövrdən götürür. Pambıqçılığın insanların sosial həyatında nə qədər böyük rol oynadığını dönə-dönə bildirən Ulu Öndər respublikaya rəhbərlik etdiyi 1970-ci illərdə bu sahənin inkişafına böyük önəm verirdi. O zaman Heydər Əliyev Tərtər rayonunun təbii iqlim şəraitini, torpağının keyfiyyətini yüksək qiymətləndirərək burada pambıqçılığın inkişafını daim diqqət mərkəzində saxlayırdı. Bunun nəticəsi idi ki, 1981-ci ildə rayonumuzda pambıqçılıq öz inkişafının pik nöqtəsinə çatmış, 11 min hektardan çox sahədə pambıq əkilərək 43 min tona yaxın məhsul toplanmışdı. Orta məhsuldarlıq hər hektardan 39 sentner təşkil etmişdi. Yaşlı sakinlər Ümummilli Liderlə pambıq tarlalarındakı görüşlərini, bu qiymətli bitkinin becərilməsinə dair verdiyi tövsiyələri indi də minnətdarlıq hissilə xatırlayırlar.

Cənab Prezident, 2016-cı ildən başlayaraq Sizin tapşırığınız əsasında bu sahənin dirçəldilməsi üçün atdığımız addımlar məhz həmin illərdə qazanılmış zəngin təcrübəyə əsaslanır. Rayonumuzun pambıqçıları cari mövsümdə 3427 hektar sahədən 11 min 924 ton məhsul tədarük ediblər. Hər hektar üzrə orta məhsuldarlıq 34,8 sentner olub. Bu nailiyyət iqtisadi göstərici olmaqla yanaşı, həm də insanlarımızın öz Prezidentinin siyasətini ürəkdən dəstəkləməsinin bariz nümunəsidir. Onların vətənpərvərliyinin, Vətənə bağlılığının təcəssümüdür.

Mənfur qonşularımız becərmə dövründə işğal altındakı ərazilərdə yerləşən Sərsəng su anbarından Tərtər çayına gələn suyun qarşısını kəsdikləri üçün sahələrin suvarılmasında hər il çox böyük çətinliklərlə üzləşirik. Sizin tərtərlilərə göstərdiyiniz xüsusi qayğı nəticəsində sərəncamlarınızla hər il rayonumuzda yeni subartezian quyularının qazılması bu çətinlikləri qismən aradan qaldırır, kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır. Məlumat üçün bildirirəm ki, rayonda istismar olunan 531 subartezian quyusunun 150-si Sizin müvafiq sərəncamlarınızla son illərdə vurulan artezianlardır.

Fermerlərimizin gərgin əməyi sayəsində 2019-cu ilin doqquz ayında rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi 62 milyon 983 min manat təşkil edib və bu da əvvəlki ilin müvafiq dövrünə nisbətdə 8 milyon 517,6 min manat çoxdur. Bunun 8 milyon manata yaxını yalnız pambıqçılıq sahəsindən əldə edilib. Bu sahənin inkişaf etdirilməsi ilə bağlı kənd camaatının məşğulluğunun təmin olunması insanlarımız tərəfindən böyük rəğbətlə qarşılanır. Təkcə Tərtər rayonunda cari mövsümdə 3995 nəfər pambıq sahələrində çalışaraq evinə halal qazanc aparıb ki, bunlardan da 1800 nəfəri əllə pambıq toplayanlardır.

Cari ildə Tərtər rayonunda 2018-ci ilin məhsuluna görə 930 istehsalçıya emal müəssisəsinə təhvil verdikləri xam pambıq üçün dövlət büdcəsi hesabına 800 min manat subsidiya ödənilib. Bu il isə dövlət büdcəsi hesabına 1 milyon 200 min manata yaxın subsidiya ödəniləcək.

Möhtərəm cənab Prezident, Siz insanlara ləyaqətlə yaşayıb, zəhmətlə pul qazanmaq imkanı yaratdınız. Bunun nəticəsidir ki, fermerlərimizin pambıqçılığa olan marağı və gəlirləri ilbəil artır. Fermerlərimizdən Buruc kəndindən İlkin Qurbanov ötən il 12 min manat, cari ildə isə 12 dəfə çox - 144 min manat, Bəyimsarov kəndindən 1-ci dərəcəli "Əmək" ordenli Fazil Vəliyev ötən il 157 min manat, cari ildə 168 min manat, Azad Qaraqoyunlu kəndindən İsmayıl Mehdiyev ötən il 13,5 min manat, cari ildə 2,4 dəfə çox - 32,2 min manat gəlir götürüblər. Onların sahələrində hektarın məhsuldarlığı rayon səviyyəsindən də yüksək - 40-50 qazana edə bilərik.

Məhsuldarlığın yüksək olmasında texnikanın da müstəsna rolu var. Belə ki, əvvəlki illərdə texnika sarıdan çətinliklərimiz olurdu. Sizin son müşavirədəki tapşırığınızdan sonra bu sahədə ciddi dönüş yarandı. Cari mövsümdə rayonumuzda pambıqçılıq sahəsində 101 texnikadan - bunlardan da 11-i şum aparılmasında, 44-ü səpin və becərmədə, 15-i dərmanlamada istifadə olunub, 17-si isə müasir pambıqyığan kombaynlardır.

Bununla yanaşı, əkin sahələrinin düzgün seçilməsi, qış aratına qoyulması, vaxtında şumlanması, gübrələrin aqrotexniki qaydalara uyğun verilməsi və digər becərmə işlərinin düzgün təşkili son nəticədə yüksək məhsuldarlığı təmin edən amillərdir.

Rayonun sosial-iqtisadi inkişafını təmin etməklə yanaşı, vətəndaşlarla daim ünsiyyətdə olmağa, onların problemlərini yerində öyrənib həll etməyə çalışırıq. Sizin yeni təyin olunan icra başçılarını qəbul edərkən onlara və eləcə də bütün rayonların icra başçılarına verdiyiniz "Siz vətəndaşların qayğıları ilə yaşamalısınız, onların problemlərini öyrənməlisiniz, düzgün təhlil aparmalısınız" tapşırığınız hazırda bizim fəaliyyətimizin əsas istiqamətini təşkil edir.

Möhtərəm cənab Prezident, Siz Tərtərdə olarkən pambıqçılarımızın təcrübəsinin yayılmasını tövsiyə etmişdiniz. Bu, bizim zəhmətimizə verdiyiniz çox yüksək qiymətdir. Sizi bir daha əmin edirəm ki, bu, son hədd deyil. Tərtərlilər bundan sonra da öz əmək nailiyyətləri ilə ölkəmizin iqtisadi qüdrətinin artmasına töhfə verəcəklər.

Diqqətinizə görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, vətənə bağlılıqlarını göstərmişlər. 2016-cı ilin Aprel döyüşləri zamanı tərtərlilərin hamısı bir nəfər kimi öz torpağını müdafiə etməyə qalxmışdılar. Bir nəfər də yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır və vətənə olan bağlılıqdır. Belə ağır vəziyyətdə işləmək və yüksək nəticələr əldə etmək, doğrudan da, yüksək qiymətə layiqdir. Biz onu da yaxşı bilirik ki, bədnam qonşular Tərtərin suyunu da kəsiblər. Ona görə bu ağır vəziyyətdə, demək olar ki, susuz bir vəziyyətdə belə yüksək məhsuldarlığı əldə etmək, əlbəttə, yüksək qiymətə layiqdir. Mən ona görə rayonların adlarını çəkdim ki, hər kəs bilsin harada nə qədər məhsuldarlıq var. Bəzi təsərrüfatlarda siz deyirsiniz ki, 40-50 sentner məhsul götürülübdür, deməli, biz bu hədəfə də yaxınlaşmalıyıq. Ona görə növbəti səpin mövsümünə qədər bütün bu işlər geniş təhlil olunmalıdır. Harada ki məhsuldarlıq yüksəkdir, təsərrüfatlarda orta məhsuldarlıqdan daha yüksəkdir, o təcrübə öyrənilməlidir. Ola bilər ki, zona müşavirələri də keçirilsin. Bu sahədə həm kadr hazırlığı, maarifləndirmə, yeni texnologiyalar ən yüksək standartlara cavab verməlidir. Çünki bizim əlavə torpağımız yoxdur. Biz 100 min hektarı ancaq pambıqçılığa ayırmışıq və hesab edirik ki, bu, kifayətdir. Ancaq biz məhsuldarlıq hesabına tədarükü də artırmalıyıq.

* * *

"MKT İstehsalat Kommersiya" MMC-nin baş direktoru **Rövşən Həsənov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Azərbaycanın iqtisadiyyatının inkişafının sürətləndirilməsi strategiyasının özünü tam şəkildə doğrultduğunu görmək üçün bu gün ölkənin iqtisadi fəaliyyətinin nəticələri və təhlilinə nəzər salmaq kifayət edir. Qazandığımız uğurlar Sizin tərəfinizdən irəli sürülən, Ümummilli Liderimiz Heydər Əliyev ideyalarına söykənən yeni sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl surətdə həyata keçirildiyini nümayiş etdirir, ölkəmizin iqtisadi qüdrətinin sürətlə artmasını, xalqımızın rifah halının yüksəlməsini, dövlətimizin müdafiə qabiliyyətinin və beynəlxalq aləmdə nüfuzunun getdikcə möhkəmlənməsini təmin edir. Sizin təşəbbüs və tapşırıqlarınızın icrası olaraq son illər ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar, sahibkarların fəaliyyəti üçün münbit şəraitin yaradılması istiqamətində atılan addımlar, imzalanan fərman və sərəncamlar artıq öz bəhrəsini verməkdədir. Ölkəmizin ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan pambıqçılığın xüsusi nəzarətinizdə olması bu sahənin inkişafı üçün möhkəm zəmin yaradıb.

Hörmətli cənab Prezident, "MKT İstehsalat Kommersiya" MMC pambıqçılığın inkişafında qarşıya qoyulan hədəfləri uğurla yerinə yetirməkdədir. Belə ki, cari ildə 10 min fermerlə bağlanmış müqavilə əsasında 45 min 763 hektar sahədə pambıq əkilib, tədarük mövsümü ərzində kondisiya çəkidə ümumilikdə 145 min 800 ton xam pambıq tədarük edilib. Sizin tapşırığınızı əsas götürərək şirkətimiz yüksək məhsuldarlıq göstəricilərinə nail olmağı hədəfləyib, aqrotexniki tədbirlərin yüksək səviyyədə təşkili və vaxtında yerinə yetirilməsi hesabına hər hektardan 31,9 sentner orta məhsuldarlıq əldə edilib ki, bu, keçənilki nəticədən 4,6 sentner artıqdır. Tədarük mövsümü ərzində qəbul edilmiş xam pambığın dəyəri olaraq bütün xərclər çıxılmaqla, fermerlərə ümumilikdə 44 milyon manatdan artıq vəsait ödənilib ki, bu da şirkətimizin əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması və məşğulluq səviyyəsinin artırılması istiqamətində ölkə iqtisadiyyatına verdiyi töhfənin bariz göstəricisidir.

Məlumat üçün bildirmək istəyirəm ki, hər hektara düşən mahlıc çəkisinə görə dünya ölkələrinin məhsuldarlıq göstəricilərinin sıralamasında şirkətimiz əldə etdiyi nəticə ilə Amerika, Hindistan, Özbəkistan kimi pambıqçılıqda söz sahibi ölkələrin nəticələrini geridə qoyaraq ilk onluqda qərarlaşıb. Bu, müəyyənləşdirilən strategiyanın, verilən tapşırıqların və onların icrasının düzgünlüyünün məntiqi nəticəsidir.

2019-cu ildə pambığın məhsuldarlığının yüksəldilməsi məqsədilə dövlətimizin dəstəyi sayəsində gübrələrin hər hektar üçün norması artırılıb. Fermerlərin və ərazi nümayəndələrinin təlimatlandırılması, onların işlərinin əlaqələndirilməsi üçün aqronomiya idarəetmə strukturu təkmilləşdirilib. Fermerlərlə müqavilə bağlanması zamanı GPS vasitəsilə sahələrin ölçülməsi və onların elektron xəritəsinin hazırlanması həyata keçirilib. Hazır məhsulun keyfiyyətinin yüksəldilməsi, emal gücünün və mahlıc çıxımının artırılması məqsədilə Bərdə, Beyləqan, Ağcabədi və İmişli pambıq emalı zavodları dövlətimizin verdiyi subsidiyadan yararlanaraq yenidən qurulub, xam pambıq və hazır məhsulun saxlanılması üçün infrastruktur yaxşılaşdırılıb.

Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən mövsüm boyu pambıqçılıq daim diqqət mərkəzində olub, 10-a yaxın müşavirə keçirilərək şirkətin və fermerlərin problemləri yerində dinlənilib və həlli istiqamətində qətiyyətli addımlar atılıb ki, bu da əldə edilən nəticədə müsbət rol oynayıb.

Pambıq və pambıq məhsulları istehsalında innovativ yanaşmanın tətbiqi, yüksəkkeyfiyyətli gübrə və pestisidlərdən, ən müasir texnika və texnologiyadan istifadə edilməsinin, kadrların ixtisas səviyyəsinin artırılmasının nəticəsi olaraq şirkətimizin istehsalı olan pambıq məhsulları yüksək keyfiyyəti ilə xarici bazarlarda öz yerini tutub və bu, ölkənin xarici ticarət dövriyyəsində əksini tapıb. Belə ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2019-cu ilin ilk 10 ayının nəticələrinə görə, qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqi siyahısında "MKT İstehsalat Kommersiya" MMC üçüncü yeri tutub. Şirkətimizin 10 ayda ixrac gəlirləri 50,5 milyon ABŞ dolları olub və ilin sonunadək bu rəqəmin 70 milyon ABŞ dollarını keçəcəyi gözlənilir.

Möhtərəm cənab Prezident, pambıqçılığa göstərdiyiniz xüsusi diqqət və qayğı ölkəmiz üçün ənənəvi olan bu kənd təsərrüfatı sahəsinin sürətli inkişafına təkan verib. 2020-ci ildə də "MKT İstehsalat Kommersiya" MMC öz ənənəsinə sadiq qalaraq ölkə üzrə nümunəvi göstəricilər əldə etməyi qarşısına hədəf qoyub. Biz artıq yeni mövsümə hazırlıq işlərinə başlamışıq. 2020-ci ilin pambıq əkini üçün 5807 fermerlə 27 min 231 hektar sahə üzrə müqavilə bağlanıb, 20 min hektardan artıq sahədə şum işləri aparılıb. Pambıqçılığın inkişafında qarşımıza qoyulan məqsədə nail olmaq üçün innovativ yanaşma, kadrların peşəkarlıq səviyyəsinin artırılması, pambıqçılığın daha yüksək inkişaf etdiyi ölkələrin təcrübəsinin öyrənilərək tətbiqi istiqamətində davamlı addımlar atmağı planlaşdırırıq. Bu il olduğu kimi, 2020-ci ildə də yeni növ pambıq toxumlarının təcrübə sahələrində əkilməsi, toxum sortlarının rayonlaşdırılmasının araşdırılması, damcı suvarma və tirəyə əkin kimi yeni metodların sınanması istiqamətində Kənd Təsərrüfatı Nazirliyi ilə əməkdaşlıq çərçivəsində birgə işlərin həyata keçirilməsi nəzərdə tutulub. Əminəm ki, bu və digər addımlar tərəfinizdən daim göstərilən dəstək sayəsində pambıqçılığın inkişafı üçün qarşımıza qoyduğunuz məqsədlərə çatmaqda öz töhfəsini verəcək.

Hörmətli cənab Prezident, ölkəmizin bütün pambıqçıları, o cümlədən çoxsaylı və zəhmətkeş kollektivimiz adından bizə göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə təşəkkür edir və əmin edirik ki, verdiyiniz bütün tapşırıqların tez bir zamanda və keyfiyyətlə həyata keçirilməsi üçün bütün səylərimizi bundan sonra da səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Siz deyirsiniz ki, məhsuldarlığa görə MKT dünyada ilk onluqdadır. Ən çox məhsuldarlığı olan ölkələr hansılardır? Sizdə bu məlumat var?

**Rövşən Həsənov:** Bəli var, cənab Prezident. İlk onluqda olan ölkələr Çin, İsrail, Avstriya, Braziliya, Meksikadır.

**Prezident İlham Əliyev:** Avstriyada da pambıq yetişdirilir?

**Rövşən Həsənov:** Çox üzr istəyirəm, Avstraliya, Braziliya, Meksika, Yunanıstan.

**Prezident İlham Əliyev:** Orada nə qədərdir məhsuldarlıq?

**Rövşən Həsənov:** Onlarda hər hektara mahlıc çəkisi ildən-ilə dəyişməklə 1300-1700 kiloqram arasında olur. Bu, ilk yeddinci yerə aiddir. Cənab Prezident, 1100 kiloqram və daha artıq ilk onluğa düşür.

**Prezident İlham Əliyev:** İndi yeni texnologiyalar, - artıq nazir də bu barədə danışdı, - sizdə də tətbiq olunur. Gələn il hansı sahədə onun tətbiqi nəzərdə tutulur?

**Rövşən Həsənov:** Cənab Prezident, bu, Çin texnologiyası və türk texnologiyası dediyimiz texnologiyalardır. Bərdə rayonunun Ləmbəran kəndində artıq bir sahə ayrılıb, orada damcı suvarma sistemləri qurulacaq. Həmin o iki sistemdən də orada təcrübə sahəsi olaraq bu il istifadə ediləcək.

**Prezident İlham Əliyev:** Yəni, gələn il də bu, elə pilot layihə kimi nəzərdə tutulur, yoxsa, artıq bunun əkin sahəsi genişləndiriləcək?

**Rövşən Həsənov:** Bu, bizim şirkət üçün pilot layihəsi olacaq, cənab Prezident. Biz, ondan əlavə, pivot suvarma sistemlərindən artıq üç ildən çoxdur istifadə edirik. İndi 4 min hektardan çox sahədə artıq hər il pivot suvarma sistemlərindən istifadə olunur.

**Prezident İlham Əliyev:** Dörd min, amma sizin əkin sahəniz 45 mindir. Yəni, 10 faiz ancaq pivotun altındadır. Onu da genişləndirmək lazımdır.

Gələn il hansı məhsuldarlığı hədəfləyirsiniz? Demək olar indidən?

**Rövşən Həsənov:** Cənab Prezident, istənilən halda məhsuldarlığımızın bu ildəkindən daha çox olmasını hədəfləyirik. Ən azı, yəni, bu il göstərilən hədəfin üzərinə çıxacağıq.

**Prezident İlham Əliyev:** Yaxşı.

* * *

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri **Əhməd Əhmədzadə** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sizin rəhbərliyiniz, böyük diqqət və qayğınız sayəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı sahəsi də son 16 ildə böyük inkişaf yolu keçib. Sahəyə ayrılmış əsaslı kapital qoyuluşu dəfələrlə artıb, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, yeni 4 su anbarı tikilərək istismara verilib, 10 min kilometrə qədər yeni suvarma və kollektor-drenaj şəbəkələri tikilib və bərpa edilib, 2200-dən artıq subartezian quyusu qazılıb, ümumilikdə 462 min hektar sahədə torpaqların su təminatı və 292 min hektar sahədə meliorativ vəziyyəti yaxşılaşdırılıb, 194 min hektar yeni suvarılan torpaqlar əkin dövriyyəsinə cəlb edilib.

2019-cu ilin kəskin quraq və isti keçməsinə baxmayaraq, bütün imkanlar səfərbər edilərək irriqasiya və meliorasiya sistemlərinin normal istismarı təmin edilib, mövcud su ehtiyatlarından səmərəli və qənaətlə istifadə edilməsi, suvarmada növbəliliyin tətbiq olunması və görülmüş digər tədbirlər nəticəsində respublika üzrə bütün kənd təsərrüfatı bitkiləri 1 milyon 400 min hektar sahədə orta hesabla üç dəfə suvarılıb.

Əvvəlki illərdə daha böyük sahələrdə pambıq əkini aparılsa da, sahələr düzgün seçilmədiyindən, qış otlaq sahələrində, suvarma şəbəkələri olmayan ərazilərdə pambıq əkinləri aparıldığından yekunda kifayət qədər məhsul istehsalına nail olunmurdu. Sizin tapşırığınıza əsasən, ötən illərdən fərqli olaraq, Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə ötən ilin payız aylarından başlayaraq 2019-cu ilin pambıq əkinləri üçün əsasən suvarma şəbəkələri olan sahələr seçilib və əkinlər həmin sahələrdə aparılıb.

Pambıqçılıq sahəsinin daha da inkişaf etdirilməsi, yüksək məhsul istehsalına nail olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən səhmdar cəmiyyətin mütəxəssislərinin, pambıqçılıqla məşğul olan aidiyyəti qurumların, fermerlərin və torpaq mülkiyyətçilərinin iştirakı ilə geniş müşavirələr keçirilib. Həmin müşavirələrdə sahədə olan vəziyyət araşdırılıb, çatışmazlıqlar və problemlər ətraflı müzakirə edilib, onların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirilib və qarşılıqlı əməkdaşlıq şəraitində onların həllinə nail olunub.

Cari ildə 100 min hektar pambıq sahəsini suvarma suyu ilə təmin etmək üçün suvarma və kollektor-drenaj şəbəkələri, hidrotexniki qurğu, nasos aqreqatları, subartezian quyuları təmir edilib və yeniləri tikilib.

Mingəçevir su anbarında suyun səviyyəsinin azalması ilə əlaqədar Sizin tapşırığınıza əsasən, ötən ildən etibarən Yuxarı Şirvan kanalının baş qurğusunun sugətirici kanalının dərinləşdirilməsi işlərinə başlanılıb və görülmüş işlərin nəticəsi olaraq anbarda suyun səviyyəsinin azalmasına baxmayaraq, cari ildə kanala tələb olunan miqdarda suyun götürülməsi təmin edilib. Əgər bu işlər vaxtında yerinə yetirilməsəydi, Şirvan bölgəsi rayonlarının 130 min hektar torpaq sahəsinin su təminatında və əhalinin kommunal-məişət su təchizatında ciddi çətinliklər olardı. Suyun gətirilməsi üçün hazırda 50 ədəd maşın və torpaqqazan texnika cəlb olunmaqla işlər davam etdirilir.

Görülmüş tədbirlər nəticəsində pambıq sahələri ümumilikdə 3,1 dəfə suvarma suyu ilə təmin edilib.

Möhtərəm cənab Prezident, Sizin ölkədə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, baramaçılığın və digər sahələrin inkişafı, eləcə də aqroparkların və iri təsərrüfatların yaradılması ilə əlaqədar verdiyiniz tapşırıqların icrası olaraq səhmdar cəmiyyət meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması və sahələrin genişləndirilməsi istiqamətlərində əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də fəaliyyətini davam etdirib.

Cari ildə respublikada 20 min hektara yaxın ərazidə yaradılmış 10 aqroparkdan 4-ü pambıqçılıq rayonlarının payına düşür.

Eyni zamanda, Sabirabad, İmişli, Biləsuvar və Saatlı rayonlarında yaradılmış iri təsərrüfatlara məxsus yeni suvarılan torpaqların suvarma suyu ilə təmin edilməsi və meliorativ tədbirlərin aparılması işləri davam etdirilib, Salyan rayonunda yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması üçün işçi layihə hazırlanıb.

Şəmkirçay su anbarı zonasında Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının 2-ci növbəsinin son hissəsinin tikintisi işlərinin başa çatdırılması ilə Goranboy rayonunun daha 12 min hektara yaxın torpaq sahəsi suvarma suyu ilə təmin edilib. Keçən əsrin 80-ci illərində tikintisi yarımçıq qalmış Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının Kür çayı üzərində yerləşən nasos stansiyalarının suvermə qabiliyyətinin artırılması işləri davam etdirilib.

Suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması üçün 2018-ci ildə Araz çayının beton üzlük çəkilmiş Yeni qol kanalından suvarma sahələrinə suyun paylanması məqsədilə 115 kilometr paylayıcı kanalların tikintisi cari ildə başa çatdırılıb.

Sizin tapşırığınıza əsasən, Ələt-Astara magistral avtomobil yolunun Salyan, Neftçala, Biləsuvar və Cəlilabad rayonlarından keçən hissəsində yerləşən 20 min hektar qış otlaq sahələrində meliorativ tədbirlərin layihə sənədlərinin hazırlanmasına başlanılıb.

Respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 345 ədəd subartezian quyusu, - onlardan 160 ədədi pambıqçılıq rayonlarının ərazilərində, - qazılıb ki, bu da 8362 hektar torpaq sahəsinin su ilə təmin edilməsinə imkan yaradıb.

2019-cu ildə respublikada 80 min hektara yaxın sahədə mühüm meliorativ tədbirlər həyata keçirilib ki, onun 28 min hektarı yeni suvarılacaq, 30 min hektarı su təminatı və 22 min hektarı meliorativ vəziyyəti yaxşılaşdırılan torpaqlardır və bunun da 49 min hektarı pambıqçılıq rayonlarının payına düşür.

*Ardı 4-cü səh.*

# Bu il pambıqçılıqda rekord göstərici əldə olunub

## Prezident əldə edilmiş nailiyyətlərlə kifayətlənməməyi, məhsuldarlığı daha da yüksəltməyi qarşıya məqsəd qoydu

*Əvvəli 3-cü səh.*

Tapşırığınıza əsasən, 2020-ci ildə 400 ədəd subartezian quyusundan 158-nin pambıqçılıq rayonlarında qazılması nəzərdə tutulub. Hazırda mütəxəssislərimiz tərəfindən yerli icra hakimiyyəti orqanları ilə birlikdə həmin quyuların yerlərinin seçilməsinə və layihələrinin hazırlanmasına başlanılıb.

Möhtərəm cənab Prezident, tapşırığınıza əsasən mövcud potensiallardan, torpaq və su ehtiyatlarından daha səmərəli istifadə etməklə sahənin intensiv və ekstensiv inkişafının təmin edilməsi məqsədilə mövcud suvarma şəbəkələrinin müasir tələblər səviyyəsində yenidən qurulması, torpaq məcralı kanalların beton üzlüyə alınması, istismar müddətini başa vurmuş nov kanallarının yenisi ilə əvəz edilməsi, suvarmada müasir texnologiyaların tətbiq olunması və suvarılan torpaqların genişləndirilməsi barədə səhmdar cəmiyyət tərəfindən İqtisadiyyat Nazirliyinə müvafiq təkliflər təqdim edilib və hazırda onlara baxılır.

Möhtərəm cənab Prezident, biz 16 ildir şahidiyik ki, Sizin rəhbərliyiniz altında həyata keçirilən hər bir tədbir bu və ya digər sahənin intensiv inkişafını, bu sahədə böyük dönüşün baş verməsini təmin edən səfərbəredici qüvvəyə malikdir. Son illərdə pambıqçılıqla bağlı keçirdiyiniz müşavirələr bunu bir daha sübut edir. Çünki Siz təkcə qarşıya tələblər qoymaqla kifayətlənmir, sahənin inkişafı üçün lazım olan dövlət dəstəyini ən yüksək səviyyədə təmin edirsiniz. Nəticələr göz qabağındadır: 294 min ton Azərbaycan pambığı.

Respublika melioratorları Sizi əmin edirlər ki, pambıq və digər kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bundan sonra da daha böyük səylə çalışacaqlar.

Diqqətinizə görə minnətdaram.

**Prezident İlham Əliyev:** Gələn il pambıqçılıqla bağlı hansı planlarınız var? Su ilə təmin edəcəksinizmi?

**Əhməd Əhmədzadə:** Şirvan və Mil-Muğan düzlərində suvarma dövriyyəsinə daxil olmayan torpaqlarımız var ki, əsas o işləri davam etdirəcəyik. İndi Sabirabadda çox böyük sahələr var, 14 min hektara yaxını yeni sahədir.

**Prezident İlham Əliyev:** Onu biz həll etdik.

**Əhməd Əhmədzadə:** Bəli, onu nasos stansiyalarında Sizə göstərmişdim, tikilib qalırdı. Çox böyük işdir, Sabirabad üçün çox böyük tədbirdir. "H" kanalını Siz çəkdirdiniz, onların 12 min hektar sahəsini su ilə təmin edir.

**Prezident İlham Əliyev:** Bəli, mən Sabirabadda olarkən fermerlər müraciət etdilər, vəsait ayırdıq və həll etdik. O problem artıq həll olunub.

**Əhməd Əhmədzadə:** Sizin tapşırığınıza əsasən Salyan yolundakı sahəni araşdırdıq. Salyanla o biri rayonların əhatəsinə, Cəlilabada qədər olan hissədə 32 min hektar torpaq var.

**Prezident İlham Əliyev:** Əlbəttə, yeni tras ki çəkildi, o trasın sağı-solu istifadə olunmamış, yəni, heç vaxt əkilməmiş torpaqlardır. Əgər orada meliorativ tədbirlər görülərsə, biz onları da dövriyyəyə cəlb edə bilərik.

**Əhməd Əhmədzadə:** Sizin tapşırığınızla biz iki layihəni - 12 minlik Salyan layihəsini 20 minlik layihə ilə birləşdirdik. İndi kanalların sugətirmə qabiliyyətini, nasos stansiyalarının gücünü artırmaqla bir bölgədə 32 min hektar yeni suvarılan sahələr yaxın vaxtlarda istifadəyə veriləcək.

**Prezident İlham Əliyev:** Salyanın icra başçısı da məlumat versin. O sahələr pambıq üçün yararlıdırmı?

Salyan Rayon İcra Hakimiyyətinin başçısı **Sevindik Hətəmov:** Su ilə təmin edilsə, gələcəkdə istifadə oluna bilər.

**Prezident İlham Əliyev:** Bəs, indi oraya əmək resursları cəlb etmək olarmı, o yerlərdə yaşayış məntəqələri yoxdur.

**Sevindik Hətəmov:** Yaşayış məntəqələri yoxdur, amma torpaqlar var.

**Əhməd Əhmədzadə:** Yaxındadır, cənab Prezident. Keçən il Salyan həmin ərazidən istifadə etmişdi, bir az pambıq əkmişdi, heç 3-5 sentner götürə bilmədilər. Amma meliorasiya olunan torpaqda 30 sentner götürürlər.

**Prezident İlham Əliyev:** Bəli, 33,2 sentner və üçüncü yerdədir. Quraqlıq bu il bizə həddindən çox problem yaratdı.

**Əhməd Əhmədzadə:** Quraqlıqla mübarizə aparmaq üçün yalnız mövcud su potensialımızdan səmərəli istifadə etmək lazımdır. Sağ olun, bu yaxınlarda Siz əlavə vəsait ayırmağı tapşırdınız, onun hesabına nasosların, subartezian quyularının işləməsini artıq təmin edirik, yerlərdə problem aradan qalxır. Bu sahəyə kömək göstərmək üçün alternativ variantlar kimi kollektor-drenaj sistemlərinin suyundan da istifadəni nəzərdə tuturuq. İl ərzində təqribən 100 kubmetrə yaxın o sulardan istifadə olunacaq. Əvvəllər az istifadə olunub, amma bu il belə nəzərdə tuturuq. Ancaq əsas məsələ qənaət rejimində işləmək, suvarmanı düzgün təşkil etməkdir. Məhsuldarlığa baxsaq, cənab Prezident, bu il o rayonların məhsuldarlığı yuxarıdır ki, orada, doğrudan da, su çətinliyi var. Mənfur qonşular Tərtər rayonunun suyunu kəsiblər, ancaq artezianların hesabına məhsul 35 sentnerə yaxın olub.

**Prezident İlham Əliyev:** Elədir, artezianların çox böyük faydası oldu. Biz son illərdə təqribən 1500-ə yaxın artezian quyusu qazdıq.

**Əhməd Əhmədzadə:** İndi tapşırıq verdiniz, bu il daha 400 artezian quyusu qazılacaq.

**Prezident İlham Əliyev:** Gələn il 400.

**Əhməd Əhmədzadə:** Gələn il üçün.

**Prezident İlham Əliyev:** Bu il 300 idi.

**Əhməd Əhmədzadə:** Bu il 345 idi, Sizin verdiyiniz tapşırıqla ümumi götürəndə 345 olur.

**Prezident İlham Əliyev:** Bəli, gələn il 400 quyu da böyük xeyir gətirəcək.

* * *

"Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru **Kamran Nəbizadə** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlar üçün münbit şəraitin yaradılması, imzalanan fərman və sərəncamlar artıq öz bəhrəsini verməkdədir. Kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı qəbul etdiyiniz qərarlar və verdiyiniz tövsiyələr sayəsində ölkəmizdə bu sahənin sürətli inkişafı üçün əlverişli şərait yaradılıb.

Hörmətli cənab Prezident, "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin törəmə müəssisəsi olan "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC 2018-ci ilin mayında təşkil olunub, 6 pambıq emalı zavodu, 6 pambıq tədarükü məntəqəsi, 1 yağ emalı zavodu və Biləsuvar rayonunda 2 min hektarda yerləşən pivot suvarma qurğuları ilə təchiz edilmiş təcrübə-sınaq mərkəzindən ibarətdir. Cəmiyyət tərəfindən 2019-cu ildə 4481 fermerlə müqavilə imzalanıb, 29 min hektar sahədə pambıq əkilib. Pambığın əkilib-becərilməsində elmi yanaşma, növbəli əkin sistemi, müasir texnologiyaların tətbiqi ilə intensiv inkişaf, məhsuldarlığın yüksəldilməsi və keyfiyyətli pambıq istehsalı əsas məqsədlərdəndir.

Cari ildə tərəfimizdən bir sıra tədbirlər həyata keçirilib. Belə ki, istehsalat fəaliyyəti, satış, təchizat və korporativ idarəetmə sahələri üzrə tədbirlər planı, o cümlədən rayonlar üzrə əməliyyat planı və aqrotexniki xəritələr hazırlanıb. Fermerlərin elektron reyestri yaradılıb, pambıq əkilmiş sahələr ölçülərək xəritələnib və vahid coğrafi məlumat bazası yaradılıb. "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin sifarişi ilə "Azərkosmos" ASC-yə məxsus "Azərsky" peykinin təsvirləri əsasında pambıq əkini sahələrinin monitorinqi aparılıb. Layihə çərçivəsində suvarmanın, bitkinin cücərməsinin və inkişafının müqayisəli təhlilləri həyata keçirilib, əldə edilmiş nəticələrə uyğun olaraq tədbirlər görülüb. Tələbata uyğun olaraq yüksəkkeyfiyyətli pambıq toxumu, gübrə və bitki mühafizə vasitələrinin seçimi və tədarükü istiqamətində işlər aparılıb. Pambıq əkini və becərmə dövründə fermerlərin maariflənmə tələbatını nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə tərəfimizdən müxtəlif bölgələrdə xaricdən dəvət edilmiş mütəxəssislər, həmçinin yerli aidiyyəti qurumların nümayəndələri, aqronomlar və fermerlərin iştirakı ilə seminarlar və müşavirələr təşkil edilib. Çox vacib amil odur ki, bizim maddi-texniki bazamız güclənib. Biz, bu iki il ərzində "Azərpambıq" MMC-nin istifadəsinə 753 texnika, o cümlədən 45 kombayn, 201 traktor və 507 müxtəlif təyinatlı qoşqular vermişik ki, bunlar da birmənalı olaraq məhsuldarlığın artmasına təsir edir.

Müəssisənin qarşısında duran ən önəmli vəzifələrdən biri də şəffaf və dolğun uçot sisteminin qurulması idi. Bu elektron sistem üzərindən maliyyə menecmenti, insan resurslarının idarə edilməsi, satınalma, satış, istehsal və digər biznes proseslərin müvafiq modullar vasitəsilə avtomatlaşdırılmış rejimdə həyata keçirilməsi təmin edilir. Əlavə olaraq maliyyə axınları üzərində mərkəzləşdirilmiş nəzarətin və şəffaflığın təmin edilməsi üçün elektron bankçılıq platforması tətbiq olunub.

Hazırda pambıq tədarükü mövsümü yekunlaşıb və pambığın emalı prosesi başlayıb. 2018-ci ildə 29 min hektarda əkin aparmışdıq və 56600 ton xam pambıq əldə etdik. Bu il Sizin ekstensiv qaydalardan intensiv və innovativ qaydalara keçmək tapşırığınızı rəhbər tutaraq 2019-cu ildə əkin sahələrinin miqdarını eyni - 29 min hektarda saxlamaqla 80 min ton xam pambıq yığmışıq. Biz ilin əvvəlində hektardan 25 sentnerə yaxın xam pambıq yığmağı proqnozlaşdırmışdıq, artıq bizim nəticəmiz 27,6 sentner təşkil edir.

Emal zavodlarının istismara buraxılışı əsasən 2004-2008-ci illəri əhatə etdiyindən onların modernləşdirilməsi və yenidən qurulmasına ciddi tələbat var. Bu məqsədlə ilkin olaraq "Azərpambıq" MMC-nin vəsaiti hesabına Ağcabədi rayonunda günlük emal gücü 200 ton xam pambıq olan yeni pambıqtəmizləmə zavodu, demək olar ki, sıfırdan quruldu və bu ayın sonunadək istismara veriləcək. Bu da imkan verəcək ki, yığdığımız 80 min ton xam pambığı tam emal edək.

Mahlıcın keyfiyyətini yüksəltmək məqsədilə Ağcabədi, Beyləqan, Biləsuvar, Saatlı zavodları qaz və qurutma qurğuları ilə təmin edilib. Gələcək illərdə tələbata görə mövcud zavodların modernizasiyası və ya yenilənməsi planlaşdırılır. Görüləcək işlər yüksəkkeyfiyyətli və rəqabətli mahlıc və yağ istehsalına imkan verəcək.

İnkişaf strategiyasının digər istiqaməti müasir avadanlıqlarla təchiz olunmuş tekstil fabrikinin qurulmasıdır ki, bu da mahlıcın son məhsula çevrilməsini, əlavə dəyərin yaradılmasını, gəlirlərimizin artmasını təmin edəcək. Pambıq mahlıcından yüksəkkeyfiyyətli iplik və parça istehsalının təşkili həm dəyər zəncirinin artmasına, həm də yeni iş yerlərinin yaranmasına xidmət edəcək. Hazırda bu istiqamət üzrə işlər gedir, araşdırmalar və hesablamalar aparılır.

Kənd təsərrüfatının müvafiq sahələri üzrə peşəkar gənc kadrların hazırlanması korporasiyanın ən vacib vəzifələrindən biridir. Bu məqsədlə "Azərbaycan Sənaye Korporasiyası" ASC ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında memorandum imzalanıb. Məqsədimiz aqrar sahədə, o cümlədən pambıqçılıq sahəsində birgə elmi tədqiqatlar aparmaq, tələbələrin biznes ideyalarını, innovativ təşəbbüslərini dəstəkləmək və nəticədə pambıqçılığı və digər sahələri ixtisaslaşmış kadrlarla tam təmin etməkdir.

Artıq yeni mövsümə hazırlıq işlərinə başlanılıb. Hazırda 2661 fermerlə müqavilə imzalanıb. Bu, 16 min hektar sahəni əhatə edir. Biz 9700 hektarda çöp doğrama işləri aparmışıq və 7300 hektarda şum işləri aparılıb.

Dövlət proqramlarından irəli gələn, respublikada pambıqçılığın inkişafı üzrə qarşıya qoyulan vəzifələrin icrasında üzərimizə düşən məsuliyyəti dərk edərək bütün tapşırıqların tez bir zamanda və keyfiyyətlə həyata keçirilməsi üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

Hörmətli cənab Prezident, icazə verin, pambıqçılığa göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə çoxsaylı kollektivimizin minnətdarlığını çatdırım.

Diqqətinizə görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Tekstil fabrikinin tikilməsi ilə bağlı siz hansısa ciddi təhlil aparmısınızmı?

**Kamran Nəbizadə:** Bəli, cənab Prezident, təhlillər aparılıb. Biz hesablamalar aparmışıq və bütün hesablamalar hazırdır ki, yeni fabrikin tikilməsi neçəyə başa gələcək, orada 30 və 40 seriyalı ipliklərin istehsalı təmin olunmalıdır, çünki onlar daha əlverişli və yüksək qiymətə satılır, ixrac olunur.

**Prezident İlham Əliyev:** Məhsuldarlıqla bağlı siz deyirsiniz ki, 25 sentner nəzərdə tutulurdu, 27,6 sentner əldə edilib. Ancaq bu, MKT-dən aşağı göstəricidir. Ona görə siz də çalışmalısınız ki, 30 sentnerə yaxınlaşasınız. Çünki bizim əsas tədarükçülər MKT və Azərbaycan Sənaye Korporasiyasının törəmə şirkəti olan "Azərpambıq"dır. Bu iki şirkət birlikdə 225 min ton pambıq tədarük edib, 294 minin 225 min tonunu. Əkin sahələri də 75 min hektardır. Yəni, bizim pambıqçılıqla məşğul olan bu iki şirkətdir, biri dövlət şirkəti, biri özəl şirkət. Rəqəmlər göstərir ki, özəl şirkət məhsuldarlıqla bağlı daha səmərəli işləyir. Bunun, əlbəttə, bir izahı ola bilər ki, "Azərpambıq" indi yeni əsaslarla qurulur, əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Yeni şirkət olaraq, əlbəttə ki, müəyyən qədər vaxt lazımdır. Ancaq bu ilin təcrübəsi geniş təhlil edilməlidir, həm müsbət təcrübə, həm də ki mənfi təcrübə. Müsbət təcrübə ona görə ki, o səviyyəyə çatmamış təsərrüfatlar və rayonlar ümumi məhsuldarlığın səviyyəsinə çatmağa çalışsınlar. Mənfi təcrübə də ciddi təhlil olunmalıdır ki, gələcəkdə bu pozuntulara və məsuliyyətsizliyə yol verilməsin.

* * *

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı **Vidadi İsayev** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Bugünkü müşavirə Sizin rəhbərliyinizlə regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının uğurla icra edildiyi, yeniləşmə, müasirləşmə və geniş islahatların həyata keçirildiyi əlamətdar bir dövrə təsadüf edir.

Yeni dövlət proqramı, həyata keçirilən tədbirlər regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verib, digər sahələrlə yanaşı, qeyri-neft sektorunun, o cümlədən strateji sahə olan kənd təsərrüfatının inkişafında da əsaslı dönüş yaradıb.

Sizin böyük uzaqgörənliklə irəli sürdüyünüz "Strateji Yol Xəritəsi"nə uyğun olaraq istifadəsiz torpaqların əkin dövriyyəsinə qaytarılması, görülən meliorativ tədbirlər, su təchizatının yaxşılaşdırılması, yeni aqroparkların yaradılması, ən müasir texnika ilə təchizat, yeni aqrotexniki üsulların tətbiqi, ən əsası, əmək adamlarına olan yüksək dövlət qayğısı bu yüksəlişi şərtləndirən əsas cəhətlərdir. Məhz bunun nəticəsidir ki, pambıqçılıq, baramaçılıq, meyvə, tərəvəz istehsalında və digər sahələrdə 2019-cu ildə əvvəlki illərlə müqayisədəki fərq faizlə deyil, dəfələrlə ölçülür.

Cənab Prezident, respublikanın ən böyük kənd təsərrüfatı rayonlarından olan Bərdədə də digər sahələrlə yanaşı, pambıqçılıqda sürətli inkişaf dinamikası var. 2015-ci ilə nisbətən 2019-cu ildə pambıq əkini sahəsi 9 dəfə, pambıq istehsalı 12 dəfə artıb.

Sizin Ulu Öndər dövründəki ənənəni davam etdirərək son pambıqçılıq müşavirəsini Bərdədə keçirməyiniz, pambıqçılarla səmimi görüşünüz, verdiyiniz tapşırıq və tövsiyələr Bərdə pambıqçılarında əmək coşqunluğunu daha da artırıb və Sizə söz verdiyimiz kimi, bərdəlilər öz ənənəsinə sadiq qalaraq 2018-ci və 2019-cu illərdə pambıq yığımını ən yüksək məhsuldarlıqla başa çatdırıblar.

Müqayisə üçün bildirirəm ki, bu il Bərdədə 2018-ci ildəkindən 510 hektar çox - 10140 hektar sahədə pambıq əkilib, indiyədək ötən ildəkindən 8,6 min ton çox - 34150 ton pambıq tədarük edilib. Məhsuldarlıq ötən il 26,4 sentner olduğu halda, bu il 33,7 sentnerdən çox olub.

Möhtərəm cənab Prezident, Sizin daim qeyd etdiyiniz kimi, pambıq ölkəyə valyuta gətirən, respublikada sənaye istehsalına təkan verən sahə olmaqla yanaşı, həm də insanların məşğulluğunun təmin edilməsinə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərən sahədir. Məhz buna görədir ki, əhalinin torpağa bağlılığı daha da artıb, 2019-cu ildə kənd təsərrüfatı sahəsində 38 min nəfərdən çox, təkcə pambıqçılıq sahəsində 20 min nəfərə yaxın sakinimiz işə cəlb edilib.

Sevindirici haldır ki, son dövrlər keyfiyyətli dərmanların tətbiqi, yeni müasir texnikalarla təminat, subsidiyalarda yeni qaydaların tətbiqi, bütövlükdə dövlətin pambıqçılığa göstərdiyi dəstək, əmək adamlarına olan diqqət və qayğı pambıqçılığa marağı daha da artırıb. Bu səbəbdən qabaqcıl fermerlərin də sayı ilbəil artır.

Cari ildə pambıqçılıqdan rayona 22,9 milyon manatdan çox vəsait daxil olub, həmçinin subsidiya hesabına əlavə 3,4 milyon manat vəsait də daxil olacaq ki, bu da ümumilikdə 26,3 milyon manat təşkil edir. Bu vəsaitin 21 milyon manatı əmək adamlarına çatan xalis qazancdır.

Cari ildə rayonda digər təsərrüfat sahələrində də yüksək göstəricilər əldə edilib. Bu il taxıl tədarükündə də respublikada ən yüksək məhsuldarlıq məhz Bərdə rayonunda olub.

Cənab Prezident, yeri gəlmişkən bir faktı da qeyd edim. Biz həmişə elə hesab edirik ki, təkcə pambıqçılıqda, baramaçılıqda, konkret bu sahələrdə inkişaf var və yaxud da çox məhsul götürülür. Mən haşiyə çıxıb demək istəyirəm ki, təkcə bu il Bərdədə soğan əkinindən bərdəlilər 13 milyon manat xalis qazanc götürdülər. Bu, nəyin hesabınadır? Məhsuldar torpaqları istifadəyə verməyin hesabına və eyni zamanda, mən açığını deyirəm ki, bu gün Kənd Təsərrüfatı Nazirliyinin, "Azərsu" və digər təşkilatların bütün strukturlarının əlçatan olmasının nəticəsində. Soğana tətbiq olunan gömrük ixrac rüsumunun Sizin göstərişinizlə bir günün içərisində ləğv olunması soğanın bir kisəsinin qiymətini 4 manatdan 44 manata qaldırmışdı. Bərdəlilər bu il dörd xarici ölkəyə soğan ixrac ediblər. Artıq digər sahələrdə də yüksək göstəricilər əldə olunmaqdadır.

**Prezident İlham Əliyev:** Taxılçılıqda məhsuldarlıq nə qədərdir?

**Vidadi İsayev:** Taxılçılıqda 44,3 sentner. Respublikada ən yüksək göstəricidir. Bərdənin tarixində heç vaxt bu qədər göstərici olmayıb. Cənab Prezident, müqayisə üçün deyim ki, 2015-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalı rayon iqtisadiyyatının 40 faizini təşkil edirdisə, hazırda bu göstərici 55 faizə yüksəlib.

Pambıqçılığa hərtərəfli dövlət qayğısını, əməyinin nəticəsini görən rayon fermerləri son bir ayda artıq yeni mövsümdə 9000 hektardan çox sahədə pambıq əkilməsi üçün istehsal müəssisələri ilə müqavilə bağlamışlar və yaxın vaxtlarda bu tamamlanacaq.

Sizin tapşırığınızla gələn il də əkin üçün yüksək məhsul verəcək ən münbit torpaqlar seçilib. Hədəfimiz rayon üzrə 10 min hektardan çox pambıq əkərək məhsuldarlığı hər hektardan 35 sentnerə çatdırmaqdır. Sizin "Harada ki işlərə ciddi yanaşırlar məhsuldarlıq yüksəkdir" fikriniz bundan sonra da məni və həmkarlarımı bu sahəyə daha ciddi yanaşmağa səfərbər edəcək.

Cənab Prezident, zəhmətkeşlərin əməyini yüksək qiymətləndirməyiniz onlara böyük stimul verir. Sizin ötən il hər hektardan 42,5 sentner pambıq tədarük etmiş fermer Elman Nərimanovu 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif etməyiniz bütün bərdəlilərin əməyinə verilən yüksək qiymətdir.

Yeri gəlmişkən, icazə verin, bərdəlilərin səmimi bir etirafını da Sizin ali diqqətinizə çatdırım. Yerlərdə əhali ilə keçirilən qəbul-görüşlər zamanı müxtəlif təbəqələrdən olan insanlar minnətdarlıq edərək bildirirlər ki, möhtərəm Prezidentimizin sayəsində pambıqçılıq və baramaçılıqdan əldə olunan gəlir təkcə həmin sahənin adamlarının deyil, bizim hər birimizin həyat səviyyəsinin yüksəldilməsinə, alıcılıq qabiliyyətinin artmasına təkan verib.

Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınızla bütün ölkəmizdə olduğu kimi, Bərdə rayonunda da kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənir. Cari ildə rayonda regional yun qəbulu müəssisəsi, tutumu 15 min ton olan yeni pambıq qəbulu məntəqəsi tikilib istifadəyə verilib, ilkin barama emalı müəssisəsinin tikintisi başa çatmaq üzrədir. Qarğıdalı emalı zavodunun, daha bir pambıq qəbulu məntəqəsinin tikintisi üçün hazırlıq işləri aparılır.

Həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində ixtisaslı peşə kadrlarının çatışmazlığının aradan qaldırılması ilə əlaqədar verdiyiniz tapşırığa əsasən, minnətdarlıq hissi ilə bildirirəm ki, rayonda smeta dəyəri təxminən 26 milyon manat olan 12 peşə ixtisası üzrə 1000 yerlik Regional Peşə Təlim Mərkəzinin tikintisinə başlanıb və tikinti sürətlə gedir.

Cənab Prezident, Ulu Öndərin siyasi kursuna, müdrik ölkə başçısı kimi Sizə sonsuz məhəbbət və sədaqətini daim nümayiş etdirən bərdəlilər adından Zati-alinizi əmin edirəm ki, respublikamızda aqrar sahənin, eyni zamanda, pambıqçılığın inkişafı ilə bağlı qarşıya qoyduğunuz mühüm vəzifələrin uğurla yerinə yetirilməsi üçün var gücümüzlə çalışacaq, bu şərəfli işə öz layiqli töhfələrimizi verəcəyik.

Diqqətinizə görə sağ olun.

**Prezident İlham Əliyev:** Bərdədə həmişə pambıqçılıq çox geniş vüsət alırdı, xüsusilə Ulu Öndərin dövründə. Siz yaxşı bilirsiniz və bərdəlilər də yaxşı bilirlər ki, Ulu Öndər ötən əsrin 70-ci illərində, 80-ci illərin əvvəllərində hər il Bərdəyə gəlirdi, həm Bərdədə, həm Sabirabadda zona müşavirəsi keçirirdi. Ən çox pambıq tədarük edən iki rayonumuz - Sabirabad və Bərdə o illərdə pambıqçılıq sahəsində çox inkişaf etmişdi və vətəndaşlar da, sakinlər də öz maddi vəziyyətini böyük dərəcədə yaxşılaşdırmışdılar. Şadam ki, Bərdədə pambıqçılıq ənənələri bərpa edilir və bu il məhsuldarlığa görə Bərdə ikinci yerdədir və bu, məni çox sevindirir. Eyni zamanda, yadımdadır, Bərdədə sovet vaxtında baramaçılıq da çox inkişaf edirdi və pambıq tarlalarının ortalarında elə bil sərhəd kimi tut ağacları əkilirdi. Ondan sonra, yəni, xaos dövründə o ağaclar da qurudu, kəsildi. İndi biz bunu bərpa edirik və baramaçılığın da çox böyük perspektivləri var. O ki qaldı taxılçılığa, indi hektardan 40 sentner götürürsünüzsə, demək olar ki, Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsinə yaxınlaşırsınız. Bu, rekord göstəricidir. Bilmirəm əvvəlki illərdə bu qədər olubmu?

**Vidadi İsayev:** Heç vaxt bu qədər olmayıb.

**Prezident İlham Əliyev:** Olmayıb, yəni, bütün bunlar da səmərəli işin təşkili nəticəsində mümkündür, aqrotexniki tədbirlər, texnika, gübrələr, suvarma, səfərbərlik, yerli icra orqanlarının fəal işi, mərkəzi icra orqanlarının islahatlarla bağlı addımları nəticəsində. Bütün bu işləri biz ancaq birlikdə edə bilərik. Ona görə mən bir daha deyirəm, sadəcə olaraq, kənd təsərrüfatını özəl sektorun öhdəsinə buraxmaq qətiyyən mümkün deyil və heç bir nəticə verməyəcək. Çünki infrastruktur dövlət hesabına, suvarma dövlət hesabına, texnika dövlət hesabına, subsidiyalar dövlət hesabına, gübrə-yanacaq dövlət hesabınadır. Harada, hansı ölkədə fermerlər üçün belə şərtlər var? Bax, siz hamınız yaxşı bilirsiniz ki, fermerlər bütün vergilərdən azaddır, ancaq torpaq vergisi ödəyirlər, bu da cüzidir, rəmzi xarakter daşıyır. Gübrəyə 70 faiz subsidiya, yanacağa 50 faiz subsidiya, texnika böyük güzəştlərlə verilir, kanallar dövlət hesabına çəkilir. Pivot sistemləri istehsalı zavodu artıq fəaliyyət göstərir və pivotaltı sahələrin genişləndirilməsi də gündəlikdədir. Digər önəmli tədbirlər - hələ yol çəkilişi. İndi yol çəkilişi nə qədər böyük xeyir gətirir - həm vətəndaşlara rahatlıq, həm fermerlərə torpaqda, təsərrüfatda. Əlbəttə ki, bazarlara məhsulu tez çatdıra bilərlər. Siz indi deyirsiniz ki, soğandan 13 milyon gəlir əldə olunub.

**Vidadi İsayev:** Xalis gəlir.

**Prezident İlham Əliyev:** Bəli, çox yaxşı, ona görə yerlərdə, bilirsiniz, ixtisaslaşma getməlidir və hansı sahə daha çox gəlir gətirirsə, o sahəyə, əlbəttə ki, fermerlər özləri üstünlük verirlər. İndi ixracla bağlı problem bizdə yoxdur. Heç bir bazar bizim üçün bağlı deyil. Bunu biz uğurlu xarici siyasət nəticəsində əldə etmişik. Bütün bazarlara çıxışımız var. İndi gömrük sektorunda aparılan islahatlar artıq əvvəlki dövrlərdə ixracla bağlı olan problemləri də aradan götürür. Çünki vaxtilə fermer, yaxud da hansısa şirkət malı ixrac etmək üçün gərək min əziyyətdən keçəydi. Müxtəlif əsassız tələblər irəli sürülürdü. İndi bütün bunlar yığışdırılıb. Ona görə sağlam iqtisadi mühit, investisiya mühiti, dövlət dəstəyi, şirkətlərin dövlət qurumları ilə sıx təmasda olması, yerli icra orqanlarının, mərkəzi icra orqanlarının vahid yanaşması, bax, bu uğurumuzu şərtləndirir. "Əmək" ordeni ilə bağlı siz məlumat verdiniz. Bu orden də mənim təşəbbüsümlə təsis edildi və bu, məhz əməkdə yüksək məhsuldarlıq göstərən, yüksək nailiyyət qazanan vətəndaşlara verilən yüksək dövlət mükafatıdır. Bunun üç dərəcəsi var və əlbəttə ki, görülən işlərə görə bu dərəcələr də verilir və pambıqçılar "Əmək" ordeni ilə təltif olunublar. Səhv etmirəmsə, bu ordenin birincisini biz kənd təsərrüfatı üzrə pambıqçılara vermişik.

**Vidadi İsayev:** Çox sağ olun, təşəkkür edirəm.

* * *

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı **Nazim İsmayılov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, çox vaxt almaq niyyətində deyiləm, amma pambıqçılıqla bağlı bir problemi çatdırmaq istəyirəm. Çünki bu gün buraya toplaşmaqda məqsəd pambıqçılıqda olan problemləri Sizin rəhbərliyinizlə öyrənmək, gələcəkdə məhsuldarlığın artırılması hesabına pambıq tədarükünü yüksəltməkdir. Bilirsiniz ki, Saatlı pambıqçılıq sahəsində respublikada əvvəllər də yüksək nəticələr qazanıb. Bu il də respublikada ən çox pambıq tədarük edən Saatlıdır, 42 min tona yaxın pambıq tədarük edib. Bu, keçənilkindən, təqribən 12 min tona yaxın artıqdır, hər hektardan 11 sentner artıqdır. Əhali bu pambıqdan 20 milyona yaxın xalis gəlir götürüb.

Bunları deyib, bir daha qeyd edirəm, vaxtınızı almaq niyyətində deyiləm, əsas problemə keçmək istəyirəm. Çünki Saatlı rayonunun 108 min əhalisinin 90 mini kənddə yaşayır. Bu kəndlərdə də camaatın işi ancaq təsərrüfatdır, bu gün də burada pambıqçılıq əsas yer tutur. Saatlıda suvarma ilə əlaqədar bizim ciddi problemlərimiz var. Məndən əvvəl də bu problemlər qaldırılıb. İndi bu il quraqlıq keçdi, buna baxmayaraq, biz vəziyyətdən birtəhər çıxdıq. Amma nəzərə almaq lazımdır ki, biz pambığın 3 min hektarını bir dəfədən artıq suvara bilmədik. Dörd min hektarda birinci suvarma ilə ikinci suvarma arasında aqrotexniki tədbirlər, tələblər pozuldu. Qısası, burada məsələni həll etmək üçün Kür çayından Saatlıya 20 kubmetr həcmində 17-18 kilometrlik məsafədən su xətti çəkilməsi layihəsi var və bu, Sizin göstərişinizlə İqtisadiyyat nazirinə tapşırılıb. İqtisadiyyat naziri də bu tapşırığı "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinə göndərib. Mən bütün aidiyyəti qurumlarda olmuşam və layihə də işlənir. Amma bu gün burada onunla əlaqədar söhbət getmədi. Elə bugünkü tədbir, cənab Prezident, qoy saatlılıların uzun illər mövcud olan bu probleminin həllini təmin edən gün olsun. Çünki Sizin tapşırığınızla Arazdan 54 kilometrlik əlavə bir yeni qol da çəkildi. Orada qış otlaqları əkin sahəsi altına keçirildi. İstər-istəməz bu da o sudan götürülür. Ona görə də bizim su problemlərimizi, çətinliyimizi aradan qaldırmaq üçün bu layihə çox vacibdir. Eyni zamanda, köhnə daşıyıcı su kanalları var. Əhməd müəllim bunları yaxşı bilir, Arazdan gələn daşıyıcı su kanalları uzun illərdir təmir edilmədiyindən nasos vasitəsi olmadan öz axını ilə gələn o suların bir hissəsi itkiyə gedir. Təsəvvürünüzə gətirin ki, Arazdan gələn suyun 30 faizi itkiyə gedir, axmaz göllərdə qalır, ona görə çətinliyimiz var. Mən fürsətdən, yaratdığınız şəraitdən, imkandan istifadə edərək bu problemi Sizin ali diqqətinizə çatdırmaq istədim. Ümid edirəm ki, Sizin bilavasitə nəzarətinizlə bu problem tezliklə öz həllini tapacaq. İnanın ki, bu il suda problem olmasaydı, biz 50 min ton pambıq verəcəkdik. Saatlı 1981-ci ildə Ulu Öndərin rəhbərliyi dövründə ən yüksək pambıq istehsal etdi - 60 min ton. Bu il isə 42 min ton oldu. Amma biz 50 min tonu tədarük edə bilərdik. Ona görə çox xahiş edərdim ki, saatlılıların bu müraciətini öz nəzarətinizdə, diqqətinizdə saxlayasınız, bizə kömək olunsun.

Mən vaxtınızı aldığıma görə dönə-dönə üzr istəyirəm. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Yaxşı ki, bu məsələni qaldırdınız. Saatlı hazırda ən böyük pambıqçılıq rayonudur və 42 min ton pambıq tədarük edib. Sovet vaxtında Bərdə, Sabirabad birinci-ikinci yerləri bölüşürdü. Amma hazırda pambıqçılıq Saatlının əsas iqtisadi sahəsidir. Məşğulluğu təmin edən də məhz pambıqçılıqdır. Siz Saatlıda bu yaxınlarda işləməyə başlamısınız, əvvəl qonşu rayonda - Sabirabadda işləmisiniz. Yaxşı bilirsiniz ki, Saatlıda və o cümlədən Sabirabadda biz pambıqçılığa dövlət dəstəyi verənə qədər işsizliklə bağlı çox böyük problemlər var idi. Pambıqçılıq bu problemləri, demək olar ki, aradan qaldırdı. Baxmayaraq ki, su ilə bağlı problemlər olub, amma yenə də hektardan 30 sentnerdən çox məhsul əldə edilib. Çox gözəl göstəricidir. O ki qaldı Kür çayından yeni kanalın çəkilməsinə, indi Əhmədzadə məlumat versin bu məsələ nə yerdədir?

**Əhməd Əhmədzadə:** Cənab Prezident, mən Nazim müəllimin dediklərini təsdiq edirəm ki, Saatlıda, doğrudan da, müvafiq problemlər var. Ümumiyyətlə, Muğan zonasında su problemləri var. Orada suyun təminatı iki sahədən gedir - Arazla, bir də Kür çayı ilə. Kür çayı ilə bağlı problem yoxdur. Amma Araz çayında su ilə bağlı bir az məhdudiyyət olur. Ona görə hamı istəyir ki, Kür çayından da böyük mənbə əldə etsin. Biz o məsələni öyrənmişik, Sizin yanınızda olanda mən bir balaca izah etmişdim. Siz dediniz ki, layihə hazırlayın, baxaq. Biz bu dəqiqə layihə hazırlayırıq. Suqovuşanda - Kür çayı ilə Araz çayının qovuşduğu yerdə nasos stansiya tikməklə 16 kilometr məsafəyə suyu nəql edərək Saatlıya 20 kubmetr suyun verilməsi mümkündür. Hazırda layihə işlənir və biz İqtisadiyyat Nazirliyinə verdiyimiz təkliflərdə o var.

İkinci problem Orta Muğan kanalı ilə bağlıdır, 50-60 ilin torpaq kanalıdır. O kanal özü də qumsal sahədən keçdiyi üçün süzülmə çox böyükdür. Mən Sizə keçən dəfə görüşdə dedim ki, biz o kanalları beton üzlüyə almasaq, itkilər çox olacaq. Həmin kanalla biz 27 kubmetr su verə bilirik. Amma əgər hər yerin suyunu bağlasaq, aşağıdakı təsərrüfatlara 5 kubmetrə yaxın su gedib çıxacaq. Deməli, 44 kilometr uzunluğunda kanalda itkilər çox böyükdür. Həmin o kanalda da bərpa işləri görmək lazımdır ki, beton üzlüyə alınsın. O da bizim verdiyimiz təkliflərin içərisində var.

**Prezident İlham Əliyev:** Bu 17 kilometr uzunluğunda kanalı çəkmək üçün nə qədər vaxt lazımdır? Layihə hazırdır, yoxsa hələ hazır deyil?

**Əhməd Əhmədzadə:** Biz layihəni bu kvartal hazırlayıb verəcəyik. Vəsait ayrılsa, biz onu bir ildə də edə bilərik. Yəni, təxminən 50-55 milyon manat pul tutur.

**Prezident İlham Əliyev:** Onda layihə hazır olan kimi, bir də məruzə edin. İndi İqtisadiyyat Nazirliyinə də tapşırıq veriləcək ki, onlar bu layihəni təhlil etsinlər və investisiya proqramına salsınlar. O ki qaldı digər kanallara, əfsuslar olsun ki, bizim kanalların böyük hissəsi torpaq kanallardır.

**Əhməd Əhmədzadə:** 75 faizi.

**Prezident İlham Əliyev:** Əlbəttə, biz son vaxtlar onları beton üzlüyə almağa başladıq və görürük ki, bunun nə qədər böyük səmərəsi var. Birincisi, su ünvan başına çatır. İkincisi, bu torpaq kanallar o torpaqları da şoranlaşdırır və torpaq da sıradan çıxır. Ona görə mən "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinə göstəriş vermişdim ki, bizim bütün su kanallarımız geniş təhlil edilsin və ardıcıllıqla biz beton kanallara keçməliyik. Baxmaq lazımdır, dünyada artıq bu sahədə də böyük inkişaf var, yeni texnologiyalar, yeni suvarma qaydaları mövcuddur. İndi hətta pivot da yeni texnologiya sayılmır.

*Ardı 5-ci səh.*

# Bu il pambıqçılıqda rekord göstərici əldə olunub

## Prezident əldə edilmiş nailiyyətlərlə kifayətlənməməyi, məhsuldarlığı daha da yüksəltməyi qarşıya məqsəd qoydu

## Prezident İlham Əliyevin yekun çıxışı

*Əvvəli 4-cü səh.*

Kanalların çəkilişində ondan da qabaqcıl, mütərəqqi texnologiyalar, müasir yanaşmalar var. Ona görə buna mütləq fikir vermək lazımdır. Bizdə həddindən çox su itkiləri var. Onsuz da biz su sarıdan korluq çəkirik. Ancaq hələ bu bir yana qalsın, itkilər də çoxdur. Əgər biz bu itkiləri əhəmiyyətli dərəcədə azalda bilsək, - bunun da yolları var, - onda daha böyük sahələri dayanıqlı su ilə təmin edəcəyik. İndi göllərdə də suyun səviyyəsi aşağı düşüb. Biz əgər vaxtilə Taxtakörpü su anbarını tikməsəydik, - bunu açıq deməliyik, - bu gün Bakı susuz qalacaqdı. Elədirmi?

**Əhməd Əhmədzadə:** Bəli.

**Prezident İlham Əliyev:** Çünki Taxtakörpü su anbarı və su kanalı həyati əhəmiyyət daşıyan layihədir. Şəmkirçay su anbarı da həmçinin. İndi biz nə qədər böyük sahələri su ilə təmin etmişik.

Ona görə meliorativ tədbirlər son illərdə prioritet infrastruktur məsələlərinin sırasındadır və bir çox işlər görülüb. Deməli, biz gərək suyun səmərəli istifadəsi ilə bağlı tədbirlər planı tutaq. Torpaq kanalları beton üzlüyə almaq üçün təkliflər planı olmalıdır. Kiçik su anbarlarının yaradılması barədə təkliflər vermisiniz. Kənd Təsərrüfatı naziri ilə birlikdə o yerləri seçin və bütövlükdə ortamüddətli, uzunmüddətli meliorativ tədbirlər planı yenidən tərtib edilməlidir. Biz bu işlərə mütləq vəsait ayırarıq.

Eyni zamanda, bu müşavirədə icra başçıları da iştirak edirlər. Yəqin ki, hər bir rayonda buna oxşar problemlər var. Müşavirədən sonra siz də təkliflərinizi verin, həm Zeynal Nağdəliyev, həm Kənd Təsərrüfatı naziri, həm də “Meliorasiya və Su Təsərrüfatı” cəmiyyəti baxacaq. Biz bu təklifləri gələn ilin investisiya proqramına sala bilərik. Çünki gələn ilin investisiya proqramı tərtib olunur, ilin sonunda təsdiq ediləcək. Biz yanvardan artıq onun icrasına başlamalıyıq. Ona görə vaxt azdır, təklifləri verin, amma o təklifləri ki, onlar real nəticə verə biləcək layihələrdir.

**Nazim İsmayılov:** Çox sağ olun, cənab Prezident.

* * *

Dövlət başçısı müşavirəyə yekun vurdu.



- Beləliklə, bir daha demək istəyirəm ki, bu ilin nəticələri məni çox sevindirir. Əsas məsələ ondadır ki, biz pambıqçılıqda da düzgün müəyyən edilmiş hədəflərin həyatda reallığa çevrildiyini görürük. Pambıqçılıq yenə də gəlirli, əməktutumlu sahəyə çevrilib və ölkə iqtisadiyyatına, o cümlədən makroiqtisadi vəziyyətin sabit qalmasına, manatın məzənnəsinin möhkəmlənməsinə və sabit qalmasına müsbət təsir göstərir.

Çünki sirr deyil ki, bizim əsas valyuta gətirən sahəmiz neft-qaz sektorudur. Əlbəttə ki, bu sektorun inkişafı daim diqqət mərkəzindədir və böyük uğurlar əldə edilib. Ancaq əsas vəzifəmiz qeyri-neft sənayesi və kənd təsərrüfatı hesabına iqtisadiyyatı şaxələndirməkdir. Bu il həm qeyri-neft sənayesi, həm də kənd təsərrüfatı əhəmiyyətli dərəcədə artıb. Qeyri-neft sənayesi 14, kənd təsərrüfatı isə 7 faizdən çox artıbdır. Əminəm ki, bu meyillər bundan sonra da davam etdiriləcək və beləliklə, biz kənd təsərrüfatını ən müasir standartlara uyğun şəkildə inkişaf etdirəcəyik.

Bir daha demək istəyirəm ki, biz gərək pambıqçılıqla bağlı məsələlər arasında mütərəqqi texnologiyalara daha böyük meydan verək. Çünki pilot layihələr icra edildi və məhsuldarlıq da çox yüksəkdir - təqribən 60 sentner. Ona görə hesab edirəm ki, gələn il biz bu pilot layihələrin sahəsini artırmalıyıq və Kənd Təsərrüfatı Nazirliyi bu məsələ ilə bağlı öz təkliflərini verməlidir.

Eyni zamanda, bu gün bir məsələ o qədər də diqqətdə olmadı, amma bu da çox vacib məsələdir, bu, toxum istehsalı məsələsidir. Biz lifsiz pambıq toxumu istehsalı zavodu işə salmalıyıq. İndi belə layihə var və hesab edirəm ki, işlərə gələn il start verilməlidir. Hər halda zavodun tikintisi bir il, bəlkə də il yarım çəkər ki, biz özümüzü bu keyfiyyətli toxumlarla təmin edək.

Tədarükçü şirkətlər bu il fermerlərə ödənilən vəsaiti çox operativ qaydada çatdırıblar. Əminəm ki, gələn il də belə olacaq. Yəni, indi hər gün, bəziləri bir neçə gündən bir öz əməkhaqqını alır. Hesablaşmalar dəqiq və ləngitmədən aparılmalıdır.

Pambıq istehsalı sahəsinə daha çox güzəştli kreditlər ayrılmalıdır. İqtisadiyyat Nazirliyinə göstəriş verilir ki, bu məsələlər təhlil edilsin. Gələn il təqribən 200 milyon manata yaxın güzəştli kreditlər nəzərdə tutulur və pambıqçılıq sahəsinə kifayət qədər vəsait ayrılmalıdır.

Bizim pambıq emalı zavodlarının fəaliyyəti bir daha nəzərdən keçirilməlidir. Çünki bu zavodların böyük hissəsi sovet vaxtında tikilib. Orada həm səmərəlilik aşağıdır, həm də keyfiyyət o qədər də lazımi səviyyədə deyil. Ona görə zavodların istehsal gücü dəqiqliklə hesablanmalıdır. Çünki indi bəyan edilən istehsal gücləri reallığı əks etdirmir. Pambıqtəmizləmə zavodlarının istehsal gücü pambığın artan həcmi ilə uzlaşmalıdır. Çünki əminəm ki, biz məhsuldarlığı artıracağıq və indi rəqəm demək istəmirəm, amma hər halda gələn il 30 sentnerdən çox pambıq tədarükü gözlənilir. Belə olan halda 300 min tondan çox pambıq yığılacaq və bizim pambıqtəmizləmə zavodları bu həcmi götürə biləcək, yoxsa yox? Bu, birincisi. İkincisi, zavodlarda modernləşdirmə aparılmalıdır. Əgər lazım olarsa, dövlət maliyyə dəstəyi də göstərə bilər. Bu il Ucarda yeni pambıqtəmizləmə zavodu istifadəyə verilib. Mənə verilən məlumata görə, yüksək standartlara cavab verir. Özü də bu, özəl sektor tərəfindən inşa edilibdir. Bu, çox müsbət haldır. Hesab edirəm ki, özəl qurumlar bu sahəyə diqqət yetirməlidirlər. Bütövlükdə araşdırılmalıdır ki, prinsipcə, bizə yeni pambıqtəmizləmə zavodlarının tikintisi lazımdır, yoxsa yox? Əgər lazımdırsa, hansı həcmdə ki, dövlət tərəfindən veriləcək dəstək də bəri başdan hesablansın. Yeni iplik fabrikləri yaradılmalıdır. Çünki hələ ki yığılan pambığın 40 faizi emal olunur. Bu, pis göstərici deyil. Ancaq çalışmalıyıq ki, mahlıc 100 faiz emal olunsun. Çünki bu, əlavə dəyər zənciri, iş yerləri yaradır. Sənaye istehsalı da artacaq. Ona görə yenə də özəl sektora müraciət edirəm ki, bu məsələyə diqqət yetirsin. Kifayət qədər pambığımız var. Ona görə iplik fabriklərinin tikintisi çox gəlirli sahəyə çevriləcək. Lazım olarsa, dövlət öz tərəfindən güzəştli kreditlərlə bu layihələri dəstəkləyə bilər. Ancaq iplik fabriklərinin tikintisi də bizim son hədəfimiz deyil. Son hədəf hazır məhsul istehsal etməkdir. Bu məqsədlə yeni toxuculuq, trikotaj fabrikləri tikilməlidir, yem, yağ fabrikləri yaradılmalıdır. Bütün bunlar bizim iqtisadiyyatımızı gücləndirəcək və əlavə minlərlə iş yeri yaradacaqdır.

Biz daxili tələbatı daxili resurslar hesabına təmin etməliyik. Biz indi pambığı tədarük edirik, onun böyük hissəsi - 60 faizi mahlıc, 40 faizi iplik kimi ixrac olunur. Sonra bu iplikdən istehsal edilən hazır məhsullar bizə idxal olunur və buna milyonlarla, on milyonlarla pul gedir. Ona görə bu sahədə daxili istehsal inkişaf etməlidir və zəncir tipli bir tədarük-istehsal kompleksi yaradılmalıdır. Dövlət-özəl tərəfdaşlığı burada əsas rol oynayacaqdır.

Bütövlükdə bu işlərin mütəşəkkil şəkildə həyata keçirilməsi üçün Prezident Administrasiyası, Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları və tədarükçü şirkətlər və digər şirkətlər, - hansılar ki, bu gün burada iştirak etmir, - birlikdə fəaliyyət planı tərtib etməlidirlər. 2020-ci il üçün çox geniş və müfəssəl yol xəritəsi tərtib edilib icra olunmalıdır. Belə olan halda pambıqçılıq Azərbaycanda daha sürətlə inkişaf edəcək, həm bu sahədə məşğul olan insanlara, həm də ki, dövlətə xeyir gətirəcəkdir. Sağ olun.

# Azərbaycan Yazıçılar Birliyinə

Sizi - ölkəmizin ədəbi ictimaiyyətinin nümayəndələrini Azərbaycan Yazıçılar Birliyinin 85 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Ötən əsrlərin söz sənətkarlarını ətrafında toplamış ədəbi məclislərin yeni tarixi şəraitdə varisi olan Yazıçılar Birliyi mədəni həyatımızda özünə məxsus yer tutur. Birlik totalitar sovet rejiminin ədəbi fəaliyyətə sərt direktivlərlə istiqamət verdiyi ideoloji yasaqlar dövründə yaransa da, ədəbi nəsillər arasında varisliyi təmin etmiş, ictimai fikrin milli özünüdərk zəminində formalaşdırılması, ana dilimizin saflığının qorunması və bədii sərvətlər xəzinəmizin zənginləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Birliyin xalqımızın azadlıq ruhunun canlandırılması, mübarizə əzminin gücləndirilməsi və istiqlal duyğusunun dirçəldilməsində, dövlət müstəqilliyimizin mənəvi əsaslarının möhkəmləndirilməsində xüsusi xidmətləri vardır.

Mütərəqqi və humanist ideyalardan qidalanmış klassik irsimizi nəcib ideya-fəlsəfi axtarışlar ədəbiyyatı və xalq həyatının bədii salnaməsi hesab edən Ulu Öndər Heydər Əliyev yazıçını “mədəniyyətin milli sərvətlərinin əsas mühafizəçisi” adlandırırdı. Azərbaycan ictimai-mədəni fikrinin inkişafına töhfələr vermiş və ədəbiyyatımızı dünya ədəbi irsinin ayrılmaz tərkib hissələrindən biri olaraq tanıdıb sevdirmiş görkəmli söz ustalarımızın adları bizə son dərəcə əzizdir. Xalqımız şeiri, sənəti hər zaman yüksək qiymətləndirmişdir və bu gün də əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək müstəqillik ideallarımıza sadiq istedadlı qələm sahiblərinə ehtiram göstərir. Ümidvaram ki, yaradıcılıq aləminə qədəm qoyan gənc ədəbi qüvvələr də ədəbi-mədəni ənənələrimizin layiqli davamçıları olacaq, azərbaycançılıq məfkurəsi işığında milli təəssübkeşlik hissi ilə yazıb yaradacaqlar.

Qloballaşma dalğasının getdikcə daha geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir vaxtda təşkilatınızın üzərinə mühüm vəzifələr düşür. İnanıram ki, siz həmin vəzifələrin öhdəsindən lazımınca gələcək, günümüz üçün aktual mövzuları və cəmiyyəti düşündürən məsələləri diqqətdə saxlayacaq, dərin mənəviyyat və bədii-estetik zövq aşılayan əsərlərlə oxucuları bundan sonra da sevindirəcəksiniz.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

# Xoşbəxt Yusifzadənin 90 illik yubileyinin qeyd olunması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin yanvar ayında tanınmış neftçi-alim və geoloq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, iki dəfə respublika Dövlət Mükafatı və Heydər Əliyev Mükafatı laureatı, akademik Xoşbəxt Bağı oğlu Yusifzadənin 90 yaşı tamam olur.

Xoşbəxt Yusifzadə Xəzər dənizində genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və onun zəngin potensialının üzə çıxarılmasında müstəsna xidmətlər göstərmiş, Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmışdır. Xoşbəxt Yusifzadənin iştirakı və rəhbərliyi ilə 20-dən artıq neft-qaz yatağı kəşf edilib istismara verilmişdir. Müstəqil Azərbaycanın yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində onun böyük əməyi vardır. Geoloq-alimin neft və qaz sənayesinin aktual problemlərinin həllinə dair araşdırmaları layiqincə qiymətləndirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın neft-qaz sənayesinin inkişafına mühüm töhfələrini nəzərə alaraq, akademik Xoşbəxt Yusifzadənin anadan olmasının 90-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

# E.T.Süleymanovanın 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və insan hüquqlarının qorunması sahəsində səmərəli fəaliyyətinə görə Elmira Teymur qızı Süleymanova 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

# Şəmkir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəmkir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 8,0 (səkkiz) milyon manatı “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2019-cu il*

# Baş Nazir Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin sədri ilə görüşüb



Dekabrın 19-da Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın fəaliyyətlərinin nəticəsində böyük enerji layihələrinin uğurla həyata keçirildiyi, qarşılıqlı investisiyaların və ticarət dövriyyəsinin artdığı qeyd olunub, iqtisadi əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məqamlara toxunulub.

Söhbət zamanı əlaqələrin blokada şəraitində olan Naxçıvanın iqtisadiyyatına müsbət təsiri vurğulanıb və bu proseslərin gələcəkdə də davam edəcəyinə əminlik ifadə olunub, habelə ikitərəfli əməkdaşlığın digər perspektivləri müzakirə edilib.

# Gecə təlimi zamanı döyüş atışları icra edilib



Müdafiə nazirinin təsdiq etdiyi 2019-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı gecə təlimi keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ssenariyə uyğun olaraq təlimə cəlb edilən motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri düşmənin gecə vaxtı hücumunun ona müxtəlif istiqamətlərdə cavab zərbələrinin endirilməsi ilə dəf olunması və qoşunlarımızın müdafiədən əks-hücuma keçməsi tapşırıqlarını yerinə yetiriblər.



# Azərbaycan parlamentində təmsil olunan siyasi partiyaların rəhbərlərinin ATƏT DTİHB-nin missiyası ilə görüşü olub

Milli Məclisdə Azərbaycan parlamentində təmsil olunan siyasi partiyaların rəhbərləri ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Ehtiyacların Qiymətləndirilməsi Missiyasının (EQM) nümayəndə heyətinin görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun baş seçki eksperti Aleksey Qromov bu görüş üçün yaradılan şəraitə görə minnətdarlıq edib. O, siyasi partiyaların seçki prosesində nə kimi çətinliklərlə qarşılaşdığını öyrənmək istədiklərini bildirib.

YAP icra katibinin müavini Siyavuş Novruzov Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan hakim partiyanın seçkilərdə iştirakı barədə ətraflı məlumat verərək ötən seçkilərdə DTİHB-lə əməkdaşlığın faydalı olduğunu deyib. 20 ildən bəri ölkəmizdə prezident, parlament və bələdiyyə seçkilərinin gedişini tənzimləyən hazırkı Seçki Məcəlləsinin yetkin sənəd olduğunu, vaxtilə ATƏT-in səlahiyyətli nümayəndəsinin iştirakı ilə hazırlandığını və zaman keçdikcə bu məcəlləyə lazımi dəyişikliklər edildiyini diqqətə çatdırıb.

Sonra görüşdə iştirak edən digər siyasi partiyaların rəhbərləri təəssüratlarını bölüşüblər. Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Vətəndaş Həmrəyliyi Partiyasının təmsilçisi Fəzail İbrahimli, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev çıxış edərək növbədənkənar parlament seçkilərinə qoşulduqlarını bildiriblər. Missiya üzvlərinə seçki platformaları və seçki şüarları, neçə dairədə nə qədər namizəd irəli sürdükləri, seçki prosesində partiyanın maliyyə təminatının qaynaqları, təmsil etdikləri partiyanın parlamentdə neçə seçki mandat qazandığı, təbliğat və təşviqat kampaniyasını necə quracaqları və s. barədə ətraflı məlumat veriblər.

Çıxışlarda vurğulanıb ki, ölkəmizdə çox ciddi islahatlar gedir, siyasi sistemdə də islahat aparılması xalqın xeyrinədir, ölkədəki ictimai-siyasi mühit azad və ədalətli seçkilərin keçirilməsi üçün münbit zəmin yaradıb. Azərbaycan qanunvericiliyi seçkidə bütün vətəndaşlara və siyasi partiyalara bərabərhüquqlu imkanlar verir.

Partiya rəhbərləri missiyanın nəzərinə Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma yurdlarında seçki hüquqları pozulmuş və ev-eşiyindən didərgin düşmüş məcburi köçkünlərin seçkidə iştirak edə bilmələri üçün Azərbaycan hökumətinin gördüyü tədbirləri də çatdırıblar.

Siyasətçilərin çıxışlarında vurğulanıb ki, hazırda Azərbaycanda demokratik və sabit seçki mühiti var. Seçkiyə qoşulmayan bəzi partiyaların irəli sürdükləri iddialar əsassızdır.

Görüş maraqlı diskussiya şəraitində keçib.

# Yeni Azərbaycanın müəllifləri



*Əvvəli 1-ci səh.*

**Müstəqillik tariximizdəki möhtəşəm ilklərin çoxu məhz İlham Əliyevin adı ilə bağlıdır.**

**Milli dövlətçilik tariximizdəki İlham Əliyev mərhələsi möhtəşəm ilklər dövrüdür.**

Düşünürəm ki, gələcək tədqiqatçılar da bu dönəmi məhz belə bir ifadənin işığında öyrənib tədqiq edəcəklər. **İlham Əliyev şəxsiyyətinə bu ilkləri yaratmış, onlara müəlliflik etmiş, bu ilklərlə birgə tarixin Yeni Azərbaycanını formalaşdırmış Lider kimi yanaşacaqlar.**

Xalqla əl-ələ, çiyin-çiyinə bu missiyanı həyata keçirmək qismətini Tanrı və tale Ona, həm də Mehriban xanıma əta edib...

❖ ❖ ❖

Bəhs etdiyim o reportajın kadrları bir-birini izlədikcə xəyal bir anlıq məni əsrlərin gərdişinə alıb aparırdı... Görünür, yazıçı kimi keçmişə dair mövzularla mütəmadi maraqlanmağın, bu mövzuda bədii əsərlər qələmə almağın bir özəlliyi də elə bundadır ki, rastlaşdığın hər mühüm hadisəyə bir də salnamələrin işığında nəzər salmağa çalışırsan.

O kadrlara baxdıqca yüz illər əvvəl böyük donanmalar qurmuş, limanlar, tərsanələr yaratmış, gəmilər inşa etmiş dövlət rəhbərlərini xatırlayırdım. Düşünürdüm ki, hər zaman dövlətin qüdrət rəmzi sayılan gəmilər, donanmalar, tərsanələr bugünkü texnoloji inkişaf dövründə də öz simvolik məzmununu itirməyib.

Yola çıxan hər gəmi gələcəyə doğru bir ümiddir... Gəmiləri qarşılayan hər liman yan almaq üçün güvənli, sabit, fayda dolu bir yerdir... Dünyaya açılmış ölkənin giriş-çıxış qapısı, hər addımında hərəkət görünən, iqtisadi inkişaf qaynayan qələbəlik məkanıdır...

Azərbaycan Prezidentinin iştirak etdiyi o mərasim də sıradan rəsmi tədbiri yox, əslində, Vətənin qüdrət rəmzini nümayiş etdirirdi. Elə Xəzərin zümrüd suları ilə qovuşub uzaq səfərlərə yol başlayan gəmi-bərənin adı da rəmzi idi. Bir anlıq mənə elə gəldi ki, o gəmi-bərə - “Azərbaycan” dövlət rəhbərimizin əmin və güclü əllərinin məharətlə idarə etdiyi sükanın diktə etdiyi istiqamətlə xoşbəxt gələcəyinə doğru yola çıxmış Vətəndir...

**Bu gəmini - “Azərbaycan”ı və Azərbaycanı yolundan sapdırmaq, səmtini dəyişmək, sürətini azaltmaq daha heç vaxt, heç bir bədxahımıza müyəssər olmayacaq.**

**Heç bir qüvvə Azərbaycan adlı bu möhtəşəm gəmini öz hədəflərindən, üz tutduğu inkişaf üfüqlərindən yayındıra bilməyəcək.**

**Çünki gəminin sükanı etibarlı əllərdədir!**

Önündə daim işıq saçıb ona düzgün yolu nişan verən, gələcəyə səsləyən parlaq mayak var...

O mayakı belə aydınladan tarixilik və müasirlikdən düşən işıqdır...

Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik düşüncəsinin ruhudur...

Keçmişə aid dəyərlərlə çağdaş inkişafın uzlaşmasıdır...

Azərbaycan Prezidentinin bir strateq kimi ənənələrlə müasirlik arasında vəhdət yarada bilməsidir...

❖ ❖ ❖

Şamaxı...

Məşhur Şah Xəndan türbəsi...

Cənab İlham Əliyev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Şamaxıya səfəri zamanı bu türbənin ətrafında aparılan abadlıq işləri ilə tanış olur.

Bu türbənin də, burada uyuyan Şah Xəndanın da yaradıcılıq dünyamda xüsusi yeri var. Şah Xəndan anadan olmasının 650 illiyi vətənində bütöv bir ilə çevrilmiş böyük mütəfəkkirimiz İmadəddin Nəsiminin doğmaca qardaşıdır. Kəlamının qüdrəti ilə bütün Şərq dünyasında səs salan qardaşı qədər o da öz dövrünün güclü şairlərindən sayılırdı.

...Dərviş idi, tərki-dünya idi, Məcnun kimi həmişə çiyinlərinə tökülən uzun, dağınıq saçları vardı və bu saçlara işarə ilə “Julidəmu” da deyərdilər adına...

Bu obraz nədənsə gəncliyimdən mənə çox doğmalaşmışdı. Tale qismət elədi, onun düşüncələrimdəki surətini bir gün bacardığım qədər bədii yaradıcılığıma da gətirə bildim. İmadəddin Nəsimiyə həsr olunmuş “Son səfər” povestimdə Nəsiminin mənəvi dünyasının özünəməxsusluqlarını təqdim etməkdən ötrü Şah Xəndan obrazının təsir gücündən faydalanmağa çalışdım. Nəsiminin həyata, dünyaya, insanlığa baxışlarını iki qardaşın mükalimələri işığında canlandırmağa yaradıcı cəhdlərim oldu.

Və bəlkə heç özüm də fərqinə varmadan, amma ədəbi tənqidçilərin qənaətincə, “Son səfər” əsəri Nəsimi ilə yanaşı, həm də qardaşı Şah Xəndanın povestinə çevrildi...

“Azərbaycan ədəbiyyatında Şah Xəndanın geniş planda mükəmməl bədii obrazını ilk dəfə Hüseynbala Mirələmov “Son səfər” povestində yaratmışdır” - zəmanəmizin müqtədir ədəbiyyatşünaslarından akademik İsa Həbibbəylinin bu fikri, təvazökarlıqdan hər nə qədər uzaq olsa da, indiyə qədər bədii yaradıcılığım haqqında yüksək dəyərləndirmələrdən biri kimi məni, yəqin ki, hətta əlimin yazı-pozudan soyuduğu ən həvəssiz, yorğun vaxtlarımda da, ahənrüba sayaq daim yazı masasına doğru çəkəcək...

Prezidentin və Mehriban xanımın Şah Xəndan türbəsinə ziyarətindən xəbər tutanda sevincimdən gözlərim güldü, fərəhimdən kövrəldim...

Heydər Əliyev Fondu “Nəsimi ili” çərçivəsində artıq bu türbə ətrafında da geniş abadlaşdırma işlərinə başlayıb. Yaxın vaxtlarda Şah Xəndan türbəsinin konservasiyasına da başlanacaq.

❖ ❖ ❖

Bu, xalqın tarixi keçmişinə, min illərlə formalaşmış fikir xəzinəsinə verilən dəyərdir. Dəyərləri yaşadanlar, sözə, mədəniyyətə həyat verənlər təkcə yaradıcı kəslər deyil ki... Onun qiymətini dərk edənlərdir, bu mənəviyyat incilərinə sahib çıxanlardır, onları göz bəbəyi kimi qoruyanlardır...

Ən çox da ali mənsəb sahibləridir. Çünki əksər hallarda ümumən cəmiyyətin bir çox məsələlərə münasibəti, rəyi onların yanaşmalarından asılı olur.

İlham Əliyev xalqımızın mənəvi dünyasına həssas münasibəti, diqqəti, qayğısı ilə insanlarımızda bu münasibəti yenidən formalaşdıran, dəyərlərimizə əbədi həyat bəxş edən, bu davranışlarında da Ulu Öndərin yoluna sadiq qalan Liderdir...

Qədimdən qədim tariximizin çox böyük dövlət adamlarını, fatehlərini, sərkərdələrini hərdən ərklə qınadığımız vaxtlar olur ki, kişilər o boyda imperiyalar, ucsuz-bucaqsız böyük dövlətlər yaradıblar, amma yaratdıqlarının tarixini səliqə-sahmanla qələmə aldırmaq, kitablara çevirtdirmək, kitabxanalar yaratmaq elə bil heç ağıllarına gəlməyib. Ona görə də məcburiyyətdən tariximizin qədim qatlarını bir çox yadellilərin məhz özlərinə sərf edən şəkildə yazıya aldıqları xaricidilli mənbələr əsasında açmağa, oxuyub-öyrənməyə çalışırıq.

Xalq olaraq çox böyük xəzinəyə sahibik, amma ona lazımi qədər sahib çıxa bilməmişik, bunu etiraf edək...

İlham Əliyevinsə bir dövlət adamı kimi böyüklüyü ondadır ki, Heydər Əliyevin mükəmməl dövlətçilik irsinə sadiqlik hissi ilə o, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir Şah, Cümhuriyyət qurucuları kimi qüdrətli sələflərinin də tarixilik məsələlərinə münasibətdə yol verdikləri yanlışları düzəltməyə çalışır.

Yaratdığı nümunələrlə göstərir ki, bir xalqın öz tarixi sərvətlərini həyata qaytarması, əslində, heç vaxt gec deyil. Yetər ki, istək olsun, diqqət olsun, insanları bu dəyərlərə doğru aparan yol-iriz kolkosdan təmizlənib sahmana salınsın.

Onların əsrlərin təsiri ilə aşınan, batıb gedən, torpağın köksündən silinmək təhlükəsi ilə üz-üzə qalan nişanələrini qoruyub möhkəmləndirən tapılsın. Xalqın milli ruhunu yaşadan tarixi irs keçmişin zülmətindən gün işığına çıxarılsın. Kiçik bir sorağın bələdçiliyi ilə böyük bir söz xəzinəsini gedib tapmağa qadir tədqiqatçılar qarşısında vəzifə qoyulsun, onlara yüksək səviyyədə dəstək verilsin.

Onda xalq öz böyüklüyünü dərk edəcək, özü ilə qürur duyacaq, əsrlər boyu yaratdığı nailiyyətlərin sırasını çağdaş dönəmdə yeniləri ilə əvəz etməkdən ötrü cani-dildən çalışacaq və bunu bacaracaq. Bir də heç vaxt, heç kimin ona, tarixinə, milli mənəviyyatına yuxarıdan aşağı baxmasına izn verməyəcək.

**İlham Əliyev bu qürurun, bu düşüncənin müəllifi olan, öz xalqına yeni bir ruh gətirən, xalqın ruh yüksəkliyinə çevrilən Liderdir...**

Bunu izlədikcə, duyduqca Prezidentimizin öz davranışları, bizi xalq olaraq ayaqda saxlayan məsələlərə münasibəti ilə hələ ötən əsrin 60-cı illərinin sonlarından milli şüurumuzun nuruna çevrilmiş Ulu Öndər Heydər Əliyevi nə qədər çox xatırlatdığını, ona bənzədiyini hiss edirəm.

Azərbaycan Prezidentinin bütün ölkə boyu ucaltdığı mədəniyyət ocaqları, onun tövsiyəsi ilə alimlərimizin tarixin ayrı-ayrı maraqlı anları ilə bağlı qələmə aldıqları kitablar, çəkilən sənədli filmlər, təmir-bərpa edilən, abadlaşdırılan, arxeoloji qazıntılarla üzə çıxarılıb yenidən gündəlik həyatımza qaytarılan qədim mədəni irsimiz bunun nişanəsidir...

İlham Əliyev bu məsələlərə ona görə xüsusi diqqətlə yanaşır ki, bütün böyük dövlət adamları kimi, o da təkcə bir anı deyil, bütöv tarixi duya bilir, xalqın keçmişi, bugünü qədər gələcəyini də düşüncələrində şəkilləndirməyi bacarır, həyata keçirdiyi siyasətin strateji hədəflərini sabahda, birigündə deyil, onilliklər, qərinələr, əsrlər sonrada müəyyənləşdirə bilir...

❖ ❖ ❖

İlham Əliyevin təşəbbüsü ilə bütöv bir ili “Nəsimi ili” kimi yaşadıq. Nəsimi kəlamının qüdrəti ilə düşüncələrimiz çıraqban oldu.

Nəsiminin fikir dünyası Yer üzünün hüdudlarından çox kənardadır, o, bu hüdudları aşır, təkcə bir fərdin, bir xalqın deyil, ümumilikdə insanın, bəşəriyyətin problemlərini önə çəkir, bu problemlərin həlli üçün yol göstərir. Ona görə də şair Nəsimi təkcə Azərbaycan xalqına aid deyil, onun kəlamı ümumən bəşərindir, külli-aləmə məxsusdur.

İlham Əliyevin həyata keçirdiyi siyasətin məzmunu, mündəricəsi də bəşəridir, təkcə bir xalqın, toplumun deyil, ümumən bəşəriyyətin problemlərinin həllinə hədəflənib. Zəmanəsinin parlaq liderlərindən biri kimi Azərbaycan Prezidenti dünya miqyaslı siyasət adamıdır. Ona görə də xalqımızın yetirdiyi Nəsimi kimi mütəfəkkirlərin bəşəri ideyaları onun hər zaman diqqətini çəkir.

İlham Əliyev bir insan, mütəfəkkir şəxsiyyət olaraq Nəsiminin sümüyünə, iliyinə qədər milli, bizimki, Azərbaycanın olduğunu da nəzərə alır və həm də bunu təbliğ edir.

Xalqımızın başını bu cür şəxsiyyətləri ilə ucaldır, Azərbaycan mədəniyyətinin zənginliyini, qədimlərdən malik olduqlarımızı, ən əsası isə müstəqil Azərbaycan dövlətinin əsaslandığı prinsipləri belə şəxsiyyətlərimizin işığında göstərir. Millət bu cür şəxsiyyətlərdən güc alır, onların boyuna baxıb böyüyür, onların adını tutub qürurlanır, onların nurunda aydınlığa çıxıb tərbiyələnir, özünə çəki-düzən verir.

Bəşər mədəniyyətinə Nəsimi kimi dühə bəxş etmiş bir xalqa necə hörmət bəsləməmək olar ki?! Bu, mümkün deyil!

**İlham Əliyevin belə şəxsiyyətlərimizi daim gündəmdə saxlaması Azərbaycan xalqına öz böyüklüyünü hər an dərk etdirir.**



Amma təkcə Azərbaycan xalqınamı?!

**Bununla dövlət rəhbərimiz Azərbaycan xalqını da dünyaya, demək olar ki, yenidən tanıdır. Çoxları Azərbaycanı qədim mədəniyyət beşiyi kimi özü üçün yenidən kəşf edir.** Bu gün dövlət səviyyəsində, eləcə də Heydər Əliyev Fondu xətti ilə aparılan məqsədyönlü, ardıcıl işlər xalqımızı öz tarixi keçmişi ilə, zəngin ənənələri ilə, mədəniyyət inciləri ilə, hər kəsə örnək olası həyat tərzi ilə layiq olduğu ucalıqlara yüksəldir.

**Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu xətti ilə həyata keçirdiyi layihələr milli ənənələrimizi dirçəldir, onlara əbədi həyat bəxş edir, hər birini dövlətçilik ideologiyamızın mühüm tərkib hissəsinə çevirir.**

İlham Əliyev və Mehriban xanımın fədakar, əzmkar fəaliyyəti bütün dünya üçün mədəniyyətlərarası dialoqun, multikulturalizmin, din və dövlət münasibətlərinin, tolerantlığın Azərbaycan adlı parlaq örnəyini formalaşdırır və göstərir ki, son illər Bakıda ardıcıl olaraq təşkil edilən beynəlxalq humanitar forumlardan bəşəriyyətə ünvanlanan nəcib çağırışlar Azərbaycanın pafos xatirinə səsləndirdiyi kəlmələr deyil! Yüz illər əvvəl bu torpaqlarda yaşayıb yaratmış dühalarımızın timsalında Azərbaycanda bu ideyaların əsrlər öncə mükəmməl elmi-fəlsəfi əsaslarını işləyib, əsərləri ilə dünyaya mükəmməl nümunələr təqdim edənlər olub.

Azərbaycan Prezidenti bu yöndə apardığı işlərlə təkcə Azərbaycana aid olanlara deyil, ümumən qoca Şərqin hikmət dünyasına sahib çıxır. Şərqi, islam dünyasını indiyə qədər bəlkə də heç kimin fərqində olmadığı, yaxud çox az görünmüş tərəflərindən təqdim edir. Və bununla sübuta yetirir ki, ünlü rus tənqidçisi Belinskinin təbirincə,desək, bəşər mədəniyyəti, həqiqətən Şərqdə doğulub, amma əfsuslar ki, Şərq onu beşikdən yerə qoya, ayaq tutub yeriməyi öyrədə, böyüdə bilməyib.

Əsrlər əvvəl Şərqin yol verdiyi bu yubanmanı, bacarıqsızlığı aradan qaldırmaq missiyası isə Şərq və Qərb sivilizasiyasının təmas nöqtəsində, iki mədəniyyətin, iki dünyagörüşünün aralığında, bu iki dünyanın ən yaxşı cəhətlərini əxz edərək, mənfi cəhətlərini mümkün qədər kənara qoyaraq öz zəngin keçmişinin möhkəm təməlləri üzərində bugününü və gələcəyini quran Azərbaycana, onun qüdrətli Liderinə düşər.

Azərbaycan Prezidenti bütün bunlarla Şərq dünyası qədər Qərbin bugünü və gələcəyi üçün də faydalı işlər görür. Çünki hazırda texnologiyaların aramsız inkişafı, misilsiz elmi kəşflərin möcüzələri mühitində yönünü, demək olar ki, itirən, sabahını təsəvvür etməkdə müşkülləri olan, mənəvi dünyadan daha çox maddi aləmə xitab edən Qərbin də tez-tez qarşıya çıxan saysız-hesabsız etik suallara cavab tapmaqdan ötrü mənəvi istinad yerlərinə çox böyük ehtiyacı var. Bu mənəvi istinadlar olmasa, indiki inkişaf sürəti insanı bir gün insanlıqdan çıxarıb, ruhsuz, düşüncəsiz, hissiz məxluqlara, adi robotlara çevirər. Müasir Qərb üçün də, Şərq üçün də bu cür mənəvi istinad ünvanları isə Nəsimi kimi düşüncə ümmanlarıdır, onların fikir aləmidir...

Azərbaycan Lideri Şərqə də, Qərbə də bu aləmə doğru qapı açır...

❖ ❖ ❖

Böyük liderlər, kamil dövlət xadimləri o kəslərdir ki, rəhbərlik etdikləri toplumu yenidən formalaşdırsınlar. Dünya tarixini vərəqlədikcə öz xalqını yenidən yaratmış, onun ən böyük tarixi uğurlarına vəsilə olmuş liderlərin bu cəhəti onların ən oxşar xüsusiyyəti kimi diqqəti həmişə cəlb edir.

Kim deyir ki, xalq cəmi bircə dəfə yaranır, onu yenidən formalaşdırmaq mümkün deyil?!

Yaxud kim iddia edər ki, dünyada ancaq müsbət və ya ancaq mənfi cəhətləri ilə tanınmış xalqlar var, bunu dəyişmək mümkünsüzdür?!

İki bağ təsəvvür edək: birinin çox qayğıkeş, zəhmətsevər bağbanı var, hər gün ağacların suyunu verir, dibini belləyir, qurumuş budaqlarını arıdır, meyvəsini vaxtında toplayır, gördüyü işə ürəyinin sevgisini qoyur, ağacların, güllərin nizamından, səliqəsindən zövq alır, bu bağ həmişə gülüstan olacaq. Digər bağsa baxımsızdır, başlanğıcda nə qədər nizamlı görünsə də, qısa zamandan sonra kol-kos basacaq, ağaclar quruyub gedəcək, hər şey məhv olacaq.

Xalqlar da o bağlar kimidir, xalqların da onları hər gün yenidən yaradan, səliqə-sahmanına, nizamına diqqət göstərən, ehtiyacları qayğısına qalan bağbana ehtiyacı var. Bu olmasa, xalq nə qədər böyük potensiala malik olursa-olsun, mənəvi dəyərlərə nə qədər önəm verirsə-versin, zamanla aşınıb gedəcək, yolunu, yöntəmini itirəcək, nizamlı millətdən mənasız, qorxulu, qaragüruh kütləyə çevriləcək.

**Bu gün cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın apardıqları işlər, Vətən evinin abadlığı naminə atdıqları addımlar, göstərdikləri nəcib təşəbbüslər, yaratdıqları səliqə-sahman, əslində, konkret maddi məkanlardan da çox düşüncələrdə, insanlarımızın mənəvi dünyasında aparılan abadlıqdır.**

Bunu etməsən, əsrlər əvvəl cəhalətə meydan oxuyan mütəfəkkirlər yetirmiş xalqın bu cür şəxsiyyətlərindən uzaq düşməsini, onları bilmərrə unudub savadsızlığa, kitabsızlığa, xürafata mübtəla olmasını kənardan laqeyd nəzərlərlə izləsən, özünü də, vətənini də, gələcəyini də tez bir zamanda itirərsən.

Bu gün İlham Əliyev Azərbaycan dövlətini qüdrətləndirməklə yanaşı, həm də xalqı yenidən formalaşdırmaq missiyasını yerinə yetirir. Bir tərəfdə tarixi, bir tərəfdə müasirliyi, bir tərəfdə insanların sosial rifahını, maddi ehtiyaclarının təmin olunması zərurətini, o biri tərəfdə isə həm də mənəvi dünyasının daim zənginləşdirilməsini diqqətdə saxlamaqla Vətəni gələcəyə hazırlayır...

**İlham Əliyev milli köklər üzərində, Şərqin fikir xəzinəsindən süzülən mənəvi ruh işığında, Qərbə xas çevik texniki həllər mühitində Azərbaycan xalqını addım-addım gələcəyə yönləndirir...**

❖ ❖ ❖

**İlham Əliyev Dədə Qorqud müdrikliyindən Şah İsmayıl Xətainin dövlət quruculuğu əzminə, Nadir şahın islahatçılıq qətiyyətinə, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi kimi maarifçilərimizin bəsirətinə, Heydər Əliyevin siyasət ustadlığına qədər bir çox tarixi dəyərlərimizi öz şəxsiyyətində bir araya gətirən və bu dəyərlər işığında özü də bir dövlətçilik dəyərimiz kimi ucalan şəxsiyyətdir.**

Onun vətənin sabahı olan Azərbaycan gəncliyinə xitablarına diqqət edək, apardığı köklü islahatların mahiyyətinə nəzər salaq. Dövlət rəhbərimiz gəncliyə bütün müraciətlərində təhsilə xüsusi diqqət yetirməyi, dövrün innovasiyalarını mənimsəməyi, texnologiyalara vaqif olmağı tövsiyə edir. Çünki təminatlı gələcəyin, özünə də, xalqına da, dövlətinə də üstünlük qazanmağın, fayda verməyin yeganə yolu ancaq budur. Elə bir zamana gəlib çatmışıq ki, reallıqlar daha nəinki bir əsr, heç beş-on il əvvəlki də deyil. Yeniliklərə, müasir trendlərə daim həssas bir cəmiyyət olaraq çox sürətli və aramsız hərəkət axınının baş verdiyi və bu axının getdikcə də gücləndiyi geniş bir inkişaf yoluna çıxmışıq.

Azərbaycan Prezidenti bu yolda irəliyə doğru hərəkətimizin xaotik deyil, nizamlı olmasına çalışır, gəncliyi də bunun üçün bilik və bacarıqlarla güclənməyə çağırır, eyni zamanda tariximizi öyrənməyə, milli kimliyi unutmamağa, vətənpərvərlik hissini qorumağa səsləyir. Bütün bunlar sürətli inkişaf axınında büdrəməmək üçün hər zaman söykənə biləcəyimiz, bizi güvənli şəkildə qoruyan möhkəm dayaqlardır.

**Vaxtın sürətinə müvazi şəkildə İlham Əliyev Azərbaycanı demək olar ki, hər gün yeniləyir, qurur, yaradır, ölkə, cəmiyyət həyatına zamanın çağırışlarına uyğun yeniliklər gətirir, effektivliyə şərait yaradan meyilləri daha da inkişaf etdirir, sürəti ləngidən məqamları aradan qaldırır, problemləri imkanlara çevirir.**

Verdiyi strateji qərarları doğru-dürüst və vaxtında yerinə yetirməyə qabil icraçılar komandası, çevik, səmərəli idarəetmə sistemi formalaşdırır, bunun üçün ciddi kadr islahatları, struktur dəyişiklikləri aparır, eyni zamanda zamanın ruhuna uyğun yeni yanaşmalar, fərqli metodlar, meyarlar formalaşdırır.

Ona görə də dünənki Azərbaycanın bugünkündən nə qədər fərqləndiyini və hər açılan sabahlara da yeni inkişaf fərqləri ilə daxil olduğunu hər bir insanımız duyur və bu yenilənmə prosesində bütün Azərbaycan vətəndaşları iştirak edir. Cənab İlham Əliyev həyata keçirdiyi inkişaf siyasətinə hər bir insanımızı cəlb edir, bu nəcib işdə əməyinin olmasına can atan hər kəsə şərait yaradır, meydan verir.

**Bu, yeni dünyanın Yeni Azərbaycanıdır...**

**Bu Azərbaycanı Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 90-cı illərinin əvvəllərində gələcəyin əngin üfüqlərində görürdü...**

**Onun Vətən sevgisi ilə dolu köksündə göyərən, elə bu munis arzu ilə də qurduğu partiyanın adına çevrilən Yeni Azərbaycanı bu gün cənab İlham Əliyev, Mehriban xanım Əliyeva xalqla birlikdə, el birliyi ilə qurub yaradır...**

Onların formalaşdırdıqları Yeni Azərbaycanda dövlətçilik əsasları möhkəm tarixi köklərə, əsrlərlə formalaşmış ənənələrə əsaslandığı qədər, eyni zamanda, müasirliyə yönəlir, çağdaş inkişaf proseslərinə qucaq açır.

Bu, dövlət bayrağımızın üzərindəki üç rəngin, soy-kökümüzün, müasir inkişaf əzmimizin, müqəddəs inancımızın real həyat mənzərələrində əks olunduğu ideyalarda, xəyallarda deyil, gerçəklərdə vəhdət tapdığı Azərbaycandır...

Bu, “Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istərik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın... “ deyən Əli bəy Hüseynzadə kimi ideoloqlarımızın öz xəyallarında şəkilləndirdikləri Vətəndir...

İndiyə qədər yaşayıb-yaratmış, xalq olaraq inkişafımıza, milli dövlətçilik irsimizin formalaşmasına töhfələr vermiş dühalarımızın görmək istədikləri Azərbaycan!..

Əslində, cənab İlham Əliyevin tarixdə yaratdığı ən mükəmməl ilk də elə budur!..

Yeni həyatın, bugünün və gələcəyin mübarək, Vətən!

Səni yenidən qurub-yaradan hər kəs qayım-qədim olsun!..

**Hüseynbala MİRƏLƏMOV,**
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon təşkilatının sədri***

# “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 7; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 3, maddə 211; 2018, № 2, maddə 147) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qanunun adında “Dövlət məhkəmə ekspertizası” sözləri “Məhkəmə ekspertizası” sözləri ilə əvəz edilsin;

1.2. Preambulanın birinci abzasında “Dövlət məhkəmə ekspertizası fəaliyyətinin (bundan sonra - məhkəmə ekspertizası fəaliyyəti)” sözləri “məhkəmə ekspertizası fəaliyyətinin” sözləri ilə əvəz edilsin;

1.3. 1-ci maddə üzrə:

1.3.1. dördüncü abzasda “marağı olmayan” sözlərindən sonra “, məhkəmə eksperti şəhadətnaməsi almış” sözləri əlavə edilsin;

1.3.2. beşinci abzasda “təyin” sözündən sonra “(sifariş)” sözü əlavə edilsin;

1.3.3. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

“məhkəmə ekspertizası tədqiqatının metodu - məhkəmə ekspertizasının predmeti ilə bağlı işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslərin tədqiqi zamanı tətbiq edilən üsul və vasitələr sistemidir.”;

1.4. 6-cı maddənin birinci hissəsinin birinci cümləsində, 8-ci maddənin üçüncü hissəsinin birinci cümləsində, dördüncü və beşinci hissələrində, 9-cu maddənin ikinci hissəsinin üçüncü abzasında, üçüncü hissəsinin üçüncü abzasında, 10-cu maddənin birinci hissəsinin yeddinci abzasında, 12-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, üçüncü hissəsinin ikinci abzasında, dördüncü hissəsində, beşinci hissəsinin səkkizinci abzasında, 13-cü maddənin birinci hissəsinin ikinci abzasında, 16-cı maddədə, 17-ci maddədə, 18-ci maddənin ikinci hissəsinin ikinci cümləsində, 19-cu maddənin ikinci, üçüncü hissələrində və altıncı hissəsinin birinci cümləsində (birinci halda), 20-ci maddənin birinci hissəsində, 24-cü maddənin üçüncü hissəsinin ikinci cümləsində, 25-ci maddənin birinci və dördüncü hissələrində, 26-cı maddənin ikinci hissəsinin dördüncü abzasında, üçüncü hissəsinin üçüncü cümləsində “təyin” sözündən sonra “(sifariş)” sözü əlavə edilsin;

1.5. 8-ci maddənin üçüncü hissəsinin ikinci cümləsinə “(qərardadda)” sözündən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə” sözləri əlavə edilsin;

1.6. 9-cu maddə üzrə:

1.6.1. birinci hissədə “(qərardadı) aldıqdan” sözlərindən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan” sözləri əlavə edilsin;

1.6.2. ikinci hissənin ikinci abzasında “icra edilmədən” sözlərindən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə rəsmi müraciəti təmin edilmədən” sözləri əlavə edilsin;

1.6.3. ikinci hissənin dördüncü abzasında “(qərardadda)” sözündən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə” sözləri əlavə edilsin;

1.6.4. üçüncü hissənin ikinci abzasında “(qərardad)” sözündən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə” sözləri əlavə edilsin;

1.7. 10-cu maddənin birinci hissəsi üzrə:

1.7.1. ikinci abzasda “(qərardadı) aldıqdan” sözlərindən sonra “və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilə bağlandıqdan” sözləri əlavə edilsin;

1.7.2. dördüncü abzasda “qərarda” sözündən sonra “(qərardadda) və ya məhkəmə ekspertizasının sifariş edilməsi barədə müqavilədə” sözləri əlavə edilsin;

1.8. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 11. Məhkəmə eksperti**

Ali təhsilli və müəyyən ekspertiza ixtisası üzrə xüsusi biliklərə malik Azərbaycan Respublikasının vətəndaşı məhkəmə eksperti ola bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxs, din xadimi, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab olunmuş, cinayət törətdiyinə görə məhkum olunmuş, barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı çıxarılmış, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş şəxs məhkəmə eksperti ola bilməz.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən şəxs məhkəmə eksperti qismində fəaliyyət göstərmək üçün məhkəmə eksperti şəhadətnaməsini (bundan sonra - şəhadətnamə) almalıdır.

Məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərə dövlət məhkəmə eksperti şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Bu maddənin birinci və ikinci hissələrində göstərilən tələblərə cavab verən və özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs özəl məhkəmə eksperti şəhadətnaməsini almaq üçün müvafiq dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədlə yanaşı aşağıdakı tələblərdən birinə cavab verdiyini təsdiq edən sənədləri təqdim etməlidir:

1) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə ən azı 10 il işlədiyini;

2) ekspert qismində fəaliyyət göstərmək istədiyi ixtisas üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinin olduğunu;

3) xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərinin (diplom, sertifikat və sair) mövcudluğunu.

Şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs şəhadətnamə almaq üçün həmin siyahıda olmayan sənəd təqdim etdikdə, həmin sənədin siyahıya daxil edilməsi məsələsi araşdırılır və bu sənəd siyahıya daxil edildiyi halda ona şəhadətnamə verilməsi üçün əsas qismində çıxış edir.

Özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən internet informasiya ehtiyatı vasitəsilə təşkil edilən məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyin ümumi tələbləri, ekspert rəyinin tərtib edilməsi qaydaları və etik davranış kodeksinin müddəalarına dair icbari təlimdə iştirak etməlidir. Təlimin keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərlə müsahibə keçirir.

Özəl məhkəmə ekspertlərinə şəhadətnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

Şəhadətnamənin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Şəhadətnamə almış şəxs barədə ətraflı məlumat müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərhal Məhkəmə Ekspertləri Reyestrinə daxil edilir. Şəxs yalnız şəhadətnamə aldıqdan və barəsində məlumat Reyestrə daxil edildikdən sonra məhkəmə eksperti qismində fəaliyyət göstərə bilər.

Reyestrə daxil edilmiş şəxslər məhkəmə ekspertizasının aparılması və ekspert rəyinin hazırlanması ilə əlaqədar məhkəmə ekspertləri üçün bu Qanunla və müvafiq prosessual qanunvericiliklə nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir, vəzifələri yerinə yetirirlər.

Məhkəmə eksperti yalnız şəhadətnamədə qeyd edilən məhkəmə ekspertizası ixtisası (ixtisasları) üzrə ekspert rəyi verə bilər.

Məhkəmə eksperti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən məhkəmə ekspertinin etik davranış kodeksinin tələblərinə riayət etməlidir.

Müvafiq icra hakimiyyəti orqanlarının məhkəmə ekspertizası idarələrinin ekspertlərinə bu orqanların işçiləri üçün qanunla müəyyən edilmiş qaydada xüsusi rütbələr verilir.

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertlərinin bu Qanunun tələblərinə riayət etməsinə nəzarət edir.”;

1.9. aşağıdakı məzmunda 11-1 - 11-5-ci maddələr əlavə edilsin:

“**Maddə 11-1. Məhkəmə ekspertinin fəaliyyətinə xitam verilməsi**

Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməni ləğv edərək məhkəmə ekspertinin fəaliyyətinə xitam verir:

şəxs öz arzusu ilə şəhadətnamənin ləğv olunması barədə yazılı ərizə verdikdə;

şəhadətnamə almaq üçün təqdim edilən sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

şəhadətnamə aldıqdan sonra 5 il ərzində məhkəmə eksperti qismində fəaliyyət göstərmədikdə;

attestasiyadan keçə bilmədikdə və ya attestasiya keçməkdən yayındıqda;

qanunvericiliyin tələblərini kobud və ya mütəmadi pozmaqla ekspertiza apardıqda;

ekspertin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspertin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya ekspert Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

ekspert məhkum edildikdə, onun barəsində ekspertiza fəaliyyəti ilə məşğul olma hüququndan məhrum etmə və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

ekspert barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verildikdə;

ekspert vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Müvafiq icra hakimiyyəti orqanı şəhadətnaməsi ləğv edilmiş ekspertin adını Məhkəmə Ekspertləri Reyestrdən çıxarır.

Şəhadətnaməsi ləğv edilmiş ekspertə qəbul edilmiş qərarla bağlı üç iş günü müddətində məlumat verilir.

**Maddə 11-2. Məhkəmə ekspertlərinin attestasiyası**

Məhkəmə ekspertləri 5 ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilirlər. 20 ildən artıq müddətdə ekspert qismində fəaliyyət göstərən şəxslər attestasiyadan azaddırlar.

Attestasiya nəticəsində məhkəmə ekspertizası idarələrinin ekspertlərinə ixtisaslaşmasından və hazırlıq səviyyəsindən asılı olaraq ixtisas dərəcəsi verilir.

Attestasiyanın keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 11-3. Məhkəmə Ekspertlərinin Reyestri**

Müvafiq icra hakimiyyəti orqanı məhkəmə ekspertizası idarələrinin ekspertləri və özəl məhkəmə ekspertləri barədə məlumatları Məhkəmə Ekspertlərinin Reyestrinə daxil edir.

Reyestrin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Reyestr açıqdır, müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində yerləşdirilir və məlumatlar daim yenilənir.

Reyestrə daxil edilməyən şəxslərin məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olması qadağandır və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 11-4. Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri**

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ekspertlər məhkəmə ekspertizasının aparılması zamanı Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olan tədqiqat metodlarından istifadə edir. Ekspert Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinə daxil olmayan metoddan yalnız həmin metodun aşağıdakı bütün şərtlərə cavab verdiyini ekspert rəyində əsaslandırmaqla istifadə edə bilər:

1) qanunda nəzərdə tutulmuş norma və prinsiplərə zidd deyildir;

2) elmi cəhətdən əsaslandırılmışdır;

3) insanların həyat və sağlamlığı və ətraf mühit üçün təhlükəsizdir.

**Maddə 11-5. Məhkəmə ekspertizasının metodik fondu**

Məhkəmə ekspertizalarının elmi-metodik materiallarından ibarət xüsusi fond yaradılır. Həmin materialların elektron nüsxələri fonda daxil edilir.

Fondun yaradılması və istifadəsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”;

1.10. 12-ci maddənin beşinci hissəsi üzrə:

1.10.1. ikinci abzasda “idarəsinin” sözündən sonra “ekspertlərinə həmin idarənin” sözləri əlavə edilsin;

1.10.2. üçüncü abzasda “başqa” sözündən əvvəl “məhkəmə ekspertizası idarəsinin ekspertlərinə” sözləri əlavə edilsin;

1.11. 13-cü maddənin birinci hissəsinin yeddinci abzasında “təhqiqat aparan şəxsə, müstəntiqə və ya məhkəməyə (hakimə)” sözləri “məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxsə” sözləri ilə əvəz edilsin;

1.12. 19-cu maddə üzrə:

1.12.1. altıncı hissənin birinci cümləsində “işləyib hazırlamaq” sözlərindən sonra “, ekspertizanın aparılmasının ümumi müddəti daxilində ayrı-ayrı tədqiqatların icra müddətlərini təyin etmək və onlara əməl olunmasına nəzarət etmək” sözləri əlavə edilsin;

1.12.2. dördüncü-səkkizinci hissələr müvafiq olaraq beşinci-doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Şəxsin anlaqlı olub-olmaması ilə bağlı məhkəmə-psixiatrik ekspertizasının aparılması üçün ən azı üç məhkəmə ekspertindən ibarət tərkibdə komissiya təşkil edilir.”;

1.13. 21-ci və 22-ci maddələr aşağıdakı redaksiyada verilsin:

“**Maddə 21. Məhkəmə ekspertizasının aparılmasının əsasları**

Məhkəmə ekspertizası Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş hallarda təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilir. Təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarı, yaxud məhkəmənin (hakimin) qərarı (qərardadı) ilə təyin edilmiş ekspertiza məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual və İnzibati Xətalar məcəllələrində nəzərdə tutulmuş hallarda fiziki və ya hüquqi şəxslər, həmin şəxslərin vəkilləri və nümayəndələri (qanuni nümayəndələri) məhkəmə ekspertizasının aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarələrinə və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdir. Bu halda məhkəmə ekspertizası həmin şəxslərlə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə ekspertləri arasında bağlanan müqavilə əsasında məhkəmə ekspertizasını sifariş edən şəxslərin hesabına həyata keçirilir. Müqavilədə ekspertin biləbilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda şübhəli, təqsirləndirilən şəxs və ya onların müdafiəçisi, yaxud mülki cavabdeh məhkəmə ekspertizasının aparılmasını məhkəmə ekspertizası idarələrinə sifariş vermək üçün rəsmi müraciət etmək hüququna malikdir.

**Maddə 22. Məhkəmə ekspertizasının aparılması**

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs tədqiqatın aparılması və ekspert rəyinin verilməsi üçün suallar siyahısını, tədqiqat obyektləri və iş üzrə materialları məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə təqdim edir.

Məhkəmə ekspertizasını təyin (sifariş) etmiş orqan və ya şəxs Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müqayisəli tədqiqat üçün nümunələr götürür və onları işə əlavə edir. Nümunənin götürülməsi məhkəmə ekspertizası fəaliyyətinin bir hissəsidirsə, bu hərəkət məhkəmə ekspertizasını aparan ekspert tərəfindən həyata keçirilir.

Tədqiqat prosesində ekspert tərəfindən eksperimental nümunələr hazırlana bilər və bu hal ekspertin rəyində göstərilməlidir. Ekspertizanı təyin etmiş orqan və ya şəxs bu cür nümunələrin hazırlanmasında iştirak edə bilər və onun bu hərəkəti tərtib etdiyi protokolda əks etdirilir.

Məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.”;

1.14. 22-1-ci maddə ləğv edilsin;

1.15. 23-cü maddə aşağıdakı redaksiyada verilsin:

“**Maddə 23. Məhkəmə ekspertizası fəaliyyətinin təşkili**

Məhkəmə ekspertlərinin fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının məhkəmə ekspertizası idarələrində, elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında, özəl hüquqi şəxslərdə, habelə özəl məhkəmə eksperti tərəfindən ayrıca şəkildə təşkil edilə bilər.

Məhkəmə-tibb (məhkəmə-psixiatriya), məhkəmə-ballistik, məhkəmə partlayış-texniki, pul nişanları və qiymətli kağızların, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin, dərman vasitələrinin məhkəmə ekspertizaları yalnız məhkəmə ekspertizası idarələri tərəfindən həyata keçirilir.

Məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən şəxslər və qurumlar məhkəmə ekspertizasının aparılması üzrə fəaliyyətini ekspert təcrübəsinin ümumiləşdirilməsi, ekspertlərin peşəkar hazırlığı və onların ixtisaslaşdırılması, o cümlədən ekspert praktikasının vahid elmi-metodik üsullarla öyrənilməsi əsasında həyata keçirirlər.

Məhkəmə ekspertizası idarələri məhkəmə ekspertlərinə metodik köməklik göstərir.

Məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.”;

1.16. 43-cü maddədə “vəzifəli şəxslər və vətəndaşlar” sözləri “şəxslər” sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il.*

# “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun 2020-ci il martın 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. iki ay müddətində:

1.1.1. “Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsinə uyğun olaraq, özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxsin xüsusi biliklərə malik olduğunu təsdiq edən beynəlxalq səviyyədə tanınan sənədlərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.2. həmin Qanunun 11-ci maddəsinin onuncu hissəsinə uyğun olaraq, məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.3. həmin Qanunun 11-2-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.4. həmin Qanunun 11-3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertlərinin Reyestrinin aparılması qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.5. həmin Qanunun 23-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.6. həmin Qanunun 11-ci maddəsinin on dördüncü hissəsinə uyğun olaraq, məhkəmə ekspertinin etik davranış kodeksini təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 11-4-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrinin aparılması və yeni metodların həmin reyestrə daxil edilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Qanunun 11-5-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 31; 2001, № 6, maddə 415; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 224; 2011, № 10, maddə 889; 2014, № 4, maddə 370) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Fərmanın adında, preambulasında, birinci hissəsinin ikinci və dördüncü abzaslarında “Dövlət məhkəmə” sözləri “Məhkəmə” sözü ilə əvəz edilsin;

2.2. həmin Fərmanın 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin altıncı hissəsinin birinci cümləsində, onuncu hissəsində, on dördüncü hissəsində, 11-2-ci maddəsinin üçüncü hissəsində, 11-3-cü maddəsinin ikinci hissəsində, 11-4-cü maddəsinin ikinci hissəsində, 11-5-ci maddəsinin ikinci hissəsində, 23-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 11-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

2.3. həmin Qanunun 11-ci maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində, səkkizinci və doqquzuncu hissələrində, on birinci hissəsinin birinci cümləsində, 11-1-ci maddəsinin ikinci hissəsində, 11-3-cü maddəsinin birinci və üçüncü hissələrində, 11-4-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 11-ci maddəsinin on beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirirlər;

2.5. həmin Qanunun 11-ci maddəsinin on altıncı hissəsində və 11-1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabeliyində olan məhkəmə ekspertizası idarələrinin ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinə və özəl məhkəmə ekspertlərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

2.6. həmin Qanunun 23-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini məhkəmə-tibb (məhkəmə-psixiatriya) ekspertizası sahəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, məhkəmə ekspertizasının digər sahələrində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, ilkin və əlavə məhkəmə-daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə-ballistik ekspertizaları sahəsində isə həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.7. həmin Qanunun 33-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.8. həmin Qanunun 34-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Ədliyyə Nazirliyi birgə həyata keçirirlər;

2.9. həmin Qanunun 39-cu maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının və 40-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Daxili İşlər Nazirliyi həyata keçirirlər.”.

3. Bu Fərmanın 2-ci hissəsi 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2019-cu il*

# “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287; 2016, № 12, maddə 2032; 2017, № 6, maddə 1044, № 12, maddə 2188; 2018, № 7 (I kitab), maddə 1443) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 11.0.3-1-ci maddə əlavə edilsin:

“11.0.3-1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinə uyğun olaraq, məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması qaydasını Azərbaycan Respublikası Ali Məhkəməsinin təklifləri əsasında müəyyən edir;”;

1.2. 13.3-cü maddənin ikinci cümləsində “həmçinin” sözündən sonra “məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri,” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, №5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, №12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 63.1-ci maddədə "və məhkəmə tərəfindən təyin edilən" sözləri ", məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış" sözləri ilə əvəz edilsin;

1.2. 97.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.3. aşağıdakı məzmunda 97.4-1-ci maddə əlavə edilsin:

"97.4-1. İşdə iştirak edən şəxslər ekspert tədqiqatının obyekti kimi əşya və sənədləri təqdim etmək hüququna malikdirlər. Məhkəmə təqdim edilmiş əşya və sənədləri ekspert tədqiqatının obyekti kimi qəbul etmədikdə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.4. 99-cu maddə üzrə:

1.4.1. 99.1-ci maddənin ikinci cümləsində "Məhkəmə" sözündən sonra "və işdə iştirak edən şəxslər" sözləri əlavə edilsin;

1.4.2. 99.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"99.2. Ekspertiza məhkəmə ekspertizası idarəsinin ekspertləri və ya özəl məhkəmə ekspertləri tərəfindən keçirilir. Ekspertizanın keçirilməsi bir neçə ekspertə həvalə edilə bilər.";

1.4.3. 99.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu zaman işdə iştirak edən şəxslər tətbiq edilmiş tədqiqat üsullarının mahiyyətinin və alınmış nəticələrin izahını ekspertdən tələb edə və ekspertə izahlar verə bilərlər.";

1.5. 101-ci maddə aşağıdakı redaksiyada verilsin:

"**Maddə 101. Ekspert rəyi**

101.1. Ekspert ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu gündən 1 ay, bu Məcəllənin 172.2-ci maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə 10 gündən gec olmayaraq yazılı formada rəy verir, onu öz imzası ilə təsdiq edir və dərhal məhkəməyə göndərir. Bu Məcəllənin 172.3-cü maddəsində nəzərdə tutulmuş işlərə münasibətdə isə ekspert rəyi 3 günədək müddətdə verilir.

101.2. Ekspertizanın aparılmasını bu Məcəllənin 101.1-ci maddəsində göstərilən müddətlərdə təmin etmək mümkün olmadıqda, məhkəmə ekspertizası idarəsinin rəhbəri tərəfindən əsaslandırılmış səbəblər göstərilməklə bu barədə məhkəməyə dərhal məlumat verilir. Bu halda tədqiqatların mürəkkəblik dərəcəsi nəzərə alınmaqla ekspertizanın aparılması müddəti məhkəmə ilə yazılı formada razılaşdırılır.

101.3. Ekspert rəy verilməsi üçün əlavə tədqiqat materiallarının təqdim edilməsinə zərurət olduğunu müəyyən etdikdə, ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadının məhkəmə ekspertizası idarəsinə daxil olduğu vaxtdan 5 gündən gec olmayaraq bu barədə məhkəməyə vəsatət göndərir. Vəsatətdə tələb olunan tədqiqat materiallarının dəqiq və tam siyahısı göstərilir.

101.4. Məhkəmə tərəfindən ekspertin həmin vəsatətinə 3 gün müddətində baxılır və əlavə tədqiqat materiallarının əldə edilməsi müəyyən vaxt tələb etdikdə məhkəmə ekspertizası idarəsinin rəhbərinə məlumat verilməklə bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzadılır.

101.5. Ekspertin həmin vəsatəti bu Məcəllənin 101.4-cü maddəsində nəzərdə tutulan müddətdə təmin edilmədikdə məhkəmə ekspertizası idarəsinin rəhbəri ekspertiza təyin edilməsi haqqında məhkəmənin qərardadını icra olunmadan geri qaytarmaq hüququna malikdir.

101.6. Ekspert rəyində aparılmış tədqiqatların müfəssəl təsviri, onlara əsasən çıxarılmış nəticələr və məhkəmə tərəfindən qoyulmuş suallara əsaslandırılmış cavablar verilməlidir. Əgər ekspert ekspertiza apararkən iş üçün əhəmiyyəti olan, haqqında sual qoyulmayan halları müəyyən edirsə, o, bu hallar barədə mülahizələrini öz rəyinə daxil etməyə haqlıdır.

101.7. Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir.

101.8. Bu Məcəllənin 101.1-ci və 101.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət etmədikdə məhkəmə ekspertizası idarəsi məhkəmə tərəfindən yüz manat məbləğində cərimə edilə bilər.";

1.6. aşağıdakı məzmunda 101-1-ci və 102.3-cü maddələr əlavə edilsin:

"**Maddə 101-1. İşdə iştirak edən şəxslərin təşəbbüsü ilə ekspertizanın aparılması**

101-1.1. İşdə iştirak edən şəxslər onların mənafelərinə xidmət edə biləcək halların müəyyən edilməsi üçün öz təşəbbüsləri ilə ekspertizanın aparılmasını sifariş vermək üçün məhkəmə ekspertizası idarəsinə və ya özəl məhkəmə ekspertinə rəsmi müraciət etmək hüququna malikdirlər.

101-1.2. İşdə iştirak edən şəxsin sifarişi ilə ekspertiza həmin şəxslə məhkəmə ekspertizası idarəsinin rəhbəri və ya özəl məhkəmə eksperti arasında bağlanan müqavilə əsasında ekspertizanı sifariş edən şəxsin hesabına həyata keçirilir. Müqavilədə ekspertin bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıması barədə məlumatlandırıldığı onun imzası ilə təsdiq edilməlidir. Ekspertizanı sifariş etmiş şəxs ekspertə suallar siyahısını və tədqiqat üçün obyektləri verir.

101-1.3. Ekspert ekspertizanı sifariş etmiş şəxsə müqavilədə göstərilən müddətdə yazılı rəy verir. Ekspertiza aparmış ekspertlərin təqdim edilmiş rəyləri məhkəmə tərəfindən materiallara əlavə edilir və digər sübutlarla yanaşı qiymətləndirilir.";

"102.3. Məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə əlavə və ya təkrar ekspertiza təyin edə bilər. İşdə iştirak edən şəxsin vəsatəti rədd edildikdə məhkəmə bu barədə əsaslandırılmış qərardad qəbul etməlidir.";

1.7. 132-ci maddəyə "ərizəsi üzrə" sözlərindən sonra ", habelə bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatəti əsasında" sözləri əlavə edilsin;

1.8. 257-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"İşin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda və ya bu Məcəllənin 101.3-cü maddəsində nəzərdə tutulan ekspertin vəsatətinə baxılması zərurəti yarandıqda, işdə iştirak edən şəxslərin ərizəsi üzrə və ya məhkəmənin təşəbbüsü ilə iş üzrə icraat təzələnir.";

1.9. 418-ci maddə üzrə:

1.9.1. 418.1-ci maddədə "tətbiq olunmaması" sözlərindən sonra ", o cümlədən maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması" sözləri əlavə edilsin;

1.9.2. aşağıdakı məzmunda 418.6-cı maddə əlavə edilsin:

"418.6. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması qətnamənin və ya qərardadın ləğv edilməsinə yalnız o halda əsas olur ki, qətnamə və ya qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.";

1.10. aşağıdakı məzmunda 418-1-ci maddə əlavə edilsin:

"**Maddə 418-1. Kasassiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi**

418-1.1. Ali Məhkəmənin məhkəmə tərkibi işə kasassiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiyası məhkəməsinin bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş qətnamə və ya qərardadının əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

418-1.2. Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılarkən müvafiq təqdimatı verən məhkəmə tərkibinin daxil olduğu Ali Məhkəmənin kollegiyasının sədri iclasa sədrlik edir. İclas mülki və kommersiya kollegiyaların hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

418-1.3. Ali Məhkəmənin mülki və kommersiya kollegiyaları mübahisəli hüquqi məsələyə birgə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

418-1.4. Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

418-1.5. Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən, bu Məcəllənin 418-1.3-cü maddəsində nəzərdə tutulmuş qərardadda müəyyən edilmiş hüquqi mövqedən fərqli qərar qəbul olunmasını zəruri hesab edirsə, məsələyə bu Məcəllənin 418-1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılır.";

1.11. 424.2.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 424.2.6-cı maddə əlavə edilsin:

"424.2.6. kasassiya instansiyası məhkəməsinin qərarı bu Məcəllənin 418.6-cı maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyini pozmuşsa.".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 77-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"77. şəxsin sahibkarlıq fəaliyyətini həyata keçirməsi üçün müəyyən sahədə xüsusi biliklərə malik olduğunu təsdiq edən sənəd (özəl məhkəmə ekspertinin şəhadətnaməsi, auditor adı almaq üçün verilən ixtisas imtahanının nəticələrini təsdiq edən sənəd);".

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# Ermənistan Almaniyanın radikal sağçı Almaniya üçün Alternativ (AfD) partiyası ilə fəal əməkdaşlıq edir

Son illərdə Almaniyadan işğal altında olan torpaqlarımıza qanunsuz səfərlərin sayının artmasına töhfə verən əsas faktorlardan biri Ermənistanın bu ölkənin radikal sağçı Almaniya üçün Alternativ (AfD) partiyası ilə fəal əməkdaşlıq etməsidir.

2017-ci ildən etibarən Almaniyanın Baden-Vürttemberq, Türinqen, Meklenburq-Forpommern və Brandenburq federal torpaqlarının landtaqları, eləcə də Bundestaqın və Avropa Parlamentinin AfD-çi deputatlarının sırasından işğal altında olan torpaqlarımıza bir neçə qanunsuz səfər qeydə alınmışdır. Bundan əlavə, Bundestaqın AfD fraksiyasının nümayəndələri 2018-ci ildə Almaniyaya səfər etmiş işğal altında olan ərazilərimizdə yaradılmış qanunsuz rejimin "parlament deputatları" ilə Bundestaqda görüşmüş, eləcə də onları Brandenburq federal torpağının Landtaqına 01.09.2019 tarixində keçirilmiş seçkilərə dəvət etmiş və erməni mətbuatı bunu "Artsax" nümayəndələrinin həmin seçkilərdə müşahidəçi qismində iştirakı kimi təqdim etmişdir (bu cür seçkilərə bir qayda olaraq xarici müşahidəçilər dəvət olunmurlar).

Qeyd edək ki, AfD Almaniyada olduqca mənfi imicə sahibdir. Partiyanın əsas mövzuları, o cümlədən Almaniyanı "islamlaşmaqdan xilas etmək", inteqrasiya olunmayan miqrantları sıxışdırmaq, Avropa İttifaqının səlahiyyətlərini azaltmaqdan ibarətdir. AfD-ni islamafob, antisemitist, irqçi, antidemokratik və "BREXİT partiyası" adlandırırlar və Almaniyanın konstitusion quruluşuna zidd siyasət yürütməkdə ittiham edirlər.

Almaniyada həm federal hökumət, həm də federal torpaqların hökumətlərinin qurulması prosesində AfD ilə koalisiya qurulması və ümumiyyətlə, bu partiya ilə hər hansı formada əməkdaşlıq edilməsi digər bütün siyasi qüvvələr tərəfindən birmənalı olaraq istisna edilir. Bundestaqda hər fraksiya üçün bir vitse-prezident vəzifəsi nəzərdə tutulsa da, 2017-ci ildə seçilmiş Bundestaqın cari çağırışında AfD fraksiyası bu vəzifəyə 4 müxtəlif namizədini plenar iclasda indiyədək keçirilmiş 10 səsvermədə seçdirə bilməmişdir. Almaniyanın əkskəşfiyyat qurumu olan Federal Konstitusiyanı Müdafiə İdarəsi sağçı ekstremist mövqeyinə görə AfD-ni müşahidəyə götürmüşdür. Həmçinin Federal Konstitusiyanın Mühafizəsi İdarəsinin keçmiş direktoru Hans-Qeorq Maassen AfD rəhbərliyi ilə keçirdiyi xidməti görüşlərinə görə ictimai qınaqlara davam gətirməyərək (tabe olduğu federal daxili işlər nazirinin ciddi müqavimətinə baxmayaraq) istefa verməli olmuşdur. Avstriyada video qalmaqalı ilə hökumət böhranı yaratmış FPÖ partiyası ilə AfD-nin sıx tərəfdaşlıq etməsi və sözügedən qalmaqaldan sonra belə FPÖ-yə dəstəyini ifadə etməsi də AfD-nin mənfi imicini şərtləndirən faktlardan biridir.

AfD-çilərin sağçı populist, irqçi, anti-semitist və islamafob qüvvə olmasına dəlalət edən çoxlu sayda fakt məlumdur.

Bundestaqın hazırkı çağırışında 3 komitənin (büdcə, turizm, hüquq) rəhbərliyinə AfD-çi deputatlar gəlsələr də, yaxınlarda Hüquq komitəsinin sədri Ştefan Brandner (Stephan Brandner) özünün antisemitist və sağçı ekstremist çıxışlarına görə komitə üzvləri tərəfindən vəzifədən uzaqlaşdırılmışdır.

Bundestaqın Sosial-Demokratlar (SPD) fraksiyasının nüfuzlu deputatı Yohannes Karsın (eyni zamanda Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədridir) Bundestaqdakı son çıxışlarından birində AfD-çiləri sərt tənqid etməsi AfD fraksiyasının üzvü Bitriks fon Ştorx (Beatrix von Storch) tərəfindən əllə başını kəsmək işarəsi ilə qarşılanmışdır (bu linkdəki videodan izlənilə bilər: https://www.merkur.de/politik/afd-beatrix-von-storch-bundestag-johannes-kahrs-spd-bundestag-debatte-kopf-ab-geste-zr-13255149.html

2019-cu ildə işğal altında olan torpaqlarımıza qanunsuz səfər etmiş Bundestaqın deputatı Ştefan Koyter (Stefan Keuter) Almaniya ictimaiyyətində nasist və anti-semitist şüarlardan həvəslə istifadə etdiyinə görə ad qazanıb (bax: https://vestnikkavkaza.net/analysis/Fascist-disgraced-himself-in-Germany-becomes-honorary-guest-in-NKR.html)

O cümlədən onunla səfər yoldaşı olmuş Brandenburq Landtaqının deputatı Andreas Kalbits (Andreas Kalbitz) AfD-nin sağçı ekstremist qanadını təmsil edir və onun müxtəlif sağçı ekstremist və neonasist təşkilatlarla əməkdaşlıq etdiyi məlumdur https://de.wikipedia.org/wiki/Andreas_Kalbitz

Sağçı milliyyətçi AfD-çilər öz proqramlarını, o cümlədən islamafob çalarlar üzərində qururlar. Onlar müsəlman miqrantları Almaniya və Avropa üçün təhlükə adlandırırlar və bu baxımdan norveçli terrorist Anders Breyviklə eyni fəlsəfəni bölüşürlər. AfD-çilər işğal altındakı torpaqlarımıza qanunsuz səfərlərini, eləcə də işğalçı rejimlə əlaqələrini Dağlıq Qarabağın guya xristian mədəniyyətinin tərkib hissəsi olması ilə əsaslandırmağa çalışırlar. Məsələn, Baden-Vürttemberq Landtaqının üzvü kimi hələ 2017-ci ildə Dağlıq Qarabağa qanunsuz səfər etmiş və hazırda Avropa Parlamentinin deputatı olan Lars Patrik Berq (Lars Patrick Berg) yaxınlarda Ermənistana səfəri zamanı armenpress.am saytına verdiyi müsahibəsində https://armenpress.am/eng/news/996741 Dağlıq Qarabağı "xristianlığın beşiyi" və "xristian inancının qalası" adlandırır.

AfD-çilərin Azərbaycanın işğal altında olan torpaqlarına səfərləri həm də bu partiyanın təmsilçilərinin post-sovet məkanında olan digər münaqişə bölgələrinə həvəslə səfərlər etməsi kontekstində baxılmalıdır.

Maraqlı məqam həm də budur ki, ölkəmizə qarşı qərəzli mövqedə dayanan alman KİV-i belə Ermənistan-AfD əməkdaşlığına tənqidi mövqedən yanaşmış, o cümlədən AfD-çilərin qanunsuz səfərləri barədə Azərbaycanın maraqlarına xidmət edən xəbərlər yaymışlar. Halbuki digər hallarda alman mətbuatı işğal altında olan torpaqlarımıza qanunsuz səfərləri xüsusi şərh etmir və əksinə, belə səfərlərin iştirakçılarının AR-in "arzuolunmaz şəxslər" siyahısına salınmasını "tənqidi əcnəbi səslərin" guya Azərbaycana buraxılmaması cəhdi kimi təqdim etməyə meyil göstərir. Amma AfD-çilərin beynəlxalq hüquqa hörmətsizlik etməsi, başqa ölkələrin qanunlarını pozması və onların ərazi bütövlüyünü şübhə altına alması alman mətbuatı tərəfindən həvəslə qabardılır və tənqid olunur.

AfD-nin yuxarıda qeyd edilən imicini və onun fəaliyyətinin bir qayda olaraq ictimai qınaqla qarşılaşmasını nəzərə alaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin AfD-Ermənistan əməkdaşlığı və AfD-çilərin Azərbaycanın işğal olunmuş torpaqlarına qanunsuz səfərləri kontekstində gündəmə gətirilməsi Azərbaycanın maraqlarına xidmət edən məqam hesab oluna bilər.

***"Azərbaycan"***

# Qəbul edilməsinə Ermənistanın mane olmağa cəhd göstərdiyi qətnamə BMT Baş Assambleyası tərəfindən təsdiq edilib

*Əvvəli 1-ci səh.*

Ermənistan nümayəndə heyəti Xüsusi Komitənin məruzəsindən onun qane etməyən ifadənin çıxarılması və daha sonra üzv dövlətləri artıq Baş Assambleya qətnaməsinin mətninə dəyişikliklər etmək cəhdləri nəticə verməyib.

Müzakirələrin gedişində heç bir ölkə Ermənistanın təklifini dəstəkləməyib, Baş Assambleya tərəfindən qəbul edilmiş qətnamə isə BMT üzvü olan bütün dövlətlər tərəfindən, Ermənistan nümayəndə heyəti istisna olmaqla, təsdiq edilib.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ilin aprel-noyabr aylarında Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalını pisləyən, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün şərait yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Assambleyası beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə edilmiş mövqeyini bir daha təsdiq edən 62/243 nömrəli qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri əsasında müxtəlif ölkələrin qanunverici orqanları və beynəlxalq təşkilatlar işğalçı erməni qüvvələrinin Azərbaycandan çıxarılmasını tələb edən onlarca digər qətnamə qəbul edilib.

# "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148, № 11, maddə 2194, № 12 (I kitab), maddə 2487; 2019, № 4, maddə 580) 15-ci maddəsinin II hissəsinin beşinci abzasına "araşdırılması üçün" sözlərindən sonra "ekspertlərdən və ya" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2019-cu il*

# "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009, № 6, maddə 399, № 11, maddə 878; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 11, maddə 944; 2011, № 2, maddələr 71, 72; 2012, № 11, maddə 1040; 2015, № 10, maddə 1089; 2016, № 6, maddə 984; 2017, № 5, maddə 729, № 7, maddə 1252; 2018, № 3, maddə 398, № 12 (I kitab), maddə 2473; 2019, № 5, maddə 797) 2.1-ci maddəsində "Dövlət məhkəmə ekspertizası" sözləri "Məhkəmə ekspertizası" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2019-cu il*

# Özəl sektora özəl şərait

## Sahibkarlar kapital qoyuluşunda önə çıxırlar

*Əvvəli 1-ci səh.*

Eyni zamanda həmin layihələrin reallaşması nəticəsində 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlığı ixraca yönəlib.

Kapital qoyuluşu sənaye ilə yanaşı, aqrar sektoru da əhatə edir. Məqsəd kənd təsərrüfatını inkişaf etdirərək ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və regionlarda yeni iş yerlərinin yaradılmasına nail olmaqdır. Bu gün ölkədə aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Yaradılması nəzərdə tutulan 51 aqroparkdan 22-si faktiki fəaliyyətdədir. Bu ilin sonunadək daha 11 aqroparkın fəaliyyətə başlaması proqnozlaşdırılır.

İnvestisiyaların təşviqi sahəsində görülən işlər regionların inkişafına da müsbət təsir göstərir. Artıq bölgələrdə 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub.

Prezident İlham Əliyev ölkə iqtisadiyyatına investisiya qoyuluşunu beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirildiyini bildirərək demişdir: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir".

Sözügedən sahə üzrə son statistikaya nəzər salaq: cari ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyard 407,4 milyon manat investisiya qoyulub. Bu dövrdə neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi azalsa da, qeyri-neft sektoruna yatırılan sərmayə 6,8 faiz artıb. Ümumi sərmayənin 48,9 faizi dövlət, 51,1 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Göründüyü kimi, özəl sektor kapital qoyuluşunda dövlət sektorunu üstələyir. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyərinin ümumi sərmayənin 71,1 faizini təşkil etməsi bunu bir daha təsdiqləyir.

Hesabat dövründə əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 6 milyard 434,4 milyon, bank kreditləri 886,1 milyon, büdcə vəsaitləri 3 milyard 109,2 milyon, büdcədənkənar fondların vəsaitləri 166,9 milyon, əhalinin şəxsi vəsaitləri 774,5 milyon, digər vəsaitlər 36,3 milyon manat təşkil edib.

Cari ilin 10 ayı ərzində xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 3 milyard 298,8 milyon manat vəsait yönəldilib. Həmin vəsaitin 2 milyard 738,3 milyon manatı Birləşmiş Krallıq, Türkiyə, ABŞ, İsveçrə, Yaponiya, Malayziya, Rusiya, İran, Norveç və Fransa sərmayədarlarına məxsusdur.

Bu ilin yanvar-oktyabr aylarında ölkə ərazisində kapital qoyuluşu sayəsində yüzlərlə yeni müəssisələr fəaliyyətə başlayıb. Onların sırasında sənaye, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə, təhsil, idman və digər yönlü obyektlər var. Bu da ölkənin hərtərəfli inkişafı ilə bağlı dövlətin həyata keçirdiyi siyasətin nəticəsidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Bələdiyyə seçkiləri ilə əlaqədar veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirilib



Qarşıdan gələn 23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dekabrın 19-da komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçiriblər.

Mərkəzi Seçki Komissiyası katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, seçkilərdə şəffaflığın təmin edilməsində xüsusilə mühüm əhəmiyyət kəsb edən veb-kameraların quraşdırılması istiqamətində son hazırlıq işləri ilə tanış olan MSK sədri və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri prosesin seçki qanunvericiliyinin tələblərinə uyğun dəqiqliklə yerinə yetirilməsi üçün öz tövsiyələrini veriblər.

Qeyd etmək lazımdır ki, dekabrın 23-də bələdiyyə seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi məqsədilə bütün zəruri addımlar atılıb. Yerli və beynəlxalq müşahidəçilər, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər aşkarlıq institutlarının seçki prosesi boyunca azad və sərbəst fəaliyyət göstərmələri üçün hərtərəfli şərait yaradılıb. Seçkilərdə bütün digər vasitələrlə yanaşı, ən son innovativ nailiyyətlərdən səmərəli istifadə olunması səsvermə günü prosesləri əvvəldən-axıradək fasiləsiz izləməyə, arasıkəsilmədən müşahidə aparmağa və şəffaflığın daha geniş miqyasda təmin edilməsinə imkan verir.

Azərbaycanın seçki təcrübəsində 11 ildir uğurla tətbiq edilən və səsvermə günü seçki məntəqələrində prosesləri internet vasitəsilə hər kəs üçün açıq platformada canlı nümayiş etdirən veb-kameralardan bu il keçiriləcək bələdiyyə seçkilərində də istifadə olunması nəzərdə tutulub. Seçki məntəqələrində səsvermə günü proseslərinin birbaşa izlənilməsi üçün bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində (bələdiyyə seçkiləri keçirilən məntəqələrin təqribən 20 faizində) quraşdırılan veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin olunması üçün kameraların tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi daim diqqətə saxlanılır. Veb-kameralar seçki günü internet istifadəçilərinə istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini fasiləsiz müşahidə imkanı yaradacaq.

## Mərkəzi Seçki Komissiyasının elanı



2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən kütləvi informasiya vasitələrində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:

- *İctimai Televiziya və Radio Yayımları Şirkəti;*
- *"Azərbaycan" qəzeti;*
- *"Xalq qəzeti";*
- *"Bakinski raboçi" qəzeti.*

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

## Azərbaycanın Seçki Məcəlləsi azad, ədalətli və şəffaf seçkilərin keçirilməsinə tam imkan verir

Dekabrın 19-da Milli Məclisdə parlament seçkiləri ilə əlaqədar ölkəmizə səfərə gəlmiş ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Ehtiyacların Qiymətləndirilməsi missiyasının (EQM) Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri ilə görüşü olub.

AZƏRTAC-ın məlumatına görə, komitənin sədri Əli Hüseynli qonaqlara məlumat verib ki, əksər deputatlar Milli Məclisin buraxılması və seçkilərin təyin edilməsi ilə bağlı Azərbaycan Prezidentinə müraciət ediblər. Parlamentin müvafiq qərarının Azərbaycan Konstitusiyasına uyğunluğu Konstitusiya Məhkəməsində yoxlanılıb. Daha sonra ölkə Prezidenti Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 4 dekabr tarixli qərarını nəzərə alaraq, beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və parlamentə seçkilərin 2020-ci il fevralın 9-na təyin olunması barədə sərəncam imzalayıb.

Əli Hüseynli ATƏT Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) ilə əməkdaşlıq əlaqələrimizdən söz açıb, bu gün Azərbaycanda professional seçki administrasiyasının mövcud olduğunu diqqətə çatdırıb. O, EQM təmsilçilərinin nəzərinə çatdırıb ki, hazırkı Seçki Məcəlləsi ölkədə azad, ədalətli və şəffaf seçkilər keçirilməsinə tam imkan verir.

Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun baş seçki eksperti Aleksey Qromov Bakıya səfərin məramını açıqladıqdan sonra Milli Məclisin komitə sədri Əli Hüseynli və komitənin üzvü, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev seçki prosesi və qanunvericiliklə bağlı qonaqları maraqlandıran bütün suallara aydınlıq gətiriblər.

Görüşdə DTİHB-in seçki eksperti Radivoje Qrujiç, ATƏT PA-nın proqram və inzibati məsələlər üzrə məsul əməkdaşı Tim Knobjau iştirak ediblər.

## Bütün seçki hərəkətləri mərhələli şəkildə icra edilir

### Səsvermə prosesi, səslərin sayılması, nəticələrin və yekunların müəyyən olunaraq ictimailəşdirilməsi

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 98-ci maddəsinə görə, müvafiq icra hakimiyyəti orqanları və ya bələdiyyələr seçkilər günü səsvermənin həyata keçirilməsi məqsədilə məntəqə seçki komissiyalarına əvəzsiz olaraq səsvermə otağı ayırmalı, səsvermə otağı daşınan və daşınmaz səsvermə qutuları, səsvermə kabinələri, məlumat lövhələri, gözəgörünməyən mürəkkəblə dolu qablar, ultrabənövşəyi lampalar, stol, stul, yazı ləvazimatları, gizli səsvermə üçün lazım olan digər zəruri əşyalarla təmin olunmalıdır.

Səsvermə otağında daimi seçici siyahısı, namizədlər haqqında məlumat (namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı, nömrəsi, namizədin yaşadığı başqa dövlətdə Cinayət Məcəlləsində cinayət sayılan əməli olmuş və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışsa, xarici dövlətin müvafiq qanununun adı göstərilməklə), seçki bülletenlərinin doldurulması qaydası haqqında izah və seçki bülletenlərinin nümunələri müvafiq qaydada müəyyən edilmiş məlumat lövhəsində asılır. Məlumat lövhəsində olan materialların seçicilər tərəfindən tam və sərbəst oxunması üçün o, hamının görə biləcəyi yerdə yerləşdirilməlidir.

Səsvermə prosesində aşkarlığın təmin edilməsi məqsədilə səsvermə otağı elə təşkil edilməlidir ki, seçicilərin barmaqlarının yoxlanılması, seçici siyahısında adının axtarılması, seçki bülletenlərinin verilməsi, barmağın mürəkkəblənməsi, səsvermə kabinələri və qutuları məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər tərəfindən sərbəst görünsün.

Səsvermə günü məntəqə seçki komissiyaları tərəfindən səsvermənin başlanmasınadək olan müddətdə (saat 08:00-dək) bir sıra hərəkətlərin icra edilməsi zəruridir. Məntəqə seçki komissiyasının sədri tərəfindən komissiya üzvləri arasında vəzifə bölgüsü aparılmalı, seçki materialları və avadanlıqları hazırlanmalı, səsvermənin başlanmasına 24 saat qalmış təşviqat materialları (seçicilərin maariflənməsi üçün nəzərdə tutulmuş materiallar istisna olmaqla) seçki məntəqəsindən çıxarılmalı, seçki bülletenləri sayılmalı və möhürlənməli, əgər istifadə edilməmiş qeydiyyatdan çıxma vəsiqələri varsa, onlar ləğv edilməli və bu barədə akt tərtib edilməli, səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələri məlumat lövhəsindən asılmalıdır.

Səsvermə günü saat 07:50-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib onları kilidləyir, saat 08:00-da səsvermənin başlandığını elan edir.

Səsvermə günü seçici səhhətinə və ya digər üzrlü səbəblərə görə seçki məntəqəsinə gələ bilməyəcəyini yəqin edərsə, o, seçkilər gününə azı 24 saat qalmış səsvermə otağından kənarda səs vermək istəyini məntəqə seçki komissiyasına yazılı və ya şifahi şəkildə, bilavasitə özü və ya digər şəxs vasitəsilə bildirə bilər. Bu istək şifahi şəkildə bildirilibsə, o, səsvermə zamanı müvafiq ərizə ilə rəsmiləşdirilməlidir. Bu halda məntəqə seçki komissiyası həmin vətəndaşın səsvermədə iştirakını təmin etmək üçün onun yaşadığı ünvana müvafiq qaydalara uyğun olaraq daşınan seçki qutusu göndərməlidir.

Müəyyənləşdirilmiş vəzifə bölgüsünə uyğun olaraq məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların şəxsiyyət vəsiqəsini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə əvvəl işarələnib-işarələnmədiyini ultrabənövşəyi lampadan istifadə etməklə yoxlamalı və sonra səsvermə otağına daxil olmağa icazə verilməlidir. Əgər seçici yeni nəsil şəxsiyyət vəsiqəsi ilə səs verirsə, onda şəxsiyyət vəsiqəsi çip-oxuyan qurğudan istifadə etməklə oxunur və orada göstərilən vətəndaşın yaşadığı ünvanla onun seçicilər siyahısındakı yaşayış yerinin ünvanının uyğunluğu yoxlanılır. Onu da qeyd edək ki, hazırkı bələdiyyə seçkilərində ilk dəfə yeni nəsil şəxsiyyət vəsiqələrindəki məlumatları oxumaq üçün ölkə üzrə bələdiyyə seçkiləri keçirilən bütün məntəqə seçki komissiyaları 2 ədəd çip-oxuyan qurğu ilə təmin ediliblər. Məntəqəyə daxil olmuş seçicinin adının seçicilərin daimi siyahısında olduğu yoxlanıldıqdan sonra ona səs vermək üçün seçki bülleteni verilir.

Səsverməyə gələn seçici seçki bülleteni almaq üçün komissiya üzvünə şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən digər sənədi təqdim etməlidir. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular zabitin şəxsi vəsiqəsi, hərbi bilet, istintaq təcridxanalarında saxlanılan şəxslər təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd, azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər məhkumun şəxsiyyətini təsdiq edən sənəd, Azərbaycan Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan vətəndaşlığı olmayan şəxslər icazə vəsiqəsi, vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi, bələdiyyənin ərazisində 5 ildən artıq yaşayan xarici ölkə vətəndaşları isə (səs vermək hüququ varsa) icazə vəsiqəsi əsasında səs verirlər. Həmin sənədlər təqdim edildikdən sonra məntəqə seçki komissiyasının üzvü tərəfindən sənədlərin seriya və nömrəsi seçicilər siyahısında qeyd edilir.

Seçki komissiyasının üzvü tərəfindən seçki bülleteninin nömrələnmiş sol küncü müəyyən edilmiş hissədən kəsilərək seçiciyə təqdim edilir. Bundan sonra seçici səsvermə kabinəsinə daxil olur və seçki bülletenini doldurduqdan sonra onu səsvermə üçün nəzərdə tutulmuş seçki qutusuna salaraq məntəqəni tərk edir. Seçici tərəfindən seçki bülleteni korlanarsa, o, yenidən bülleten almaq üçün ərizə ilə



məntəqə seçki komissiyasına müraciət edə bilər. Bu halda korlanmış bülleten ortadan kəsilərək ləğv edilir, akt tərtib olunur, seçiciyə yeni bülleten verilir və seçicilər siyahısında seçicinin soyadından sağda bu barədə müvafiq qeyd aparılır.

Səslərin sayılması prosesi səsvermə günündə həyata keçirilən əsas həlledici seçki hərəkətlərindəndir. Səsvermə başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədri səsvermənin başa çatmasını, yalnız seçki bülleteni almış və səsvermə otağında olan seçicilərin səs verə biləcəyini ucadan elan edir. Seçki məntəqəsində olan seçicilərin səs verməsi başa çatdıqdan sonra istifadə edilməmiş seçki bülletenləri səsvermə otağındakı qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərin, müşahidəçilərin, KİV nümayəndələrinin müşahidəsi ilə məntəqə seçki komissiyasının üzvləri tərəfindən sayılır və onların ləğv edilməsinə dair akt tərtib edilir. Seçki məntəqəsi üzrə səsvermənin nəticələri yuxarıda qeyd edilən şəxslərin müşahidəsi altında Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş formaya uyğun olan və hər bir nüsxəsi müxtəlif rəngdə olmaqla 3 nüsxədən ibarət karbonlaşdırılmış kağızdan buklet formasında hazırlanmış protokolda komissiyanın həlledici səs hüquqlu üzvü tərəfindən əlyazısı qaydasında qeyd olunur. Məntəqə üzrə seçici siyahılarında olan seçicilərin, qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin, dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilmiş seçki bülletenlərinin, seçki bülleteni almış seçicilərin, istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin və korlanmış seçki bülletenlərinin sayı yekun protokolunda seçki qutuları açılmazdan əvvəl yazılır. Bundan sonra məntəqə seçki komissiyasının sədri seçki qutularının möhür və plomblarının salamatlığını yoxlayır, məntəqə seçki komissiyasının üzvlərini və müşahidəçiləri bununla əyani surətdə tanış edərək seçki qutularını açır.

Əvvəlcə daşınan seçki qutusu açılır və bülletenlər sayılır. Daşınan seçki qutusunda olan bülletenlərin sayı kənarda səs verilməsi üçün seçicilərin verdikləri ərizələrin sayından çox olmamalıdır. Daşınan seçki qutusu üzrə səslər hesablanarkən, bülletenlərin ümumi sayı verilmiş ərizələrin sayından (bülleten alan seçicilərin ümumi sayından) çox olarsa, oradakı bütün səslər məntəqə seçki komissiyasının qərarı ilə etibarsız hesab edilir.

Səslər sayıldıqda, seçki qutularından yalnız Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyənləşdirilmiş formada (nömrələnmiş, yuxarı sol küncü kəsilmiş, yuxarı sağ küncü məntəqə seçki komissiyasının möhürü ilə möhürlənmiş) çıxan seçki bülletenlərində olan səslər hesablanılır. Seçki qutularından müəyyənləşdirilmiş formada olmayan seçki bülletenləri çıxdıqda, həmin bülletenlər sayılaraq məntəqə seçki komissiyası tərəfindən aktlaşdırılır.

Seçki qutusundan çıxmış seçki bülletenində namizədlərin soyadlarından sağdakı kvadratlarda heç bir işarə qoyulmamışdırsa və ya seçiləcək bələdiyyə üzvlərinin sayından çox işarə qoyulmuşdursa, həmin bülleten etibarsız hesab edilir. Bundan başqa, seçki bülletenində səsin etibarlığına şübhə yaranarsa, məntəqə seçki komissiyası məsələni səsvermə yolu ilə həll edir. Əgər səsin etibarsız sayılması haqqında qərar qəbul edilərsə, bülletenin arxa tərəfində onun etibarsız sayılmasının səbəbləri qeyd edilir və bu hal MnSK sədrinin və katiblərinin imzası ilə təsdiq edilir. Etibarsız və etibarlı hesab edilmiş seçki bülletenlərinin sayı, eləcə də etibarlı hesab edilmiş seçki bülletenlərindəki səslərin sayı məntəqə seçki komissiyasının yekun protokolunun müvafiq bəndlərində göstərilir.

Yuxarıda qeyd edilənlər icra edildikdən sonra etibarlı hesab olunan səslərin sayı (hər bir namizədin lehinə verilmiş səslər) bələdiyyə üzvlüyünə namizədlər arasında bölünür və yekun protokolunda seçki bülleteninə daxil edilmiş namizədlərin siyahısına uyğun olaraq tərtib edilmiş cədvəldə hər bir namizədin qarşısında göstərilməklə qeyd edilir.

Məntəqə seçki komissiyasının yekun protokolunun birinci nüsxəsi, səsvermə günü məntəqə seçki komissiyasına daxil olmuş şikayətlər, həmin şikayətlərə baxılması barədə komissiyanın qərarları, məntəqə seçki komissiyası tərəfindən seçki bülletenlərinin alınmasına dair akt, istifadə edilməmiş seçki bülletenlərinin ləğv edilməsi barədə akt, seçki bülletenlərinin kəsilmiş sol künclərinin sayına dair akt, korlanmış seçki bülletenlərinin sayı barədə akt, seçki bülletenləri və məntəqə üzrə seçicilərin siyahısı əlavə edilməklə dərhal, lakin 24 saatdan gec olmayaraq məntəqə seçki komissiyası sədrinin və müxtəlif siyasi partiyaları təmsil edən iki üzvün və müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına göndərilir. Yuxarıda sadalanan sənədlərin surətləri əlavə edilməklə protokolun ikinci nüsxəsi məntəqə seçki komissiyasının katibində saxlanılır, protokolun üçüncü nüsxəsi tərtib edildikdən sonra məlumat lövhəsində asılaraq 5 gün orada saxlanılır.

Səsvermə günü məntəqə seçki komissiyasına daxil olmuş müraciət və şikayətlərə Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Məntəqə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada baxılır.

Səsvermə günündən ən geci 2 gün keçənədək dairə seçki komissiyası çoxmandatlı seçki dairəsi üzrə məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında seçkilərin yekunlarını müəyyən edir. Səsvermənin nəticələri haqqında DSK-nın yekun protokolunda ilkin olaraq bələdiyyə üzrə məntəqə seçki komissiyalarının sayı, məntəqə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı, dairə seçki komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş məntəqə seçki komissiyaları protokollarının sayı, səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı və səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı göstərilir. Bundan sonra protokol müvafiq bəndlər üzrə - bələdiyyə üzrə seçici siyahılarında olan seçicilərin, qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin, dairə seçki komissiyasından bələdiyyə üzrə məntəqə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin, seçki bülleteni almış seçicilərin, istifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin, korlanmış seçki bülletenlərinin, seçki qutularında olan seçki bülletenlərinin, etibarsız hesab edilmiş seçki bülletenlərinin, etibarlı hesab edilmiş seçki bülletenlərinin və etibarlı hesab edilmiş səslərin sayı, o cümlədən etibarlı hesab edilmiş səslərin bələdiyyə üzvlüyünə namizədlər arasında bölünməsi, bələdiyyə üzvü seçilmiş namizədlərin adı göstərilməklə tam və dəqiq doldurulur.

Dairə seçki komissiyası protokolunun birinci nüsxəsi, Seçki Məcəlləsində nəzərdə tutulmuş sənədlər əlavə edilməklə, lakin səsvermə günündən iki gündən gec olmayaraq, dairə seçki komissiyası sədrinin və müxtəlif siyasi partiyaları təmsil edən üzvlərin müşayiəti ilə Mərkəzi Seçki Komissiyasına göndərilir, ikinci nüsxəsi dairə seçki komissiyasının katibində saxlanılır, üçüncü nüsxə və müvafiq məntəqə seçki komissiyalarının protokollarının surətləri məlumat lövhəsində asılır və 10 gün saxlanılır.

Seçki prosesinin sonuncu mərhələsi seçkilərin nəticələrinin və yekunlarının müəyyən olunaraq ictimailəşdirilməsidir. Seçkilərin ilkin nəticələri dairə seçki komissiyasının səsvermənin nəticələrinə dair protokolları Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra komissiya tərəfindən seçki dairələri üzrə səsvermənin nəticələrini ümumiləşdirən cədvəl şəklində dərc edilir və həmin məlumatlar komissiyanın internet səhifəsində yerləşdirilir. Səsvermə günündən başlayaraq ən geci 20 gün müddətində Mərkəzi Seçki Komissiyası tərəfindən Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq seçkilərin ümumi yekunları haqqında protokol tərtib edilir. Mərkəzi Seçki Komissiyası 45 gün müddətində Seçki Məcəlləsində göstərilən kütləvi informasiya vasitələrində dairə seçki komissiyalarının protokollarında olan məlumatları tam şəkildə dərc edir.

***İlkin ŞAHBAZOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

## Hazırlıq işləri müzakirə olunub

Naxçıvan Muxtar Respublikasında məntəqə seçki komissiyalarının sədr və katibləri üçün seminar-treninq keçirilib. Seminarda çıxış edən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar görülən işlərdən danışıb.

O bildirib ki, ölkəmizdə keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən geniş istifadə edilir. Bu da seçki prosesini izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Səsvermə günü istənilən internet istifadəçisi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi saytına daxil olmaqla, səsvermənin gedişini canlı izləyə bilər. Ümumiyyətlə, seçki məntəqələrində veb-kameraların quraşdırılması Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair Qaydalar"a uyğun təşkil olunub və keçirilən seçkilərdə aşkarlıq institutunun daha geniş təmin edilməsi məsələlərini əhatə edir.

Sonra muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının sədrləri rəhbərlik etdikləri seçki dairələri üzrə seçki məntəqələrinin və seçicilərin sayı, mülki və qapalı seçki məntəqələrində səs verəcək hərbi qulluqçular barədə məlumat veriblər.

Mərkəzi Seçki Komissiyasının əməkdaşı Elşən Heydərli səsvermə prosesi, seçkinin demokratik və şəffaf keçirilməsi ilə bağlı məntəqə seçki komissiyası üzvlərinin və seçicilərin üzərlərinə düşən vəzifələr haqqında məlumat verib, səsvermə başa çatdıqdan sonra nəticələrin məntəqə seçki komissiyası üzvləri tərəfindən müşahidəçilərin iştirakı ilə hesablanması qaydalarından danışıb.

5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasının əməkdaşı Asim Quliyev bildirib ki, səsvermənin nəticələrini əks etdirən protokol dövlət sənədidir. Protokolu tərtib edərkən son dərəcə diqqətli olmaq vacibdir. Daha sonra məntəqə seçki komissiyası protokolunun doldurulması qaydaları slaydlarla ətraflı izah edilib, suallar cavablandırılıb.

# Azərbaycan Yazıçılar Birliyinin 85 illiyi təntənəli şəkildə qeyd olunub

Dekabrın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Azərbaycan Yazıçılar Birliyinin (AYB) 85 illiyi təntənəli şəkildə qeyd olunub.

AZƏRTAC xəbər verir ki, mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, AYB-nin üzvləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Azərbaycan Yazıçılar Birliyinin fəaliyyətinə həsr olunmuş sənədli filmə baxıblar.








Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Azərbaycan Yazıçılar Birliyinin 85 illik yubileyi münasibətilə təbrik məktubunu oxuyub. (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək rəhbəri olduğu qurumun fəaliyyətini yüksək qiymətləndirdiyi üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Ötən ilin dekabr ayında dövlət başçısının qəbulunda olduğunu və bir neçə xahiş etdiyini söyləyən Azərbaycan Yazıçılar Birliyinin sədri vurğulayıb ki, Prezident bu xahişlərin hər birinə müsbət cavab verib.

"Bu ilin may ayında Azərbaycan Yazıçılar Birliyinin üzvü olan üç şairə Xalq şairi, üç yazıçıya Xalq yazıçısı, üç yazıçıya isə Əməkdar incəsənət xadimi fəxri adları verildi. Bilirsiniz ki, Qarabağ münaqişəsi başlananda məcburi köçkünləri Şüvəlandakı Yaradıcılıq Evinə yerləşdirmişdik. Yaradıcılıq Evi Yazıçılar Birliyinin Ədəbiyyat Fondunun hesabına tikilmişdi. Sonrakı illərdə qaçqınlar üçün şəhərciklər salınsa da, Yaradıcılıq Evinin təmirə ehtiyacı var idi. Bunu dövlət başçısının diqqətinə çatdırdım, bundan sonra binanın təmirini dövlət öz üzərinə götürdü. Doqquz il əvvəl mən yazıçılar üçün ev tikilməsi barədə müraciət etsəm də, müəyyən səbəblərdən həll edilməmişdi. Bunu da Prezidentə dedim, bu da öz həllini tapdı. Nəhayət, Şabranda yaradıcı insanlar üçün şəhərcik salınmasını da ölkə başçısından xahiş etdim. Bu da müsbət həll olundu. Artıq orada tikinti işləri aparılır", - deyə Xalq yazıçısı Anar qeyd edib.

Yazıçılara göstərilən dövlət qayğısından söz açan Yazıçılar Birliyinin rəhbəri deyib: "Sovet İttifaqının süqutundan sonra əksər ölkələrdəki yazıçılar birlikləri dağıldı. Bizdə isə Ulu Öndər Heydər Əliyev yazıçıları himayəsinə götürdüyü üçün Yazıçılar Birliyi yaşadı. Güman edirəm ki, 85 il yaşamışıqsa, şərəflə yaşamışıq. Tariximizdə qara səhifələr də, faciəvi illər də olub. Bütün bunlara baxmayaraq, Yazıçılar Birliyi Azərbaycan dilini, ədəbiyyatını, mənəviyyatını qoruyub, yazıçıların müqəddəs ocağı kimi fəaliyyət göstərib, bundan sonra da göstərəcək".

Xalq yazıçısı vurğulayıb ki, ölkəmizin dövlət müstəqilliyinin bərpasından sonra Yazıçılar Birliyi milli ədəbiyyatın, ana dilinin qorunub yaşadılmasında, azərbaycançılıq ideologiyasının formalaşmasında böyük xidmətlər göstərib. Təşkilat bu illər ərzində həmişə xalqımızın mədəniyyət tarixini və mənəvi sərvətlər xəzinəsini bədii-estetik düşüncənin bir çox qiymətli nümunələri ilə zənginləşdirib.

Tədbir bədii hissə ilə davam edib.

Gecədə Xalq şairləri Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə, Vahid Əziz, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi şeirlərini söyləyiblər.

Yubiley tədbiri konsert proqramı ilə başa çatıb.

# Şəki şəhərində 960 şagird yerlik yeni məktəb binası istifadəyə verilib

Prezident İlham Əliyevin 2018-ci il oktyabrın 29-da imzaladığı sərəncama əsasən Şəki şəhərindəki 11 saylı tam orta məktəb üçün inşa edilən 960 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatıb. Məktəb dekabrın 19-da şagirdlərin istifadəsinə verilib.

Bu münasibətlə keçirilən mərasimdə Təhsil naziri Ceyhun Bayramov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, şəhər təhsil şöbəsinin müdiri Südabər İsmayılova, ziyalılar, ictimaiyyət nümayəndələri və məktəbin kollektivi iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, məktəbin açılışını bildirən rəmzi qırmızı lent kəsildikdən sonra nazir və mərasim iştirakçıları yeni məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Qeyd edək ki, məktəb əvvəllər 1926-cı ildə istifadəyə verilmiş binada fəaliyyət göstərib. 1923-cü ildə həmin məktəb binasının təməlinin qoyulmasında görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov da iştirak edib. Məktəb binası uzun illər istismarda olduğundan son illər yarasız vəziyyətə düşmüşdü.

Dövlət başçısının sərəncamına əsasən inşa edilən dördmərtəbəli və beş korpusdan ibarət yeni məktəb binasında 58 otaq, o cümlədən 38 sinif otağı, 12 fənn kabineti, fizika, kimya və biologiya laboratoriyaları, məktəbəqədər, hərbi hazırlıq, linqafon, informatika otaqları, kitabxana və oxu zalı, yeməkxana, akt və idman zalları yerləşir. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb.

Qabaqcıl təhsil ənənələri ilə seçilən Şəki şəhər 11 saylı tam orta məktəb 2 dəfə "Ən yaxşı ümumtəhsil məktəbi" respublika müsabiqəsinin qalibi adını qazanıb.

Hazırda məktəbdə 930 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 121 müəllim məşğul olur. Məktəbdə təşkil edilən 4 məktəbəhazırlıq qrupunda isə 85 uşaq oxuyur. 2018-2019-cu tədris ilində məktəbi bitirən 49 məzundan 38-i ali məktəblərə qəbul olunub.

Məktəblə tanışlıqdan sonra Təhsil naziri Ceyhun Bayramov məktəbin akt zalında gənc müəllimlərlə görüşüb.

Təhsil naziri hər bir şəxsin formalaşmasında, təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin mühüm rolundan danışıb.

Ceyhun Bayramov son illər dövlət başçısının rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən islahatlardan danışıb, müəllimlərin əməkhaqqının artırılması və peşə nüfuzunun qaldırılması ilə bağlı görülən tədbirlərin müsbət nəticələrini diqqətə çatdırıb. Müəllim peşəsinə marağın artdığını vurğulayan nazir bildirib ki, 5 il əvvəl müəllimlərin mərkəzləşdirilmiş işə qəbulu imtahanlarında iştirak üçün 12 min nəfər qeydiyyatdan keçirdisə, cari ildə bu göstərici 50 minə çatıb. Ali təhsil müəssisələrinə qəbulda yüksək nəticə göstərənlərin arasında hər 4 nəfərdən biri müəllim ixtisasını seçib.

Müəllimlərin peşə keyfiyyətindən söz açan Təhsil naziri vurğulayıb ki, yaxşı müəllim təkcə ixtisasını mükəmməl bilən deyil. Müəllimin şagirdə münasibəti də əsas amildir. Müəllim şagirdlə düzgün münasibət qurmağı bacarmalı, onların formalaşmasında səriştə və peşəkarlıq nümayiş etdirməlidir.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının fəaliyyətini yüksək qiymətləndirən Təhsil naziri bu qurumun müəllimləri daha məhsuldar və səmərəli işləməyə həvəsləndirdiyini bildirib.

Görüşün sonunda gənc müəllimləri maraqlandıran suallar cavablandırılıb.

# "Olimpiya Hərəkatı-2019" proqramının üçüncü mövsümünə yekun vurulub

Dekabrın 19-da "Olimpiya Hərəkatı" proqramı çərçivəsində təşkil edilən Bakı birinciliyinin final mərhələsi keçirilib.

AZƏRTAC xəbər verir ki, bununla da Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK), Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin ümumdünya tərəfdaşı olan "Coca-Cola" şirkətinin birgə təşkilatçılığı ilə 2015-ci ildən həyata keçirilən proqramın üçüncüsünə də yekun vurulub.



"Olimpiya hərəkatı" proqramına daxil olan badminton, həndbol və velosiped yarışlarına Bakının 12 rayonundakı 291 məktəbdən ümumilikdə 13 mindən çox şagird qoşulub. Noyabrdan məktəbdaxili yarışlarla start götürən layihənin final mərhələsində hər rayonda birinci yeri tutan komandalar mübarizə aparıblar.

Proqramın yekun tədbirində MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Ağacan Abıyev, baş katibin müavini Azər Əliyev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Velosiped İdman Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov, Olimpiya çempionları və digər qonaqlar iştirak ediblər.

Tədbirdə əvvəlcə həndbol üzrə yarışların final qarşılaşması keçirilib. Beləliklə, "Olimpiya Hərəkatı" proqramının həndbol yarışlarında 183, 12 və 80 saylı orta məktəblərin şagirdləri ilk üç pillədə qərarlaşıblar. Badminton yarışlarında 286, 260 və 276 nömrəli orta məktəblərin komandaları fərqləniblər. Velosiped yarışlarında isə ilk üç yeri müvafiq olaraq 308, 29 və 111 nömrəli məktəblərin təmsilçiləri tutublar.

Sonda qaliblər mükafatlandırılıblar.

Məktəblilərin "Olimpiya Hərəkatı" idman proqramının əsası 2003-cü ildə "Coca-Cola" və Beynəlxalq Olimpiya Komitəsi tərəfindən qoyulub. "Olimpiya Hərəkatı" proqramı məktəblilərin daha fəal və sağlam həyat tərzinə cəlb olunmasına yardım edir və Azərbaycanda idmanın inkişafına töhfə verir. Proqram "Bakı 2015" ilk Avropa Oyunlarının idman irsini davam etdirməklə Olimpiya idman komplekslərindən, o cümlədən idman bazalarından səmərəli istifadə üçün fəaliyyətin təşkili məqsədini daşıyır.

# DTX Ağstafa və Yevlaxda qanunsuz əməllərlə əlaqədar görülmüş kompleks araşdırma tədbirləri barədə məlumat yayıb

Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərə yol verilməsinə dair məlumatlar əsasında kompleks araşdırma tədbirləri həyata keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, toplanılan materiallara əsasən, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevin müntəzəm olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə dair əsaslı şübhələr yaranıb. Belə ki, Nizaməddin Quliyevin rayon icra hakimiyyəti başçısının müavini Ramiz Tatarovun vasitəsilə 2019-cu ilin may ayından etibarən yerli icra hakimiyyəti və digər yerli dövlət orqanlarının vəzifəli şəxslərindən müxtəlif adlar altında pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən olunub. Nizaməddin Quliyevin müavini Ramiz Tatarov vasitəsilə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən rüşvət tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib. Bununla yanaşı, Nizaməddin Quliyevin səhiyyə, təhsil və digər yerli dövlət təsisatları rəhbərlərindən büdcə vəsaitləri hesabına yerli dövlət orqanlarının saxlanılması xərclərinə ayrılan vəsaitlərin müəyyən hissəsinin nağdlaşdırılaraq ona təqdim olunmasını tələb etməsi və alması, ictimai işlərə cəlb olunan aztəminatlı şəxslərə ayrılan əməkhaqqı kartlarını ələ keçirib mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib. Nizaməddin Quliyev və müavini Ramiz Tatarovun xidməti otaqlarında keçirilən baxış zamanı müxtəlif vəzifəli şəxslərdən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin öz əlyazmaları ilə tərtib olunmuş siyahıları, pul vəsaitləri, sənədlər, iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər götürülüb.

Bundan başqa, həyata keçirilən digər tədbirlər nəticəsində 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, dövlət qayğısı olaraq işsiz vətəndaşların ictimai işlərə cəlb edilib aylıq qazanc əldə edə bilmələri üçün dövlət büdcəsi hesabına ayrılan külli miqdarda əməkhaqları ələ keçirilib, o cümlədən Yevlax şəhərində "Yaşıllaşdırma və işıqlandırma müəssisəsi"nin fəaliyyətinə və digər abadlıq, təmir-tikinti işlərinə cəlb edildiyi rəsmiləşdirilən 133 nəfər heç bir işə cəlb edilmədən və əməkhaqqı almadan, adlarına açılmış əməkhaqqı kartları Qoca Səmədovun tabeçiliyində fəaliyyət göstərən şəxslər tərəfindən ətraf rayonlardakı bankomatlarda nağdlaşdırılaraq Qoca Səmədova şəxsən təqdim edilməklə 236.000 manat dövlət vəsaiti mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib. Habelə, 2017-2019-cu illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Yevlax şəhərində abadlıq, təmir-tikinti işlərini həyata keçirmək adı ilə müxtəlif şirkətlərin hesablarına köçürülmüş 616.000 manat vəsait heç bir iş görülmədən Qoca Səmədovun tapşırığı ilə şirkət rəhbərləri tərəfindən nağdlaşdırılaraq ona şəxsən qaytarılmaqla təkrarən mənimsənilmişdir. Şəhər icra hakimiyyəti və əlaqəli strukturlarda çalışan işçilərin əməkhaqqından təsis etdiyi Şəhid ailələrinə və müharibə əlillərinə yardım Fonduna könüllü ödəmə adı altında hər ay faiz tutulmuş, yığılan pulun hər ay 8.000 manatadək olan əsas hissəsi Qoca Səmədova şəxsən təqdim edilib. Qoca Səmədov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək icra hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin baş memarı Xalid Əhmədovun vasitəçiliyi ilə vətəndaşlar tərəfindən müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə 44 fiziki və hüquqi şəxsdən müxtəlif məbləğlərdə külli miqdarda təkrarən rüşvət tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib. Nizaməddin Quliyev, Qoca Səmədov və başqaları vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə və digər faktlara görə Dövlət Təhlükəsizliyi Xidmətində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işləri üzrə şübhəli şəxs qismində saxlanılıblar. Hazırda iş üzrə cinayətin digər iştirakçılarının müəyyənləşdirilərək istintaqa cəlb olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Multikulturalizmin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu

Azərbaycanda daim multikulturalizm, mədəniyyətlərarası dialoq və tolerant mühit hökm sürüb. Ümumiyyətlə, dünyada özlərinə məxsus milli-mənəvi dəyərləri yaşadan və onu göz bəbəyi kimi qoruyub, gələcək nəsillərə ötürə bilən xalqlar ən yüksək hörmətə layiqdirlər. Azərbaycan müxtəlif dövrlərdə yadellilərin işğalçı yürüşlərinə məruz qalsa da, bu vətənin övladları hər zaman öz dəyərlərini qorumağı bacarıblar.

Azərbaycanın ikinci dəfə müstəqillik qazandığı ilk dönəmlərə nəzər saldığımız zaman multikultural dəyərlərə Ümummilli Lider Heydər Əliyev kimi xüsusi önəm verən dahi şəxsiyyətə rast gəlirik.

Bu görkəmli dövlət xadimi Azərbaycanda sabitliyin təmin olunması, həmrəyliyin qorunması ilə yanaşı, multikulturalizmin inkişafında və genişləndirilməsində, eləcə də sivilizasiyalararası dialoqun təşkil edilməsində, tolerant mühitin formalaşdırılmasında müstəsna xidmətlərə imza ataraq böyük töhfələr verib. Bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsi də diqqətdən kənarda qalmayıb, mənəvi dəyərlər dünya səviyyəsində tanıtdırılıb. Ümummilli Lider hesab edirdi ki, vətənə sədaqət nümayiş etdirmək, milli-mənəvi dəyərlərə sadiq olmaq hər bir vətəndaşın borcudur. Ulu Öndər qədim tarixə malik olan mədəni irsimizin bütün azərbaycanlılar tərəfindən qorunması zəruriliyinin tərəfdarı olub. Azərbaycanın mədəniyyət və incəsənət sahəsi Heydər Əliyevin xüsusi diqqət və qayğısından əsla kənarda qalmayıb, həmçinin gənclərin vətənpərvər ruhda böyüməsindən ötrü onların milli-mənəvi dəyərlərimizi bilmələrinin və qorumalarının vacibliyini hər zaman vurğulayıb.

Ölkəmiz uzun müddət ərzində ateizm ideologiyasının əsaslarını rəhbər tutan totalitar rejim tərəfindən idarə edilib. Xalqımızı qədim tarixi bağlarla birləşdirən islam dinindən ayrı salmağa çalışıblar. Müstəqillik əldə edildikdən sonra xalqımız öz dini inanclarına qayıtmağa başladı. Sovet dövründə dinini belə dilinə gətirməyənlər, yaxud qadağalara əməl etməyə məcbur edilənlər demokratik əsaslarla qurulan dövlətdə yaşamanın imkanlarından yararlandılar. Vətəndaşların hüquq və azadlıqları, eləcə də dini etiqadlarını rahat şəkildə ifadə edə bilmək imkanları dövlətimiz tərəfindən qəbul edilən qərarlarla həyata keçirilməyə başlandı. Azərbaycan Respublikasının Konstitusiyasında "dini etiqad azadlığı"nın müəyyən edilməsi, həmçinin "Dini etiqad azadlığı haqqında" qanunun qəbul edilməsi buna əyani sübutdur.

Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda yeni məscidlər tikildi, ziyarətgah və dini məbədlər əsaslı şəkildə təmir-bərpa edildi, abadlaşdırıldı. Azərbaycanda müstəqillikdən öncə 17 məscid mövcud olduğu halda, onların sayı 1236-ya çatdırıldı. Heydər Əliyev 1997-ci ildə Bibiheybət məscidinin bərpasına başlanması mərasimindəki çıxışında da müstəqilliyimizin qorunub saxlanılmasında milli-mənəvi dəyərlərimizin xüsusi rolunun olduğunu vurğulamışdır: *"Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz - Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu islam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq və ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir".*

Ulu Öndər Azərbaycanın gələcək strategiyasının inkişaf etdirilməsində mənəvi mənbələrdən yararlanmağın xüsusi önəminin olduğundan bəhs edir, bu işdə islam dininin də əhəmiyyətli rolunu vacib hesab edirdi. Ümummilli Lider bu səbəbdən tez-tez dindarlarla görüşlər keçirir, onların fikirlərinə ciddi şəkildə önəm verir, müxtəlif dini bayram və matəm mərasimlərində məscidlərə gedir, dindar insanlar qarşısında çıxışlar edərdi. Ulu Öndər islam peyğəmbəri Həzrət Məhəmmədin (s) mövludu günü münasibətilə Təzəpir məscidində keçirilən bayram tədbirində iştirak edərkən bunları söyləyib: *"Bizim bu ədalətli mübarizəmizdə, torpaqlarımızın müdafiəsində Allah bizə həmişə yardımçı olacaqdır. Ulu peyğəmbərimiz Məhəmməd əleyhissalamın qoyduğu yol, Qurani-Kərimin göstərişləri bizi qələbəyə aparacaq, xalqımızı birləşdirəcək və biz düşmənləri məğlub edəcəyik".*

Ümummilli Lider Heydər Əliyev islam dininin mənsublarına göstərdiyi qayğı və diqqəti ölkəmizdə yaşayan digər dinlərin mənsublarından da əsirgəməyib. O, öz düşüncələri və əməlləri ilə ölkəmizdə tolerant mühiti formalaşdırıb ki, bu da bütün vətəndaşlar üçün örnək rolunu oynayır. Ulu Öndər digər din nümayəndələrinə qarşı yüksək dini dözümlülük nümayiş etdirməklə yanaşı, onları da heç vaxt diqqətdən kənarda saxlamayıb, arzu və istəklərini həyata keçirib, problemləri ilə yerindəcə tanış olmaqdan ötrü tez-tez ölkəmizdə fəaliyyət göstərən kilsə və sinaqoqlarda olub. Eləcə də görkəmli dövlət xadiminin onların dini məbədlərini bərpa etdirmək təşəbbüsünün bütün dünyaya nümunə olması danılmaz reallıqdır. Tez-tez dinin insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etdiyini vurğulayan Heydər Əliyev Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşdəki söhbətində dinin ekstremizmlə heç bir bağlılığının olmadığını vurğulayarkən deyib: *"Şübhəsiz ki, hər bir xalqın içərisində, hər bir ölkədə quldurlar, terrorçular, cinayətkarlar, ekstremistlər var. Ancaq bunun xalqların dini kökləri, yaxud onların dini prinsipləri ilə heç bir əlaqəsi yoxdur".*

Prezident İlham Əliyev haqqında danışarkən "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini verən Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev multikultural dəyərləri və tolerantlıq siyasətini də diqqətdən kənarda saxlamayıb, üstəlik, bu siyasəti Azərbaycan dövlətinin qarşıda duran ən prioritet məsələlərindən biri halına gətirib. Hər zaman etnik-mədəni prosesləri yaxından izləyib, onlara özlərinin layiq olduqları həddə dəyər verib. Tolerant mühitin inkişaf etdirilməsinə yalnız çıxışlarında toxunmaqla kifayətlənməyərək, bunu özünün əməli fəaliyyətində də dəfələrlə nümayiş etdirib. Cənab Prezident 2017-ci ildə BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı çıxışında Azərbaycanın multikultural həqiqətlərini dünyaya çatdırdı, Ermənistanın vandalizm siyasətini bir daha ifşa etdi. Dünya ictimaiyyətinin diqqətini Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə yönəldərək, ermənilərin Azərbaycan mədəniyyətinə qarşı törətdiyi vəhşilikləri dilə gətirdi:

*"Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bütün etnik qrupların və dinlərin nümayəndələri Azərbaycanda sülh və harmoniya şəraitində yaşayırlar. Azərbaycanda 2016-cı il "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Ərazisində demək olar ki, milli azlıqlar olmadığı, monoetnik ölkə kimi tanınan və ksenofobiya dövlət siyasəti olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi böyük sərvətimizdir. İslamofobiyanı pik həddinə çatdırmış Ermənistan işğal olunmuş ərazilərdə bütün məscidlərimizin dağıdılması kimi bir çox vandalizm aktlarını törətmişdir".*

Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində göstərilir ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi respublikadır. Azərbaycan məhz bu prinsipləri əsas götürərək, ölkə ərazisində mövcud olan etnik-mədəni müxtəlifliklər tənzimləyir, onların inkişaf proseslərinə də məhz bu kontekstdən yanaşır. Respublikamızda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan tolerant mühitin daha da genişlənib inkişaf etdirilməsindən ötrü davamlı şəkildə işlər görülür, bu yolda onun düşüncələri və tövsiyələri daim diqqət mərkəzində saxlanılır. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycan və onun əhalisi dünya ictimaiyyəti tərəfindən humanist, dözümlü, tolerant xalq kimi tanınır. Multikultural dəyərlərin yaşadılması sayəsində ölkəmiz daha da inkişaf edəcək və bütün dünya xalqları Azərbaycanı hər zaman nümunə kimi görəcəklər.

***Nicat HÜSEYNOV,***
***Azərbaycan İlahiyyat İnstitutunun Tələbə Gənclər Təşkilatının sədri***

# AGENCY FOR AGRO CREDIT AND DEVELOPMENT UNDER THE MINISTRY OF AGRICULTURE/AGRICULTURAL COMPETITIVENESS IMPROVEMENT PROJECT

## ANNOUNCEMENT

The Government of Azerbaijan and the World Bank is implementing "Agricultural Competitiveness Improvement Project" (ACIP) in Azerbaijan. The overall objective of the "Agricultural Competitiveness Improvement Project" is to facilitate the access of agricultural producers to markets by strengthening sanitary and phyto-sanitary services, enhancing selected value chains and providing financial services to agribusiness enterprises. The Project would further promote agribusiness/food processing through providing the access to finance to improve their technologies and increase production and upgrade and modernize the plant protection service and veterinary services. The Project would also facilitate development of selected high-value chains through a series of activities and interventions targeted at key constraints in the functioning of marketing chains of agricultural commodities. Finally, the Project will support a focused food safety capacity building program for both public and private sector.

**The project consists of four components:**
**(i) Component A - Support for sanitary and phytosanitary services;**
**(ii) Component B - Agribusiness value chain development;**
**(iii) Component C - Financial services to agribusiness;**
**(iv) Component D - Project Management.**

Management responsibility for the Project will come under the Agency for Agro Credit and Development (AACD) within the Ministry of Agriculture. ACIP will be managed by the Project Management Unit (PMU) located in the AACD. The PMU functions will include among others, implementation of project activities, financial management, procurement, project monitoring and evaluation.

Agency for Agro Credit and Development /Agricultural Competitiveness Improvement Project is announcing a competition to the following vacant position under the Project. The attention of interested candidates is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants [under IBRD Loans and IDA Credits & Grants by World Bank Borrowers, January 2011* edition revised July 2014 ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interest.

A Consultant will be selected in accordance with the Section V, Selection Individual Consultants set out in the Consultant Guidelines.

**Financial Specialist** — PMU Financial Specialist will be responsible for the effective organization and operation of the financial management function of project under supervision of the PMU Director. The Financial Specialist will work closely with the PMU Accountant, Procurement Specialists and other specialists.

**Required qualifications:**
- Resident of Azerbaijan, with ability to communicate in Azerbaijani;
- University degree in accounting or finance;
- Ten years of overall professional experience in accounting and financial management
- Three years of professional work experience with International Financing Institutions (previous experience with World Bank financing projects is advantage);
- Excellent knowledge of 1C accounting software;
- Good command of English language skills);

**Deadline:** **All the documents will be accepted up to 17:00, December 29, 2019**

**Required Documents:** 1) **Signed copy of CV prepared in English language;** 2) **Copy of diplomas, certificates etc.**
Please indicate the position you apply for in the subject line of the email.

**Contact person:** Further information can be obtained at the address below during working days office hours 09: 00 - 18: 00
Anar Azimov
Project Director
Gunel Safaraliyeva
Procurement Manager
Nargiz Iskenderova
Procurement Analyst
Tel: (012) 525 0117
E-mail: anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com

**The candidates meeting the above requirements can submit their documents to the following address or send them through e-mail:**
**Address: Azerbaijan, Baku, 25E. Nobel aven., Baku White City Business Center,**
**Project Management Unit**

# Agricultural Competitiveness Improvement Project

## Loan No 8286-Az

## AWARD NOTICE

**19.12.2019**

**Procurement of serosurvey equipment and reagents to zonal veterinary laboratories**

This notice includes findings of bid evaluation for the bidding process held for the procurement of goods for **Procurement of serosurvey equipment and reagents to zonal veterinary laboratories.**

The Invitation for Bids was advertised in newspaper Azerbaijan, on October 30, 2019 and deadline for submission of bids was specified as November 29, 2019, 15:00 local Baku time.

Three (3) companies applied to the PMU for obtaining of the bidding documents:.

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | "Avrasiya Istanbul Inshaat Turizm Sana" LLC | Azerbaijan | 08.11.2019 |
| 2 | "Dariservis" LLC | Azerbaijan | 01.11.2019 |
| 3 | "Atlas-TTQ" LLC | Azerbaijan | 13.11.2019 |

All four Companies submitted their bids by the deadline, November 29, 2019 by 15:00. Read-out prices were as follows:

| Name | Currency | Amount(s)(VAT included. DDP terms) | Comments on Bid opening |
|---|---|---|---|
| "Avrasiya Istanbul Inshaat Turizm Sana" LLC | AZN | **319 67.65** | Bid security declaration provided |
| "Dariservis" LLC | AZN | **286 442.76** | Bid security declaration provided |
| "Atlas-TTQ" LLC | AZN | **334 593.13** | Bid security declaration provided |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **"Dariservis" LLC (Azerbaijan) with the Contract amount 286 442.76 AZN (two hundred eighty six thousand four hundred forty two United States Dollars and seventy six)** included VAT. Terms of supply is DDP.

**Contract was signed on December 02, 2019.**

# BİLDİRİŞ

"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsi (DOST Agentliyi) **"İdarənin xərcləri"** maddəsi üzrə malların satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi **"NUR-SS" MMC** müəyyən edilmiş, qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# "Azərişıq" ASC müxtəlif növ kabellərin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1 Müxtəlif növ kabellərin satın alınması - 400 manat**
**Azərişıq ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 31 yanvar 2020-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 10 fevral 2020-ci il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 fevral 2020-ci il saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# BİLDİRİŞ

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin İnventarın satın alınması məqsədilə 29 oktyabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Qardaşlar Mebel-3" MMC" tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Adəm Əliyevə və Milli Məclisin deputatı, SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizləri
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ CƏFƏROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ PAŞA QIZI CƏFƏROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı aparatının kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi iş yoldaşları Xanlar Səlimxanova qardaşı
**ELXANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ CƏFƏROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ CƏFƏROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi Qulu Novruzov və akademiyanın kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İsmayıllıdan Mirdaməd Sadıqov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Milli Məclisin Mədəniyyət komitəsinin sədri akademik Rafael Hüseynova qardaşı
**RÖVŞƏN MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nın rəhbərliyi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ CƏFƏROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ PAŞA QIZI CƏFƏROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov SOCAR-ın prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aydın Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları Əsgər Əliyevə və Sevda Məmmədovaya əzizləri
**QAMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə əzizi
**MAARİF İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi
**QƏNİRƏ PAŞA QIZI CƏFƏROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8896
Sifariş 4259
Qiyməti 40 qəpik